# QURBAN BAYRAMINIZ MÜBARƏK!


RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 144 (9023) ŞƏNBƏ, 9 iyul 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




## Prezident İlham Əliyev Qurban bayramı ilə bağlı paylaşım edib




## Həmrəylik və xeyirxahlıq bayramı



İslam aləmində ən müqəddəs bayramlardan sayılan Qurban bayramı hər il hicri təqvimi ilə zilhiccə ayının 10-cu günündən başlayır və adətən, üç gün davam edir. Qurbanlığın ən önəmli xüsusiyyətlərindən biri din və məzhəb ayrı-seçkiliyinə yol verilməməsidir. Humanizm, xeyirxahlıq və bərabərlik rəmzi olan Qurban bayramı insanlar arasında şəfqət və mərhəmət duyğularının təntənəsini nümayiş etdirir.

→ 7

## "Bakıya SOCAR-ın tərəfdaşı kimi gəlirik..."

### Azərbaycan və Özbəkistan neftçiləri indi daha sıx əməkdaşlıq edəcəklər

Azərbaycan və Özbəkistan neftçilərini mehriban dostluq və faydalı əməkdaşlıq telləri birləşdirir. Son zamanlar bu münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub. Xüsusilə Prezident İlham Əliyevin bu ilin iyun ayında Özbəkistana rəsmi səfərindən sonra hər iki ölkənin neftçiləri qarşısında yeni əməkdaşlıq perspektivləri açılıb.

→ 9

# Zəfərin başlanğıc məqamı




→ 4

## Prezident İlham Əliyev Dövlət Neft Fondunun 2021-ci il büdcəsinin icrası haqqında sərəncam imzalayıb



→ 2

## Parlamentin növbədənkənar sessiyası başa çatdı



→ 2-3

## Diaspor quruculuğu yeni tarixi mərhələdədir




Milli birlik və həmrəylik ideyası sivil insan cəmiyyəti formalaşandan mövcud olmuş, mürəkkəb mərhələlərdən keçərək təkmilləşmiş, hər bir xalqın vahid məqsədlər ətrafında birləşməsində mühüm rol oynamışdır. Qloballaşan dünyada ayrı-ayrı xalqların, dövlətlərin sülh, əmin-amanlıq, tərəqqi məqsədi ilə yaxınlaşdığı, habelə bəşər sivilizasiyasının yeni mənəvi dəyərlər, humanizm çalarları ilə zənginləşdiyi, mədəniyyətlərarası dialoqun, etnomədəni müxtəlifliyin qorunmasının zərurətə çevrildiyi bir vaxtda milli özünüdərkin təsdiqi, insanların öz kökünə bağlılığı getdikcə daha böyük əhəmiyyət daşıyır.

→ 6

# Qlobal tədbirlər məkanı

### Ötən ay keçirilən tədbirlər bir daha göstərdi ki, Bakı aktual olan beynəlxalq məsələlərin müzakirə edildiyi mərkəzə çevrilib



İkinci Qarabağ müharibəsindəki qələbəsi ilə dünyanın daha yaxından tanıdığı Azərbaycanı xarici aləmə layiqincə təqdim edən başqa bir səbəb respublikamızın beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmlənməsi, qlobal problemlərin həlli ilə bağlı irəli sürdüyü təşəbbüslər və verdiyi dəyərli töhfələrdir. Bütün bunlar həm də Bakını beynəlxalq tədbirlərin ünvanına çevirib. Artıq xeyli müddətdir ki, paytaxtımız dünyanın diqqət mərkəzində olan mühüm məsələlərin müzakirə olunduğu siyasi, iqtisadi və humanitar mərkəz kimi tanınır.

### Azərbaycan əməkdaşlığın ən uğurlu platformalarını yaradıb

Beynəlxalq tərəfdaşlığın, sivilizasiyalararası əməkdaşlığın ən səmərəli və uğurlu platformalarını yaradan Azərbaycan hazırda çox mühüm forumlara, konfranslara evsahibliyi edir, irəli sürdüyü təşəbbüslər qlobal miqyasda hər zaman dəstəklənir.

→ 6

# MİDA sosial evlərin son seçim nəticələrini ləğv etdi

### Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə inşa edilən 442 mənzil vətəndaşlara yenidən təqdim olunacaq

"Martın 30-da Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) Yasamal Yaşayış Kompleksində yerləşən 442 mənzilin seçim prosesi baş tutduqdan sonra şübhəli hallar müəyyənləşdirilib. MİDA bununla bağlı Dövlət Təhlükəsizliyi Xidmətinə müraciət edib. Müəyyən edilib ki, satışa çıxarılmış mənzillərin 60 faizdən çoxu müdaxilə nəticəsində qeyri-qanuni yolla seçilib. Ona görə də bərabərlik pozulduğu üçün bütün seçimlər, yəni satış prosesinin bütün nəticələri ləğv edilib".

Bu fikirləri MİDA-nın Aparat rəhbəri Fərman Qurbanlı dünən keçirən brifinqdə səsləndirib. Qeyd edib ki, güzəştli mənzil



sisteminin bəzi istifadəçiləri tərəfindən bu sistemi daha sürətli etmək üçün müəyyən şəxslərə xüsusi proqram təminatları hazırladılıb. Martın 30-da keçirilən seçimlərdə də bu proqram təminatlarından istifadə edilib.

→ 4

# Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2021-ci il büdcəsinin icrası haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 434 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnamə"yə və 2001-ci il 12 sentyabr tarixli 579 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun illik gəlir və xərclər proqramının (büdcəsinin) tərtibi və icrası Qaydaları"na müvafiq olaraq Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2021-ci il büdcəsinin icrası ilə bağlı hazırlanmış hesabata dair Dövlət Neft Fondunun Müşahidə Şurasının və Azərbaycan Respublikası Hesablama Palatasının rəylərini və Dövlət Neft Fondunun maliyyə fəaliyyətinin beynəlxalq auditor təşkilatı tərəfindən keçirilmiş auditinin nəticələrini nəzərə alaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2021-ci il büdcəsinin icrası, gəlirlər 15 985 652,3 min manat, xərclər 11382683,9 min manat və ya Fondun 2021-ci il büdcəsində nəzərdə tutulana nisbətən gəlirlər üzrə 199,8 faiz, xərclər üzrə 92,9 faiz səviyyəsində olmaqla, aşağıdakı kimi təsdiq edilsin:

| Sıra №-si | Göstəricilər | min manatla |
|---|---|---|
| | **Gəlirlər, cəmi:** | **15 985652,3** |
| | o cümlədən: | |
| 1. | Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər (karbohidrogenlərin nəql edilməsi üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərtilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla) | 11 894 606,9 |
| 2. | Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar sərmayəçilərin müqavilə sahəsindən istifadə üçün akrhesabı ödənişləri | 5 283,6 |
| 3. | Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər | 21 382,3 |
| 4. | Dövlət Neft Fondunun valyuta aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlirlər | 3 287 434,2 |
| 5. | Neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı sərmayəçilərin ödədikləri bonuslar | 776 945,3 |
| | **Xərclər, cəmi:** | **11 382683,9** |
| | o cümlədən: | |
| 1. | Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinə transfertin yuxarı həddi | 11 350 000,0 |
| 2. | "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsi | 10208,9 |
| 3. | Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər | 22 475,0 |

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyul 2022-ci il*

# Bərdə rayonunun Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə (46 km)-Qarağacı-Mirzəcəfərli-Mollagüllər avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Dörd min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə (46 km)-Qarağacı-Mirzəcəfərli-Mollagüllər avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 3,1 milyon (üç milyon bir yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyul 2022-ci il*

### Milli Məclisin iclasında

# Parlamentin növbədənkənar sessiyası başa çatdı

**İyulun 8-də Milli Məclisin növbədənkənar sessiyasının sonuncu plenar iclası keçirilib. İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin bu günlərdə keçirilən Bakı konfransı uğurla başa çatıb.**



Əminliklə söyləmək olar ki, dünyada BMT-dən sonra ikinci ən böyük təşkilatın parlament ölçüsünün məhz bizim ölkəmizin səyləri ilə təsis edilməsi və fəaliyyətə başlaması Azərbaycan dövlətinin xarici siyasətinin növbəti böyük nailiyyətidir.

Spiker diqqətə çatdırıb ki, Azərbaycan Prezidentinin konfransda etdiyi əhatəli və dərin məzmunlu çıxış yeni dialoq və əməkdaşlıq platformasının fəaliyyət istiqamətlərinin müəyyən edilməsi baxımından çox əhəmiyyətli oldu. Prezident İlham Əliyev ölkəmizin yeni təsisatdan gözləntilərini ifadə edərək dedi: "Hesab edirəm ki, biz səylərimizi səfərbər edərək potensialı və həmrəyliyi gücləndirməli, vahid mövqedən çıxış etməliyik.

...Qoşulmama Hərəkatı təkcə ölkələr üçün maraqlarını müdafiə etmək və bir-birini dəstəkləmək platforması deyil, beynəlxalq arenada daha fəal rol oynamaq üçün platforma da ola bilər. Azərbaycan olaraq biz bunu görmək arzusundayıq."

Sahibə Qafarova qeyd edib ki, Parlament Şəbəkəsinin Bakı Konfransında xarici ölkələrin və beynəlxalq təşkilatların 50-yə yaxın nümayəndə heyətinin, başqa sözlə, 400-ə qədər nümayəndənin, o cümlədən 15 parlament sədrinin, 17 sədr müavininin iştirak etməsi bu mötəbər tədbirə göstərilən böyük maraq və diqqətin təzahürü idi.

Nümayəndə heyətlərinin rəhbərləri konfransda çıxışlarında Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyətini dəstəklədiklərini vurğulayaraq, ümid etdiklərini bildirdilər ki, Parlament Şəbəkəsi mütərəqqi bir parlament mexanizmi kimi dialoq mədəniyyətini inkişaf etdirəcək, bütün dünyada sülhə və sabitliyə töhfə verəcək, üzv ölkələrin bir-birinə daha da yaxınlaşmasında, əlaqələrin genişlənməsində müsbət rol oynayacaqdır. Eyni zamanda onlar Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının dünyada nüfuzunun artdığını, dövlətimizin müdrik siyasət yürütdüyünü, öz siyasi kursunu uğurla həyata keçirdiyini, ərazi bütövlüyünü bərpa etdikdən sonra regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün səylər göstərdiyini qeyd etdilər.

Milli Məclisin Sədri konfransdakı çıxışından danışaraq diqqətə çatdırıb ki, həmin çıxışında Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin qlobal miqyasda parlamentlərarası əməkdaşlığa töhfə verəcəyinə inandığını bildirib. Qeyd edib ki, bu gün dünyanın yaşadığı nəhəng transformasiya dövrü qlobal təhlükəsizlik və inkişaf strukturunu çox güclü və çox ciddi dəyişikliklərə məruz qoyur. Bu baxımdan sülh, təhlükəsizlik və dayanıqlı inkişafın qorunub saxlanılmasında Qoşulmama Hərəkatının təməl idealları və rolu davamlı əhəmiyyət kəsb edir.

Spiker xatırladıb ki, konfransda Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin İş Qaydalarına dair Nizamnaməsi, Bakı Bəyannaməsi qəbul olunub, təşkilatın rəsmi loqosu və bayrağı təsdiq edilib, həmçinin təşkilati məsələlərə baxılıb. Azərbaycan parlamentinin rəhbəri növbəti 3 il üçün Parlament Şəbəkəsinin sədri, Venesuela, Fələstin və Liviya nümayəndələri sədr müavinləri seçiliblər. Milli Məclisin Sədri ona bu yüksək etimadın göstərilməsinin dövlətimizin beynəlxalq aləmdə qazandığı böyük nüfuzun yeni bir ifadəsi kimi dəyərləndirilməli olduğunu qeyd edib.

Spiker bildirib ki, konfrans çərçivəsində onun 10 ölkənin parlament sədri ilə ikitərəfli görüşləri olub. Görüşlərdə yeni təsis edilən Parlament Şəbəkəsinin fəaliyyəti, eləcə də parlamentlərarası əməkdaşlığın inkişafı məsələləri müzakirə edilib.

Azərbaycan parlamentinin rəhbəri xatırladıb ki, Bakı konfransı başa çatdıqdan sonra, iyulun 2-də konfrans iştirakçıları Azərbaycanın işğaldan azad edilmiş ərazilərini, o cümlədən mədəniyyət paytaxtımız Şuşa şəhərini ziyarət ediblər.

Xarici ölkələrin və beynəlxalq parlament təşkilatlarının nümayəndələrinə Ermənistanın işğalı dövründə dağıdılmış və viran qoyulmuş şəhər və kəndlər, tarixi, dini və mədəni abidələr haqqında məlumat verilib. Qonaqlar işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq və abadlıq işləri ilə də tanış olublar.

Spiker onu da qeyd edib ki, Milli Məclisin evsahibliyi ilə keçirilən Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransı həm forma, həm də məzmun baxımından yüksəksəviyyəli bir tədbir olaraq qarşısına qoyulan bütün hədəflərə çatdı. Milli Məclisin Sədri bununla əlaqədar tədbirin təşkilində əməyi olan hər kəsə minnətdarlığını bildirib.

Sonra deputatlar gündəliyə münasibət bildiriblər. Gündəliyin qəbulundan sonra iclasda cari məsələlərin müzakirəsi keçirilib. Müzakirələrdə Milli Məclisin komitə sədrləri Siyavuş Novruzov, Zahid Oruc, deputatlardan Sahib Alıyev, Cavid Osmanov, Elşad Mirbəşir oğlu, Fazil Mustafa, Naqif Həmzəyev, Etibar Əliyev, Hikmət Məmmədov və Razi Nurullayev çıxış ediblər. Çıxış edənlər Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransının keçirilməsinin əhəmiyyətindən söz açıblar, Prezident İlham Əliyevin sədrliyi dövründə 60 illik tarixə malik olan Qoşulmama Hərəkatının aktual beynəlxalq platformaya çevrilməsindən, hərəkatın institusional inkişaf istiqamətində atılan uğurlu addımlardan danışıblar. Deputatlar Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinə Azərbaycan parlamentinin spikerinin sədrliyi dövründə qurumun qlobal miqyasda parlamentlərarası əməkdaşlığa töhfə verəcəyinə əminliklərini bildiriblər.

Deputatlar çıxışlarında dünyada və regionda baş verən hadisələrə münasibətlərini bildiriblər, həmçinin seçiciləri düşündürən bir sıra aktual məsələlərlə bağlı qeydlərini və rəylərini səsləndiriblər.

*Ardı 3-cü səh.*

# Ermənistan postmüharibə dövrünün reallıqlarını qəbul etməlidir

## Əks təqdirdə Azərbaycanın "dəmir yumruğ"u işğalçının başını yenidən əzməli olacaq

**Azərbaycan 44 günlük Vətən müharibəsi sayəsində Dağlıq Qarabağ münaqişəsini birdəfəlik həll edib və artıq beynəlxalq aləm də bu reallığı qəbul edib.**

Buna görədir ki, rəsmi Bakının qalib tərəf olaraq postmünaqişə dövründə müəyyənləşdirdiyi bütün diplomatik danışıqların gündəliyi də aparıcı beynəlxalq təşkilatlar tərəfindən əsas kimi götürülür. Cənubi Qafqazda məhz Azərbaycanın sülhün qarantı olduğu danılmaz faktdır.

Azərbaycanın 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar bəyanatları ilə qazandığı diplomatik uğurlar ötən ilin dekabrında Avropa İttifaqının vasitəçiliyi ilə başlayan "Brüssel prosesi" ilə davam edib və üçtərəfli bəyanatlarda nəzərdə tutulan məsələlərin real müstəvidə həll olunması üçün dövlət rəhbərləri səviyyəsində görüşlər keçirilib, danışıqlar aparılıb. O da faktdır ki, Ermənistan 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatda əks olunmuş və sonrakı bəyanatlarla bir daha möhkəmləndirilmiş öhdəlikləri pozmağa yönəlik davranışlar sərgiləyir. Belə ki, kommunikasiyaların açılmasını, sərhədlərin delimitasiyasını yubadır, Birinci Qarabağ müharibəsində əsir düşmüş minlərlə azərbaycanlının taleyi və kütləvi məzarlıqlar barədə məlumat verməkdən yayınır və digər bu kimi öhdəlikləri pozur.

Amma işğalçı Ermənistan da artıq anlayır ki, Azərbaycanın beynəlxalq hüquqa əsaslanan tələblərini qeyd-şərtsiz yerinə yetirməyə məhkumdur və bölgədə sülhə mane olacaq bu cür uğursuz cəhdlər etməsi yersizdir.

### Ağılsız davranışları Ermənistana baha başa gələ bilər

Bölgədə əbədi sülhün var olması üçün diplomatik müstəvidə aparılan danışıqlar ərəfəsində Ermənistan tərəfi yenə də öz bədnam və çirkin xislətini nümayiş etdirməkdən əl çəkmir. Ermənistan rəhbərliyinin son günlərdəki davranışı, əsassız "status" iddiaları və Zəngəzur dəhlizinin açılması istiqamətindəki fəaliyyətsizliyi, eyni zamanda Ermənistan silahlı qüvvələrinin Kəlbəcər istiqamətində ordumuzun mövqelərini mütəmadi atəşə tutması bunun bariz nümunələridir.

10 noyabr 2020-ci ildə Azərbaycan Ordusunun qarşısında diz çökərək məğlubiyyət aktına imza atmağa məcbur olan Ermənistanın bu davranışı isə onun rəhbərliyinin ağılsızlığından irəli gəlir və ölkə üçün acı və ağır nəticələr doğura bilər.

Müzəffər Ali Baş Komandan kimi 26 İyun Silahlı Qüvvələr Günündə Şərqi Zəngəzura səfəri zamanı İlham Əliyev bir daha işğalçı Ermənistana və revanşist qüvvələrə xəbərdarlıq etdi ki, heç kim Azərbaycanın qabağında dura bilməz. Əgər yenə də Ermənistanda revanşist qüvvələr baş qaldırsa, bilməlidirlər ki, onları nələr gözləyir: "Biz Ermənistanda baş qaldıran revanşist qüvvələrin hərəkətlərinə diqqətlə baxırıq. Onlar da bunu bilsinlər. Bax, o dağın başında mənim sözlərim yazılıb: "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın".

### Azərbaycan Ordusu gücünə güc qatıb

Kəlbəcərdəki komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə Müzəffər Ali Baş Komandan bir daha vurğuladı ki, Vətən müharibəsində Ermənistanı məğlub etməyimiz onlar üçün dərs olmalıdır. Ermənilər hesab edirdilər ki, orduları məğlubedilməzdir və öz orduları haqqında olmayan şayiələri yayırdılar. Biz göstərdik ki, onlar Azərbaycan Ordusu qarşısında duruş gətirə bilməzlər.

Hadrutdan sonra Kəlbəcərdə komando tipli hərbi hissənin yaradılması təbii ki, Azərbaycanın Vətən müharibəsindən sonra ordu quruculuğunu daha da gücləndirdiyinin əyani sübutudur. Komando qüvvələri digər silahlı birləşmələrlə bərabər ölkə qarşısında duran vəzifələri yerinə yetirmək, ərazi bütövlüyünü müdafiə etmək və sərhədlərimizi qorumaq üçün bütün imkanlara malikdir.

Vətən müharibəsindən sonra Azərbaycan Ordusu gücünə güc qatıb. Həm təchizat, həm də döyüş qabiliyyəti nöqteyi-nəzərindən ordumuzun inkişafı üçün ciddi addımlar atılıb. Qarşıda da bu istiqamətdə görüləcək mühüm işlər var. Yeni silahlar, ən müasir texnika Azərbaycana gətirilir və bundan sonra da gətiriləcək. Ermənistanla sərhəddə mövqelərimiz möhkəmlənib və daha da möhkəmlənəcəkdir.

Ali Baş Komandan hərbçilər qarşısındakı çıxışında bir daha bəyan etdi ki, Azərbaycan müharibə istəmir və heç vaxt da istəməyib. Ölkəmiz istəyir ki, bizim maraqlarımız təmin olunsun, müharibə nəticəsində yaradılmış reallıqlar hamı tərəfindən qəbul edilsin: "Deyə bilərəm ki, dünyanın aparıcı qüvvələri postmüharibə reallıqlarını artıq qəbul ediblər və öz fəaliyyətlərini bu reallıqlar əsasında qururlar. Ermənistan da bu reallığı qəbul etməlidir".

Prezident İlham Əliyevin haqlı olaraq bəyan etdiyi kimi, əgər Ermənistan üçtərəfli bəyanatlarla üzərinə düşən öhdəliklərini yerinə yetirməsə, sülh haqqında danışmaq çətin olacaq. Nəticədə məğlub ölkənin bədnam əməlləri yenə də onu "dəmir yumruğ"un zərbəsini almağa gətirib çıxarda bilər.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# *Kanadalı jurnalist:* "Ermənilərin insanlığa qarşı törədilən ağır cinayətlərinin arxasında duran məntiqi başa düşmək çətindir"

Kanadadakı yəhudi icmasına məxsus "Canadian Jewish News" portalında jurnalist Raçel Avrahamın Azərbaycanın işğaldan azad olunmuş Ağdam rayonuna səfəri ilə bağlı məqaləsi yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, ivrit dilində dərc edilən məqalədə sovet dövründə 100 minə yaxın əhalisi olan Ağdam şəhərinin 1993-cü ildə Ermənistan tərəfindən işğal olunaraq talan edildiyi və dağıdıldığı bildirilib.

Müəllif səfəri barədə məlumat verərək bildirib: "İsrailin sabiq rabitə naziri Ayub Kara və Bakının nüfuzlu ADA Universitetində təşkil olunmuş müzakirələrdə iştirak edən digər 22 xarici ekspertlə birgə Qarabağ bölgəsindəki Ağdam şəhərinə səfər etdim. Səfər zamanı biz XVIII-XIX əsrlərdə Qarabağ xanlarının ailə üzvlərinin məzarlarının olduğu İmarət qəbiristanlığını ziyarət etdik. Ermənilər işğal dövründə tarixi abidələrdən, türbələrdən donuz tövləsi kimi istifadə ediblər. Həmin türbələr məhv edilib. Qarabağ xanlarının məzarlarının gözəl türk memarlığı üslubunda tikilmiş türbələrinin yerində indi yalnız dağıntılar qalıb. Bu obyektlərin Ümumdünya İrs Siyahısına salınmış abidələr kimi tanınması əvəzinə, onlara göstərilən münasibət ürək ağrıdır".

Raçel Avraham vurğulayıb ki, İmarət qəbiristanlığı erməni işğalçıları tərəfindən təhqir edilən yeganə tarixi məkan olmayıb. Ermənilər Ağdam şəhərində 1860-cı illərdə tikilmiş tarixi məscidi gözətçi qülləsinə və donuz tövləsinə çeviriblər. Məscidin tamamilə dağılmamasının yeganə səbəbi də məhz budur. Bu ərazidə 60-dan çox məscid tamamilə dağıdılıb. İşğaldan əvvəl, o cümlədən İkinci Dünya müharibəsi illərində də sovet əsgərlərini də təmin edən tarixi Ağdam Çörək Muzeyində çörək nümunələri qorunurdusa, indi həmin qiymətli tapıntıların qalıqlarından belə əsər-əlamət yoxdur. Oradakı bütün digər eksponatlar tamamilə məhv edilib. Muzeyin binası yandırılıb.

"Erməni cinayətkarlarının bütöv bir şəhəri dağıtmaq kimi mənfur əməlinin səbəblərini anlamaq çox çətindir. Onların İkinci Dünya müharibəsi dövründən qalan çörək nümunələri kimi nadir mədəni sərvəti niyə məhv etdiklərini, məscidlərdə at və donuz saxlamaq istəyini başa düşmürəm. Meyitlərin dişindən bir neçə qızıl diş qoparmaq üçün yüzlərlə məzarı niyə təhqir etdiklərini də başa düşmürəm. İnsanlığa qarşı bütün bu ağır cinayətlərin arxasında duran məntiqi başa düşmək çətindir. Mən UNESCO-nun Ağdamda dağıdılmış və dünya irsinə məxsus abidələrin dağıdılmasına etiraz etməməsini və ermənilərin bu hərəkətlərini niyə qınamadığını başa düşə bilmirəm. Beynəlxalq ictimaiyyət hara baxır? BMT hara baxır? BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini pozan və bütöv bir regionda etnik təmizləmə aparan Ermənistana qarşı ABŞ Konqresi niyə bu qədər ermənipərəst mövqe tutur?", - deyə müəllif təəssüflə vurğulayıb.

Raçel Avraham bildirib ki, Avrasiya Araşdırmaları Mərkəzinin elmi işçisi Maksim Qoən ona Ağdama ikinci dəfə səfər etdiyini bildirərək böyük dağıntıların şahidi olduğunu deyib. O, qeyd edib: "Nifrətin nə demək olduğunu bilmək istəyirsinizsə, Ağdama və Qarabağ bölgəsinə səfər edin. Ermənistan rejimindəki millətçi ünsürlərin burada nələr etdiklərini öz gözlərinizlə görün".

İsrail Akademiya Monitorunun direktoru Barnet Dana isə bildirib ki, 30 illik işğal zamanı burada hər şeyin məhv edildiyi aşkar faktdır, Çörək muzeyinin dağıdılması çox utancvericidir.

Ağ evin Prezident Komitəsinin üzvü Kordell Karter Ağdama səfər edənədək bu şəhər haqqında məlumatsız olduğunu, belə bir fəlakətin ilk dəfə şahidi olduğunu deyib. Onun sözlərinə görə, Qərb ictimaiyyəti bu barədə daha ətraflı məlumatlandırılmalıdır.

Qarabağda erməni vandallarını törətdikləri dəhşətli dağıntıları öz gözləri ilə gördüyünü bildirən Ayub Kara vurğulayıb: "Azərbaycan Qarabağın sahibidir. Bu, qanunidir və Ermənistan bunu qəbul etməlidir. İki ölkə arasında münasibətlərin normallaşması üçün bütün dairələrdən olan insanlar sülh istiqamətində çalışmalıdırlar. Sülh ən doğru yoldur".

## Milli Məclisin iclasında

*Əvvəli 2-ci səh.*

# Parlamentin növbədənkənar sessiyası başa çatdı



Sonra iclasda gündəlikdəki məsələlərin müzakirəsi başlayıb. Parlamentin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, iclasda müzakirə olunacaq 15 məsələnin ilk üç məsələsi Milli Məclisin qərar layihələridir.

Qeyd olunub ki, birinci məsələ Bakı Apellyasiya Məhkəməsinin hakimi Elmira Eyvaz qızı Nağıyevanın səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında Milli Məclisin qərar layihəsidir. Məsələ ilə bağlı Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov məlumat verib. Bildirib ki, Azərbaycan Respublikası Prezidenti Konstitusiyanın, "Məhkəmələr və hakimlər haqqında" qanunun müvafiq maddələrini rəhbər tutaraq, Bakı Apellyasiya Məhkəməsinin hakimi Elmira Nağıyevanın səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi məsələsini parlamentin müzakirəsinə təqdim edib.

Deputat Tahir Kərimlinin məsələ ilə bağlı qeydləri dinlənildikdən sonra qərar layihəsi səsə qoyularaq qəbul olunub.

Gündəliyin ikinci məsələsini müzakirəyə təqdim edən spiker Sahibə Qafarova bildirib ki, bu, Milli Məclisin Əlcəzair parlamenti ilə əlaqələr üzrə işçi qrupunun yaradılması ilə bağlıdır. Sahibə Qafarova Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Bakı Konfransında iştirak edən Əlcəzair Milli Xalq Assambleyasının sədri ilə görüşdə qarşı tərəfin bu qrupun yaradılması istəyi ilə çıxış etdiyini bildirib. Spiker məsələyə dair məlumat vermək üçün Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyevaya söz verib.

Sevinc Fətəliyeva Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatının fəal üzvü, Afrika və ərəb ölkələrinin qabaqcıl dövləti kimi Əlcəzairlə parlamentlərarası əlaqələr üzrə qrupun yaradılmasının əhəmiyyətini vurğulayıb. O, qərar layihəsində yeni yaradılan qrupun rəhbərinin Milli Məclisin deputatı Mahir Abbaszadənin təyin edilməsinin nəzərdə tutulduğunu bildirib.

"Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişikliklər edilməsi barədə Milli Məclisin qərar layihəsi səsə qoyularaq qəbul edilib.

İclasın gündəliyində olan "Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya komissiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişikliklər edilməsi barədə Milli Məclisin qərar layihəsi ilə bağlı Toponimiya komissiyasının sədri İsa Həbibbəyli məlumat verib. Komissiya sədri bildirib ki, "Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya komissiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 2020-ci il 30 mart tarixli Qərarında "Məmmədzadə Aqşin Təvəkkül oğlu" sözləri "İsgəndərov Cavid Nizami oğlu" sözləri ilə, həmçinin "Dövlət quruculuğu üzrə qanunvericilik" sözləri "Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik" sözləri ilə əvəz edilir.

Milli Məclisin komitə sədri Siyavuş Novruzov və deputat Etibar Əliyev məsələ ilə bağlı fikirlərini səsləndirdikdən sonra qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin növbəti iki məsələsi hökumətlərarası sazişlərin təsdiqi və ləğvi haqqında qanun layihələridir. Qanun layihələri beynəlxalq müqavilələrlə bağlı olduğuna görə "Normativ-hüquqi aktlar haqında" Konstitusiya Qanununun tələblərinə əsasən bir oxunuşda qəbul olunacaq. Spiker bildirib ki, gündəliyin dördüncü məsələsi Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında bir müqavilənin təsdiqi və bir sazişin təsdiqinə dair qanunun ləğv edilməsi haqqında qanun layihəsidir.

Məsələyə dair məlumat verən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, müzakirəyə təqdim olunan "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında" Müqavilənin təsdiq edilməsi və "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında pensiya təminatı sahəsində vətəndaşların hüquqlarının zəmanətləri haqqında" Sazişin təsdiq edilməsi barədə" qanunun ləğv edilməsi haqqında qanun layihəsi vətəndaşların pensiya təminatı sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi prosesinin davamıdır.

Azərbaycanla Rusiya arasında 1999-cu ildə pensiya təminatı sahəsində əməkdaşlıq sazişi imzalansa da, bu sənədin tətbiqi mümkün olmayıb. Bu baxımdan Azərbaycan Hökuməti və Rusiya Hökuməti arasında 26 aprel 2022-ci il tarixdə Bakıda imzalanmış pensiya təminatı sahəsində yeni əməkdaşlıq müqaviləsi hər iki dövlətin ərazisində əmək miqrantı kimi çalışan şəxslərin pensiya hüququ müdafiəsini gücləndirəcək.

Komitə sədri "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında" Müqavilənin Rusiya Federasiyasında əmək fəaliyyəti ilə məşğul olan vətəndaşlarımızın pensiya hüququnun yaranması və pensiya məbləğinin yüksəlməsi imkanları barədə məlumat verib.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini Sevinc Fətəliyeva sazişlə bağlı komitənin müsbət rəyini səsləndirdikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadə "Azərbaycan Respublikası Hökuməti ilə Litva Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verib. Bildirilib ki, Azərbaycanla Litva arasında beynəlxalq avtomobil daşımaları haqqında 2022-ci il mayın 18-də Bakı şəhərində imzalanmış saziş tərəflərin dövlətlərinin əraziləri arasında və ya dövlətlərinin ərazilərindən tranzit keçməklə beynəlxalq avtomobil daşımalarının sadələşdirilməsi və inkişaf etdirilməsi üçün bağlanıb.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini Sevinc Fətəliyeva sazişlə bağlı komitənin müsbət rəyini bildirib.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin növbəti 4 məsələsi cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxındır. Qanun layihələrinin beynəlxalq konvensiyanın müddəalarının milli qanunvericiliyə implementasiyası ilə bağlı olduğunu və uyğunlaşdırma xarakteri daşıdığını bildirən spiker ona görə də bu layihələrin bir oxunuşda qəbul ediləcəyini deyib. Əvvəlcə qanun layihələrinin təqdimatlarının keçirilməsi, müzakirələrinin birgə aparılması və sonra ayrı-ayrılıqda səsə qoyulması qərara alınıb.

Gündəliyin 6-cı, 7-ci və 9-cu məsələləri - Mülki Məcəllədə, Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində, Cinayət Məcəlləsində, Cinayət Prosessual Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi, o cümlədən "Məhkəmələr və hakimlər haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Dövlət rüsumu haqqında", "Əmək pensiyaları haqqında", "Ədliyyə orqanlarında qulluqkeçmə haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında", "Dəniz limanları haqqında", "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi, həmçinin "Yol hərəkəti haqqında", "Prokurorluq haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Notariat haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnformasiya əldə etmək haqqında", "Biometrik informasiya haqqında", "Fərdi məlumatlar haqqında", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri barədə Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. Bildirib ki, bu qanun layihələri BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının ratifikasiyası ilə əlaqədar olaraq milli qanunvericiliyin həmin konvensiyaya uyğunlaşdırılması tələbinin yerinə yetirilməsi məqsədi ilə hazırlanıb.

Qeyd olunub ki, faktiki olaraq konvensiyanın bu müddəaları sahəvi qanun olan "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunda öz əksini tapıb. Amma konvensiyanın tələblərinə əsasən, bu qanunlar paketinin qəbulu milli qanunvericiliyin tam olaraq bu konvensiyanın prinsiplərə uyğunlaşdırılması prosesini tamamlayır.

8-ci məsələ - 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunla təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarnizon və qarovul xidmətləri Nizamnaməsi"ndə, 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunla təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də, 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunla təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də, 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunla təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"də və 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunla təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluqkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Arzu Nağıyev məlumat verib. Qeyd edib ki, qanun layihəsi BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının ratifikasiyası ilə əlaqədar olaraq Azərbaycan hökumətinin üzərinə götürdüyü öhdəliklərin, xüsusilə də milli qanunvericiliyin həmin konvensiyaya uyğunlaşdırılması tələbinin yerinə yetirilməsi məqsədi ilə hazırlanıb. Konvensiyanın sosial modelinin tələblərinə uyğun olaraq əlilliyi olan şəxslərə qarşı alçaldıcı və təhqiredici söz və ifadələrin neytral, mənfi təsəvvürlər yaratmayan sözlərlə əvəz edilməsi məqsədi ilə layihədə bu dəyişikliklər təklif edilib.

Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyevin, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynovanın, Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyevin, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyevin, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Əli Məsimlinin, İnsan hüquqları komitəsi sədrinin müavini Tahir Kərimlinin təmsil etdikləri komitələrin sənədlərlə bağlı müsbət rəyləri dinlənildikdən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Milli Məclisin Sədri bildirib ki, gündəliyin növbəti 4 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verib. Bildirilib ki, layihə özəl baytarlıq xidməti fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin və fərdi baytarlıq xidməti praktikası ilə məşğul olan fiziki şəxslərin vergitutma məsələlərinin tənzimlənməsi məqsədilə hazırlanıb. Sənədə əsasən özəl baytarlıq xidmətlərinin ƏDV-dən azad edilməsi, fərdi baytarlıq xidməti praktikası ilə məşğul olan fiziki şəxslərin isə sadələşdirilmiş vergi ödəyicisi kimi sabit pul məbləğində vergiyə cəlb edilməsi təklif olunur.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Miqrasiya Məcəlləsində, "Yanğın təhlükəsizliyi haqqında", "Yerin təki haqqında", "Balıqçılıq haqqında", "Texniki təhlükəsizlik haqqında", "Atmosfer havasının mühafizəsi haqqında", "Tütün və tütün məmulatı haqqında", "Telekommunikasiya haqqında", "Damazlıq heyvandarlıq haqqında", "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında", "Pambıqçılıq haqqında" və "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Bildirilib ki, qanun layihəsi iki oxunuşda qəbul edilib. Mətnlərdə hər hansı dəyişiklik edilməyib. Qanun layihəsi "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" qanuna uyğun olaraq hazırlanıb.

Layihə ilə bağlı Ziyafət Əsgərov Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, Sadiq Qurbanov Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin, Əli Məsimli İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, Musa Quliyev Əmək və sosial siyasət komitəsinin, Tahir Rzayev Aqrar siyasət komitəsinin, Fazil Mustafa Mədəniyyət komitəsinin müsbət rəylərini diqqətə çatdırıblar.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Bildirib ki, layihə sığortaolunanların qanunvericilikdə nəzərdə tutulan sosial müdafiə hüquqlarının təminatı üçün zəruri məlumatların fərdi uçotunun təşkili ilə bağlı tənzimləmənin təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. Bildirib ki, sənəd "Sosial sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə" və "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2018-ci il 30 noyabr tarixli qanunlara uyğun olaraq hazırlanıb və uyğunlaşdırma xarakteri daşıyır.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Parlamentin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin növbəti iki məsələsi Azərbaycan Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olub. Birinci oxunuşda müzakirəyə təqdim olunan bu qanun layihələri mahiyyətcə bir-birinə yaxındır.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat verib. Bildirilib ki, ölkədə sığorta sektorunun inkişafının əsas strateji istiqamətlərindən biri də aparılan əməliyyatların rəqəmsallaşmasının həyata keçirilməsi ilə sığorta bazarının yeni biznes modellər və müasir xidmət təcrübələrinə uyğunlaşdırılmasıdır. Qeyd edilib ki, hazırda qüvvədə olan "İcbari sığortalar haqqında" qanunun mövcud redaksiyasına görə yalnız avtomobil nəqliyyatı vasitələrinə münasibətdə bağlanan icbari sığorta müqavilələri elektron sənəd formasında bağlanılır. Qanunla tənzimlənən daşınmaz əmlakın icbari sığortası, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası və sərnişinlərin icbari fərdi qəza sığortası üzrə sığorta müqavilələri isə kağız formasında bağlanılır. Müqavilələrin kağız formasında bağlanılması bəzi hallarda bir sıra problemlərin yaranmasına səbəb olur. Eyni zamanda layihədə hadisə iştirakçıları tərəfindən doldurulan yol-nəqliyyat hadisələri barədə protokolun elektron formada tətbiq edilməsi imkanı da həmin protokola elektron çıxış imkanlarının yaradılmasını nəzərdə tutur.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov isə "Yol hərəkəti haqqında", "Notariat haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) haqqında məlumat verib. Bildirilib ki, layihə icbari sığorta informasiya sistemi ilə bir sıra dövlət orqanlarının informasiya sistemlərinin inteqrasiyasını nəzərdə tutur. Bu isə vətəndaş məmnunluğunun artırılmasına, vaxt itkisinin aradan qaldırılmasına, eyni zamanda sui-istifadə hallarının qarşısının alınmasına xidmət edəcək. Deputat adları göstərilən qanunlar üzrə təklif olunan dəyişiklikləri nəzərə çatdırıb.

Bu qanun layihəsinə dair İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyini bildirən deputat Əli Məsimli qeyd edib ki, nəzərdə tutulan dəyişikliklər "İcbari sığortalar haqqında" qanuna təklif olunan dəyişikliklərə uyğunlaşdırılma xarakteri daşıyır.

Sonra təqdim olunan son iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İclasda deputat Fəzail Ağamalı çıxış edərək ölkə Prezidentinin təşəbbüsü və rəhbərliyi altında yaradılmış Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransını yüksək qiymətləndirib. Qeyd edib ki, eyni zamanda Gənclər Şəbəkəsinin də yaxın vaxtlarda toplantısının keçirilməsi nəzərdə tutulur. Bu da çox ciddi bir təşəbbüsdür. Deputat bildirib ki, Milli Məclisin Sədri Sahibə Qafarovanın uzunmüddətli parlament təcrübəsi, beynəlxalq təşkilatlarda fəaliyyəti onu deməyə əsas verir ki, spikerin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin sədri seçilməsi qurumun işinin yüksək səviyyədə həyata keçirilməsinə, Azərbaycan parlament təcrübəsinin dünyada yayılmasına töhfə verəcək.

Çıxışının davamında Fəzail Ağamalı son günlər kütləvi informasiya vasitələrində vaxtilə Xəzər dənizini hasarlamış ayrı-ayrı iş adamlarının qanunsuz hərəkətlərinə qarşı Bakı Şəhər İcra Hakimiyyətinin həyata keçirdiyi tədbirlər barədə yayılan məlumatlardan bəhs edib. O, Bakı Şəhər İcra Hakimiyyətinin xalqın maraqlarına xidmət edən bu addımını yüksək qiymətləndirib və bunun davamlı olmasının vacibliyindən danışıb.

Gündəlikdəki məsələlərin qəbulundan sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, həm iclasın, həm də növbədənkənar sessiyanın gündəliyinə daxil olan məsələlər başa çatdı. Növbədənkənar sessiya dövründə Milli Məclisin 5 iclası keçirilib, 38 qanun və 6 qərar qəbul edilib. Spiker bu qanunvericilik aktlarının Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən hərtərəfli islahatların, quruculuq işlərinin hüquqi bazasını daha da möhkəmləndirməyə və təkmilləşdirməyə xidmət edəcəyinə əminliyini ifadə edib.

Parlamentin Sədri bildirib ki, növbədənkənar sessiya dövründə qanunvericilik fəaliyyəti ilə yanaşı, Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafı sahəsində də zəruri tədbirlər görülüb. O, həm yaz sessiyasında, həm də növbədənkənar sessiyada görülmüş işlərin gələn sessiyanın uğurlarına da möhkəm zəmin yaratdığına inamını bildirib. Spiker səmərəli fəaliyyət üçün deputatlara təşəkkürünü çatdırıb.

Qeyd olunub ki, sessiyanın başa çatması gözəl bir bayram ərəfəsinə təsadüf edir. Xalqımız dünya müsəlmanlarını mərhəmətə, həmrəyliyə və qardaşlığa dəvət edən müqəddəs Qurban bayramını qeyd edəcəkdir.

Sahibə Qafarova bayram münasibəti ilə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təbriklərini çatdırıb, onlara dəyərli fəaliyyətlərində yeni uğurlar arzulayıb.

Spiker xalqımızı, deputatları və iclasda iştirak edən media nümayəndələrini də Qurban bayramı münasibətilə təbrik edib və Milli Məclisin növbədənkənar sessiyasını bağlı elan edib.

İclasın sonunda Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Bununla da Milli Məclisin növbədənkənar sessiyası başa çatıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

### "Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya komissiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsini rəhbər tutaraq Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

"Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya komissiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 2020-ci il 30 mart tarixli -VIQR nömrəli Qərarında (Azərbaycan Respublikası Milli Məclisinin Məlumatı, 2020, № 1; 2022, № 1) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissədə "Məmmədzadə Aqşin Təvəkkül oğlu" sözləri "İskəndərov Cavid Nizami oğlu" sözləri ilə əvəz edilsin.
2. 2-ci hissədə "Dövlət quruculuğu üzrə qanunvericilik" sözləri "Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik" sözləri ilə əvəz edilsin.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 8 iyul 2022-ci il*

### Bakı Apellyasiya Məhkəməsinin hakimi Elmira Eyvaz qızı Nağıyevanın səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 113-cü maddəsinin ikinci hissəsinin 12-ci bəndinə və 114-cü maddəsinin üçüncü hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Bakı Apellyasiya Məhkəməsinin hakimi Elmira Eyvaz qızı Nağıyevanın səlahiyyətlərinə vaxtından əvvəl xitam verilsin.
2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 8 iyul 2022-ci il*




# Zəfərin başlanğıc məqamı

## Tovuz döyüşləri Vətən müharibəsində qazanılan böyük Qələbənin qığılcımıdır

**Düşmən üzərində qələbə Azərbaycan tarixinin ən şanlı səhifəsidir. Lakin bu Zəfərin ayaq səslərinin eşidildiyi, xalqın müzəffər ordusuna etimadının özünə qayıtdığı Aprel, Günnüt və Tovuz döyüşlərini unutmaq olmaz.**

Çünki məhz həmin döyüşlərdəki qələbələrimiz xalqımızı torpaqlarımızın düşmən tapdağından azad edilməsinə ruhlandırdı. Xalq Ali Baş Komandan İlham Əliyev ərtafında birləşib haqq savaşına qalxdı. Qüdrətli sərkərdənin "dəmir yumruq" əməliyyatı ilə Azərbaycan Ordusu 30 illik Qarabağ həsrətinə son qoydu.

### Generalı, polkovniki əsgəri ilə çiyin-çiyinə döyüşən ordu

Əlbəttə ki, bu uğurların ilk halqası 2016-cı ildəki Aprel zəfəri idi. Bu qələbədən sonra Böyük qayıdışa Cocuq Mərcanlıdan başladıq. 2018-ci ildə isə Günnüt zəfəri Ermənistana növbəti dərs oldu. Amma düşmən yenə də bundan nəticə çıxarmadı, təxribatlarından əl çəkmədi. 2020-ci ilin iyul ayında yenidən çirkin əməllərini işə salıb cəbhənin Tovuz istiqamətində növbəti təxribata əl atdı.

İyulun 12-si günorta saatlarından başlayaraq Ermənistan silahlı bölmələri tərəfindən Azərbaycan Dövlət Sərhəd Xidmətinin Tovuz rayonunda yerləşən mövqeləri artilleriya qurğularından atəşə tutuldu. Azərbaycan Silahlı Qüvvələrinin cavab atəşi və əks-həmlə tədbirləri nəticəsində düşmən təxribatının qarşısı yenə də alındı. Döyüşlər zamanı Ermənistan ordusunun şəxsi heyəti çoxsaylı itki verdi. İyulun 13-nə keçən gecə ərzində də gərginlik davam etdi. Artilleriya, minaatan və tankların tətbiqi ilə gedən gecə döyüşlərində Azərbaycan Ordusunun dəqiq atəşi nəticəsində qarşı tərəfin dayaq məntəqəsi, artilleriya qurğuları, avtomobil texnikası və canlı qüvvəsi məhv edildi.

Bir neçə gün davam edən döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə başa çatdı.

Bu döyüşlərdə Azərbaycan Ordusunun 12 hərbi qulluqçusu - general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, mayor Anar Novruzov, baş leytenant Rəşad Mahmudov, gizir İlqar Zeynallı, gizir Yaşar Babayev, çavuş Vüqar Sadıqov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, baş əsgər Elşad Məmmədov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, əsgər Elçin Mustafazadə, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, əsgər Nazim İsmayılov və əsgər Xəyyam Daşdəmirov qəhrəmancasına şəhid oldular. Tovuz rayonunun Ağdam kənd sakini, 76 yaşlı Əziz Əzizov qətlə yetirildi.

Bu savaş düşmənə bir neçə həqiqəti göstərdi. Düşmən ilk növbədə onu gördü ki, Azərbaycanın generalı, yüksəkrütbəli zabitləri səngərdə, hücumda əsgərləri ilə bərabər vuruşur, onları ruhlandırır, şəxsi nümunə göstərirlər.

Düşmən şahid oldu ki, İlham Əliyevin yaratdığı vətənpərvərlik məktəbinin hər bir igidi döyüş meydanında mərdliklə savaşıb şəhidlik zirvəsinə ucalmağı şərəf bilir. Onlar bu zirvəyə ucalmaqla gələcək nəsillər üçün nağıllar, dastanlar yox, əsl qəhrəmanlıq nümunəsi yaradırlar və bu, yetişməkdə olan gəncliyi qələbələrə, zəfərlərə ruhlandırır. Bu qələbə ilə Azərbaycan Ordusu bir daha göstərdi ki, Ermənistan silahlı bölmələri onun qarşısında aciz və cılızdır.

Erməni xalqı bir daha əmin oldu ki, əgər Azərbaycan Ordusu genişmiqyaslı əməliyyat keçirsə, bir neçə günə üçrəngli bayrağımız İrəvanda dalğalana bilər. Necə ki, cəmi 44 günə Şuşaya sancıldığı kimi...

### Həm Ermənistana, həm də Minsk qrupunun sabiq həmsədrlərinə xəbərdarlıq

Tovuz döyüşlərində düşmənin məqsədi bəlli idi. Bərbad halda olan idarəçiliyindən narazılıqları azalda, dərinləşən sosial-iqtisadi böhrandan, koronavirus pandemiyası burulğanından çıxa bilmədiyi üçün baş nazir Nikol Paşinyan təxribat törədərək Azərbaycanın timsalında ümumi düşmən obrazı yaradıb ictimai rəyi daxili problemlərdən yayındırmağa yönəltmək istəyirdi. Amma Azərbaycan Ordusu Ermənistanın bu arzusunu da puça çıxardı.

Ordumuzun qələbəsi vasitəçilik missiyasını öz üzərinə götürmüş ATƏT-in sabiq Minsk qrupunun həmsədrlərinə də xəbərdarlıq oldu. Onlar açıq şəkildə gördülər ki, mandatlarını yerinə yetirməsələr və təcavüzkarın yerində oturdulması üçün təsirli addımlar atmasalar, tamam başqa reallıqlarla üzbəüz qalacaqlar.

Tovuz döyüşləri göstərdi ki, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli, ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, erməni təxribatlarının qarşısının alınması istiqamətində İlham Əliyevin yürütdüyü siyasəti Azərbaycan xalqı qətiyyətlə müdafiə edir. Əli silah tutan vətənpərvər insanlar özlərini Vətənin sadiq əsgəri hesab edir və düşmənin Vətənimizə qarşı uzanan təkcə qanlı əllərini deyil, qollarını da kökündən kəsib atmağa hazırdırlar.

Bu döyüşlərdən sonra Ermənistana heç bir dövlət, təşkilat dəstək vermədi. Bu isə işğalçı ölkənin siyasətinin ifşası, erməni yalanlarının iflasa uğraması istiqamətində mühüm əhəmiyyət kəsb etdi. Heç Ermənistanın təmsil olunduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı da onun müdafiəsinə lüzum bilmədi. Ermənilər güman edirdilər ki, bu hadisədən sonra təşkilat dərhal toplaşacaq və baş vermiş hadisəni qiymətləndirəcəkdir. İyulun 12-də Ermənistan hadisə ilə bağlı KTMT-yə müraciət etmiş və təşkilatın iclasının çağırılmasını tələb etmişdi. Bu barədə qurumun saytında elan da yerləşdirilmişdi. Lakin qısa müddət sonra elan saytdan silindi və KTMT-nin heç bir iclası keçirilmədi. Bu hadisə pərt vəziyyətə düşən Ermənistanın diplomatik müstəvidə növbəti uğursuzluğu oldu. Bir daha sübut edildi ki, vassal Ermənistan üzvü olduğu təşkilatlarda belə əsassız olduğu üçün ciddi qəbul olunmur.

Bu proseslərdən sonra Ermənistan qorxuya düşdü. Diplomatik cəbhədə düşmən üzərində üstünlük qazanan Azərbaycan hərbi müstəvidə də güclü olduğunu göstərdi. Hər kəs gördü ki, təcavüzkarı hər an acı məğlubiyyətə düçar etməyə hazır olan qüdrətli Azərbaycan Ordusu var.

### "Dəmir yumruq" əməliyyatı, Zəfərə aparan yol

Tovuz döyüşlərindən iki il ötür. İllər ötsə də, bu döyüş hər zaman xatırlanacaq və bu savaşın Vətən müharibəsinin başlaması üçün bir qığılcım olduğu vurğulanacaq.

Tovuz dövüşlərində şəhid olan generalımız Polad Həşimovun nəşinin Bakıya gətirildiyi zaman böyük izdiham yaşandı, xalq ayağa qalxdı. Gecə saatlarında minlərlə Bakı sakini müharibə tələbi ilə paytaxt küçələrinə axışdı. "Qarabağa azadlıq!" şüarları səsləndirən, əsasən gənclərdən ibarət olan böyük bir izdiham Şəhidlər xiyabanına yürüş etdi. Gənclər Azərbaycan Ordusunun və Ali Baş Komandanın yanında olduqlarını, onu dəstəklədiklərini bəyan edərək şəhidlərin qısasının alınması, torpaqlarımızın azadlığı uğrunda savaş istədilər.

İlham Əliyevin çağırışına səs verən yüz minlərlə gənc Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin qeydiyyatda olduqları şöbələrinə müraciət edərək könüllü olaraq döyüşlərdə iştirak etmək arzularını bildirdilər. Beləliklə də, Tovuz hadisələri xalq və Prezident, xalq və ordu birliyini daha da möhkəmləndirdi.

Tovuz döyüşlərindən 2 ay sonra başlanan Vətən müharibəsi göstərdi ki, Azərbaycan Ordusu istənilən döyüş tapşırığını qısa zamanda yerinə yetirməyə qadirdir. 30 ilə yaxın müddətdə torpaqlarımızda müdafiə istehkamları quran erməni hərbçilərini qovmaq üçün cəmi 44 gün yetərli oldu. 2020-ci ilin sentyabrın 27-də başlayıb 8 Noyabr Zəfər Günü ilə bitən qələbələr silsiləsinin ilk halqası Aprel döyüşləri sayılsa da, Tovuz döyüşləri Böyük Qələbəyə aparan yol oldu. Azərbaycan nəinki Ermənistana, bütün dünyaya gücünü, qüdrətini nümayiş etdirdi.

Ali Baş Komandan İlham Əliyev həm sərkərdə kimi savaş meydanında, həm də diplomat kimi siyasi arenada düşməni və onun havadarlarını qətiyyətli qərarları ilə hər mənada susdurdu. "Qarabağ Ermənistandır" - deyən Paşinyanı qarşısında diz çökdürüb "Qarabağ Azərbaycandır!" dedizdirdi və kapitulyasiya aktına qol çəkdirdi. Sonra isə diplomatik məharəti ilə Ağdamı, Laçını, Kəlbəcəri bir güllə atmadan belə düşməndən geri aldı. Bununla da Qarabağın üzərindən "dağ" götürüldü, ATƏT-in Minsk qrupu tarixin arxivinə, "status" isə cəhənnəmə göndərildi. İlham Əliyevin güclü siyasətçi, əsl diplomat olduğunu bilənlər həm də onun əsl sərkərdə məharətinə şahidlik etdilər.

İkinci Qarabağ müharibəsindən sonra regionda yeni reallıqlar yarandı. İlham Əliyevin postmüharibə dövrünün reallıqları əsasında hazırladığı inkişaf strategiyasının icrasına start verildi. Qarabağı "dəmir yumruq" əməliyyatı ilə azad edən Azərbaycan Prezidenti dəmir iradə ilə onu yenidən qurmağa başladı və bu gün ölkəmizin yalnız öz gücünə işğaldan azad edilən torpaqlarımızda həyata keçirdiyi misli görünməyən tikinti-quruculuq, yenidənqurma işləri göstərir ki, tezliklə Böyük qayıdış başlayacaq. Azərbaycan xalqının 30 illik torpaq həsrəti başa çatacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# MİDA sosial evlərin son seçim nəticələrini ləğv etdi

## Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə inşa edilən 442 mənzil vətəndaşlara yenidən təqdim olunacaq

**"Martın 30-da Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) Yasamal Yaşayış Kompleksində yerləşən 442 mənzilin seçim prosesi baş tutduqdan sonra şübhəli hallar müəyyənləşdirilib. MİDA bununla bağlı Dövlət Təhlükəsizliyi Xidmətinə müraciət edib. Müəyyən olunub ki, mənzillərin 60 faizdən çoxu müdaxilə nəticəsində qeyri-qanuni yolla seçilib. Ona görə də bərabərlik pozulduğu üçün bütün seçim prosesinin nəticələri ləğv edilib".**



Bu fikirləri MİDA-nın Aparat rəhbəri Fərman Qurbanlı dünən keçirirən brifinqdə səsləndirib. Qeyd edib ki, güzəştli mənzil sisteminin bəzi istifadəçiləri tərəfindən bu sistemi daha sürətli etmək üçün müəyyən şəxslərə xüsusi proqram təminatları hazırladılıb. Martın 30-da keçirilən seçimlərdə də bu proqram təminatlarından istifadə edilib.

### Bəzi şəxslər mənzil əldə etmək üçün xüsusi kompüter proqram təminatları hazırladıblar

Öncə bir müddət əvvələ qayıdaraq xatırlatma edək ki, mart ayında MİDA-nın növbəti layihəsi - Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsində məzillərin seçimi zamanı sistemə qeyri-qanuni müdaxilə ilə bağlı məsələ barədə məlumat yayılmışdı. Həmin məlumtda qeyd edilirdi ki, martın 30-da 442 mənzilin güzəştlə verilməsi prosesi yerinə yetirilərkən kənardan müxtəlif şəxslər tərəfindən informasiya texnologiyaları sahəsində xüsusi kompüter proqram təminatlarından istifadə edilməklə mənzillərin seçimi prosesinə müdaxilə halları müşahidə edilib və bu məsələnin araşdırılması üçün aidiyyəti üzrə Dövlət Təhlükəsizliyi Xidmətinə müraciət olunub. İlkin araşdırmalar aparılaraq faktla bağlı Cinayət Məcəlləsinin 273.3.1 və 273.3.2-ci maddələri ilə cinayət işi başlanılaraq müəyyən edilib ki, Azərbaycan vətəndaşları Məmmədov Elçin Elman oğlu, Hacıyev Ruslan Afiz oğlu, Hüseynov Firudin İlqar oğlu, Lətifzadə Yunis İltimas oğlu, Abdullayev Tərlan Tahir oğlu və Məmmədov Cavid Fəhrad oğlu digərləri ilə əlbir olub ayrı-ayrı qruplar halında MİDA-nın "Güzəştli mənzil" informasiya sisteminə daxil olmaq, oradakı məlumatları dəyişmək hüququ olmadan maddi maraq zəminində onlara müraciət etmiş şəxslərin güzəştli şərtlərlə mənzil əldə etmələrini təmin etmək məqsədilə xüsusi kompüter proqram təminatları hazırlayıblar. Onlar 30 mart 2022-ci il tarixdə "Güzəştli mənzil" informasiya sisteminə daxil olub və kompüter məlumatlarını qəsdən təkrar dəyişdirərək qanunsuz müdaxilə edib, bu hərəkətləri ilə hüququ olan vətəndaşların ümumi və bərabər əsaslarla güzəştli mənzil əldə etmək imkanını məhdudlaşdırmaqla və dövlət orqanlarının normal fəaliyyətinə mane olmaqla əhəmiyyətli zərər vurublar. Həmin şəxslər Cinayət Məcəlləsinin 273.3.1 və 273.3.2-ci maddələrində nəzərdə tutulan cinayət əməllərini törətməkdə şübhəli bilinərək təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb ediliblər. Cinayət işi üzrə araşdırmaların aparıldığı və bununla bağlı ictimaiyyətə əlavə məlumat veriləcəyi qeyd edilmişdi.

İyulun 8-də isə Dövlət Təhlükəsizlik Xidməti ilə MİDA yenidən birgə məlumat yayıb. Həmin məlumatda qeyd olunub ki, "Güzəştli mənzil" sistemi agentliyin sərəncamında olan mənzillərin güzəştlə əldə olunması sahəsində ölkə vətəndaşlarına elektron xidmətlərin mərkəzləşdirilmiş qaydada göstərilməsini həyata keçirir. Onun əsas məqsədi mənzilləri güzəştlə almaq istəyən şəxslər üçün bərabər şərait yaratmaq, mənzillərin seçilməsi və alınması prosedurunu sadələşdirmək, vətəndaşların müraciətlərinə baxılması zamanı şəffaflığı və operativliyi təmin etməkdir.

Araşdırmalar nəticəsində müəyyən edilmiş halların "Güzəştli mənzil" sisteminin əsas iş prinsiplərinə zidd olması nəzərə alınaraq, 30.03.2022-ci il tarixdə keçirilmiş mənzil seçiminin nəticələrinin ləğv edilməsi barədə qərar qəbul edilib. Agentliyin sərəncamında olan mənzillərin güzəştlə əldə olunmasının ədalətli, şəffaf və bərabər şəraitdə keçirilməsini təmin etmək məqsədilə Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsində 442 mənzilin seçimi yenidən həyata keçiriləcək. Mənzil seçimi prosesinin yenidən təşkil olunacağı tarix barədə ictimaiyyətə məlumat veriləcək.

### Mənzillərin seçimi barədə elan ən azı 30 gün əvvəl verilir

Dünən MİDA-da keçirilən brifinqdə Aparat rəhbəri Fərman Qurbanlı qeyd edib ki, mənzil seçimi prosesi iki mərhələdən ibarət olur: "İlk mərhələdə mənzil seçimi aparılır. Daha sonra isə mənzil sifarişi mərhələsi gəlir. Burada bina, mərtəbə, otaq sayı seçilir. Vətəndaş 10 dəqiqə ərzində seçimini təsdiq etməlidir. Əks təqdirdə həmin mənzil üzrə digərlərinin seçimi üçün funksiya aktivləşir".

Mənzillərin seçimi barədə elan onun verilməsi tarixindən ən azı 30 gün əvvəl verilir. Hər elandan sonra təxminən 1 ay müddətində güzəştli mənzilin DEMO versiyası açılır. Elektron kabinetə sahib olan şəxslər həmin versiyada seçim üsullarına baxır, sistem barədə məlumatlı olurlar.

Aparat rəhbəri vurğulayıb ki, sistem hər bir istifadəçinin seçim etməsi üçün rahat interfeysə malikdir. Güzəştli mənzil sisteminin tətbiqinin əsas məqsədi güzəştlə mənzil əldə etmək istəyən şəxslər üçün bərabər şəraitin yaradılmasıdır. Hazırda isə sistemin təkmilləşdirilməsi istiqamətində işlər gedir. DEMO versiya ilə əsl versiya eyni hazırlandıqdan belə müdaxilə etmək mümkün olub. Buna görə də versiyalar arasında fərqlər ola bilər. Sistemdə işlər yekunlaşdıqdan sonra növbəti mərhələ elan olunacaq və bir ay əvvəldən mənzil seçimi ilə bağlı elan veriləcək. Əvvəlki seçimdə iştirak edən şəxslərə də heç bir məhdudiyyət tətbiq edilməyəcək.

### 300 nəfərin mənzil seçimi prosesi başqaları tərəfindən aparılıb

Brifinqdə çıxış edən Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşı Günel Hüseynova cinayət işi üzrə araşdırma aparıldığını, mənzillərin güzəştli şərtlərlə seçimi həyata keçirilərkən müdaxilə olunduğunu bildirib.

Onun sözlərinə görə, 14 apreldən bu günə qədər DTX-nin İstintaq Baş İdarəsi tərəfindən istintaq eksperimenti daxil olmaqla, çoxsaylı istintaq hərəkətləri həyata keçirilib.

Qeyd olunan şəxslərin müəyyənləşdirilərək ifşa edildiyini, bir nəfər barədə isə beynəlxalq axtarış elan olunduğunu vurğulayan Günel Hüseynova diqqətə çəkib ki, son dövrlər rəqəmsal texnologiyaların inkişafı, onların insanların həyatına geniş daxil olması bu sahədə cinayətkarlığın artmasına gətirib çıxarıb: "Hər bir cinayətdən danışanda onun subyekti əsas götürülr. Gələcəkdə belə üsullara əl atmaq istəyən və ya onlara yenidən müraciət edəcək şəxslər məsuliyyət daşıyacaqlar".

Cinayət işi üzrə təqsirləndirilən şəxlərin xidmətlərindən istifadə edərək qeyri-qanuni yollarla mənzil əldə etmək istəyən şəxslərə münasibətdə hansı hüquqi nəticələr baş verə bilər - sualına cavabında isə Günel Hüseynova bildirib ki, adına mənzil seçimi edilən şəxslər tərəfindən proses reallaşdırılmayıb. Onlar informasiya texnologiyaları sahəsində bilikləri olan şəxslərə müraciət ediblər. Araşdırmalar nəticəsində 300 nəfərin seçim prosesini özünün reallaşdırmadığı məlum olub. Həmin şəxslərin mənzil seçimi ləğv edilib.

O, həmçinin həmin mənzil seçimi prosesində 6 saniyə ərzində 1 nəfər, 7 saniyədə 18 nəfər, 8 saniyədə 52 nəfər, 9 saniyədə 62 və 10 saniyə ərzində 78 nəfərin mənzil seçimini tamamladığını qeyd edib.

### Güzəştli mənzil alanlar 3 il ərzində evi kirayəyə verə və satışını rəsmiləşdirə bilməzlər

MİDA-nın Aparat rəhbəri Fərman Qurbanlı qeyd edib ki, güzəştli mənzillərə sahib olanlara 3 il müddətində müəyyən məhdudiyyətlər nəzərdə tutulub. Yəni onlar 3 il müddətinə bu mənzilləri kirayəyə verə və satışını rəsmiləşdirə bilməzlər.

Aparat rəhbəri həmçinin vətəndaşlara müraciət edərək qeyd edib ki, sosial şəbəkələrdə mənzil seçimi ilə bağlı "kömək" istəyənlər barədə quruma məlumat versinlər. Eyni zamanda MİDA tərəfindən də bu kimi halların araşdırıldığını diqqətə çatdıran Fərman Qurbanlı güzəştli mənzillərin əvvəlcədən bronlaşdırılması ilə bağlı fikirlərə də münasibət bildirib. Onun sözlərinə görə, bu iddiaların əsası yoxdur, bütün mənzillər seçim başlayan zaman aktiv olur və iş sürətli həyata keçirilir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Fövqəladə hallar naziri Bərdədə yerləşən FHN-in yeni hərbi hissəsinə baş çəkib





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin müdrik rəhbərliyi altında şanlı Azərbaycan Ordusunun işğaldan azad etdiyi torpaqlarımızda Fövqəladə Hallar Nazirliyi (FHN) digər aidiyyəti dövlət qurumları ilə birgə ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi işlərini həyata keçirir.

Nazirlik tərəfindən icra edilən minatəmizləmə əməliyyatlarının sürətləndirilməsi məqsədilə Bərdədə Nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin xüsusi təyinatlı mexanikləşdirilmiş alayı yaradılıb. Dövlət başçısının diqqət və qayğısı ilə alay ərazilərin minalardan təmizlənməsi üçün qısa müddətdə ən müasir avadanlıq və cihazlarla təchiz edilib və hazırda bu istiqamətdə işlər sürətlə davam etdirilir. Eyni zamanda alayda xidmət edən əməkdaşlar bu sahədə beynəlxalq kurslarda iştirak edib, akkreditasiyadan keçiblər. Həmçinin minatəmizləmə əməliyyatlarına xüsusi təlim keçmiş minaaxtaran itlər də cəlb olunub.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyulun 8-də fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov Bərdədə yeni yaradılmış xüsusi təyinatlı mexanikləşdirilmiş alayda olub. Nazir minatəmizləmə işlərində istifadə olunan avadanlıq və cihazlara baxış keçirib, alayda xidmət üçün yaradılan şəraitlə yerində tanış olub, müvafiq tapşırıqlar verib.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin respublikanın bölgələrində vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, fövqəladə hallar naziri Kəmaləddin Heydərov iyulun 8-də Yevlax şəhərində, nazirliyin Aran Regional Mərkəzinin inzibati binasında Yevlax rayonunun və Mingəçevir şəhərinin sakinlərinin qəbulunu keçirib.

Fövqəladə Hallar Nazirliyinin Mətbuat xidmətindən bildiriblər ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Regional Mərkəzin həyətində ucaldılmış büstü ziyarət edilərək önünə gül dəstəsi qoyulub, əziz xatirəsi dərin ehtiramla anılıb.

Sonra fövqəladə hallar naziri tərəfindən qəbul edilən Yevlax rayonunun və Mingəçevir şəhərinin sakinlərinin müraciətlərinin əksəriyyəti yerində həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə nazirliyin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.

❖ ❖ ❖

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov iyulun 8-də Bərdə şəhərində Bərdə və Tərtər rayonlarının sakinlərini fərdi qaydada qəbul edib.

Qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülərək, Ulu Öndərin əziz xatirəsinə ehtiram bildirilib.

Sonra Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov Bərdə Suvarma Sistemləri İdarəsinin inzibati binasında Bərdə və Tərtər rayonlarından olan vətəndaşlarla görüşüb, onların müraciətlərini dinləyib.

Müraciətlər əsasən suvarma suyuna olan tələbatın ödənilməsi, suvarma kanallarının beton üzlüyə alınması, nasos stansiyalarının quraşdırılması və balansa götürülməsi, suburaxıcı qurğuların tikilməsi, kanalların lildən təmizlənməsi, subartezian quyularının qazılması və bərpası, həmçinin cəmiyyətin səlahiyyətlərinə aid olmayan müxtəlif məsələləri əhatə edib.

Qəbulda hər bir vətəndaşın müraciətini dinləyən Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə qəbulda iştirak edən məsul işçilərə müvafiq tapşırıqlar verib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

*AZƏRTAC*

# Şeyxülislam Allahşükür Paşazadə İslam dünyasının nüfuzlu qurumuna üzv seçilib

İyulun 8-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Misir Ərəb Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Hişam Mohamed Nağı Abdel Həmidlə görüşüb.



AZƏRTAC xəbər verir ki, Azərbaycanla Misir arasında tarixi dostluq və qardaşlıq əlaqələrinin bu gün də həyatın bütün sahələrində, o cümlədən dini-mənəvi müstəvidə davamlı inkişaf etdiyini qeyd edən QMİ sədri bu münasibətlərin dövlətlərimizin və xalqlarımızın ümumi maraq və mənafelərinə cavab verdiyini xüsusi vurğulayıb. Ölkəmizdə müstəqilliyin bərpasından sonra da Misirlə əlaqələrə önəm verildiyini deyən şeyxülislam Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında Misirin daimi dəstəyini xüsusi qeyd edib, bu ölkənin xalqına və hökumətinə təşəkkürünü bildirib.

Səfir Hişam Mohamed Nağı Abdel Həmid QMİ sədrinə onunla görüşmək imkanı yaratdığı üçün səmimi təşəkkürünü ifadə edib, Misirdə Şeyxülislam Allahşükür Paşazadənin fəaliyyətinin yaxından izlənildiyini və yüksək qiymətləndirildiyini vurğulayıb. Ölkələrimizin bir-birinə qarşılıqlı hörmət və məhəbbətlə bağlı olduğunu deyən səfir bu münasibətlərin daim yüksələn xətlə inkişafı üçün səylə çalışdığını vurğulayıb. O, Azərbaycanda tolerantlığın, multikulturalizmin yüksək səviyyədə olduğunu bildirib, digər dövlətlərdə belə münasibətlərin kobud şəkildə pozulmasından təəssüfünü ifadə edib. Diplomat Azərbaycandakı tolerantlığın dövlətin həyata keçirdiyi siyasətin tərkib hissəsi olduğunu vurğulayıb. Qeyd edilib ki, tarixən formalaşmış tolerantlıq ənənələri ilə tanınan, etnik və dini müxtəlifliyi milli sərvəti kimi dəyərləndirilən çoxmillətli və çoxkonfessiyalı Azərbaycanda multikultural dəyərlər və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir.

QMİ sədri öz növbəsində Azərbaycanın multikultural ənənələrindən danışıb, ölkəmizin multikultural ənənələr diyarı, dünyaya özünün tolerant həyat modelini təqdim edən qabaqcıl dövlət olduğunu deyib. O, həmçinin ölkəmizdə multikulturalizmin dövlət siyasətinə çevrildiyini, dövlətimizin başçısı İlham Əliyevin bu dəyərli ideyanın qlobal müstəvidə fəal müdafiəçisi olduğunu vurğulayıb. Şeyxülislam qeyd edib ki, Prezident İlham Əliyev multikulturalizmi Azərbaycanda həm həyat tərzi, həm də dövlət siyasəti kimi dəyərləndirib.

Misir səfiri Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin İslam dünyasının nüfuzlu qurumu olan Müsəlman Ağsaqqalları Şurasına üzv seçildiyini deyib və bu münasibətlə şuranın sədri Əl-Əzhər Şeyxi Əhməd ət-Tayyibin QMİ sədrinə ünvanlandığı məktubun surətini ona təqdim edib. Məktubda deyilir: "Sizə ən səmimi salamlarımı çatdırmaqdan, İslam dininə xidmət etmək yolunda çəkdiyiniz böyük zəhmətlərinizə görə səmimi təqdirimi ifadə etməkdən çox məmnunam. Allaha dua edirəm ki, Azərbaycan Respublikasında və Qafqaz Müsəlmanları İdarəsində göstərdiyiniz gözəl səyləriniz Sizə yardımçı olsun, bu işlərdə Sizi müvəffəq etsin.

Bəşəriyyət naminə göstərdiyiniz əhəmiyyətli səylərinizi və mühüm rolunuzu təqdir edərək, Sizin Müsəlman Ağsaqqalları Şurasının üzvlüyünə seçilməyiniz məni çox fərəhləndirir. Bu beynəlxalq qurum müsəlman cəmiyyətləri, habelə bu cəmiyyətlərlə digərləri arasında sülhü möhkəmləndirmək məqsədi daşıyır.

Sizin bu mühüm təşkilata qoşulmağınızı sülh yolunda bir töhfə kimi dəyərləndirir, insanlar arasında sülhün, birgəyaşayışın və bəşəri qardaşlığın möhkəmləndirilməsindən ibarət olan birgə məqsədlərimizə dəstək olacağına ümid edirəm. Allah-taala Sizi hər zaman müvəffəq və sabitqədəm etsin!".

Qeyd edək ki, Müsəlman Ağsaqqalları Şurası öz sıralarında İslam aləminin ən nüfuzlu dini xadimlərini birləşdirir. Şura müsəlman icmalarında sülhü təşviq etmək və onları münaqişə, bölünmə və parçalanma hallarından xilas etmək məqsədi daşıyan müstəqil beynəlxalq təşkilatdır. Baş qərargahı İsveçrənin Cenevrə şəhərində yerləşən şuranın sədri Əl-Əzhər Şeyxi Əhməd ət-Tayyib İslam dünyasının tanınmış din xadimidir və dünya miqyasında nüfuzlu şəxsiyyət kimi qəbul edilir. Misirin tarixi Əl-Əzhər Universitetinin rəhbəri olan Şeyx Əhməd ət-Tayyib Misirin dövlət xadimi rəsmi statusundadır. Roma Papası Fransisk ilə İnsan qardaşlığına dair sənədi 2019-cu ildə Əbu-Dabidə imzalamış müsəlman din xadimi olaraq böyük nüfuz sahibidir. Həmin tarixi sənədin imzalanması mərasimində Şeyxülislam A.Paşazadə də iştirak edib.

Müsəlman Ağsaqqalları Şurasının 17 üzvü var ki, onların sırasında Şahzadə Qazi bin Mühəmməd bin Talal, Şeyx Abdullah bin Bəyyah, doktor Abdullah Nassif, doktor Mühəmməd Qureyş Şihab, Şeyx Abdül Rəhman bin Mohammad Əl-Xəlifə kimi tanınmış müsəlman din və dövlət xadimləri yer alırlar.

Şeyxülislam Allahşükür Paşazadənin Əl-Əzhər Şeyxi Əhməd ət-Tayyibin təqdimatı ilə Müsəlman Ağsaqqalları Şurasına üzv seçilməsi Azərbaycan dövlətinin siyasi, iqtisadi, diplomatik sahələrdə uğurları ilə yanaşı, dini-mənəvi müstəvidə qabaqcıl rol oynamasının bariz nümunəsidir. Xüsusilə 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməsindən sonra xalqımızın dünya miqyasında qalib xalq, İslam aləmində öz ərazi bütövlüyünü bərpa etmiş dövlət kimi nüfuzunun daha da yüksəlməsindən sonra Azərbaycan dini liderinin Müsəlman Ağsaqqalları Şurasının üzvü seçilməsi ölkəmiz adına böyük tarixi nailiyyət, mühüm hadisədir.

# QMİ sədri Londonda keçirilən konfransda Britaniya Lordlar Palatasının ermənipərəst üzvünün əsassız ittihamlarına tutarlı cavab verib

**Böyük Britaniyada keçirilən Din və Etiqad Azadlığı üzrə Nazirlər Konfransı işini başa çatdırıb.**

AZƏRTAC xəbər verir ki, konfransda iştirak edən Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə tədbir çərçivəsində bir sıra görüşlər keçirib.

QMİ sədri Britaniyanın dövlət naziri, Uimbledon lordu Tariq Əhməd, ABŞ-ın dini azadlıqlar üzrə xüsusi səfiri Rəşad Hüsseyn, Oksford Universitetinin professoru Nazilə Qaneə və Anqlikan kilsəsi başçısının xarici əlaqələr üzrə katibi Riçard Sudvört ilə görüşüb.

Konfrans çərçivəsində keçirilən panel iclasının sonunda Britaniya Lordlar Palatasının ermənipərəst mövqeyi ilə seçilən üzvü baronessa Kerolayn Koks Azərbaycana qarşı əsassız ittihamlar səsləndirib. O, azərbaycanlıların, guya, erməniləri tarixi torpaqlarından qovduqları, soyqırım törətdikləri, 44 günlük müharibə dövründə erməniləri kasetli bombalarla atəşə tutduqları barədə cəfəng fikirlər söyləyib.

Tədbirin moderatoru baronessanın çıxışından dərhal sonra iclası bağlı elan edib. Buna görə də Şeyxülislam Allahşükür Paşazadə iclasdan sonra K.Koksa yaxınlaşaraq onun söylədiklərinin bütünlüklə yalan olduğunu deyib. Gözlənilmədən qarşısında Qafqaz Müsəlmanları İdarəsinin sədrini görən Koks çaşqın halda baş əyərək "səlamun əleykum" deyə şeyxülislamı salamlayıb.

"Sizin dediklərinizdə həqiqət yoxdur. İndiyə qədər dörd mindən çox azərbaycanlı itkin düşüb və onların taleyi barədə bu günədək heç bir məlumat yoxdur. Ermənistan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin tələblərini yerinə yetirmədi. Müharibə Azərbaycan torpaqlarında gedib. Ermənilər bizim tarixi ərazilərimizə sonradan köçürülüblər. Biz mehriban qonşuluq siyasəti yürüdürük və onları da buna çağırırıq", - deyə şeyxülislam qeyd edib.

QMİ sədrinin sərt sözlərini eşidən Koks məkanı tələsik tərk etməli olub.

# "Azərbaycanda əlilliyi olan şəxslərin reabilitasiyası sistemində islahatlara dəstək" layihəsinə start verilib

Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində əlilliyi olan şəxslərin sosial inteqrasiyası, onlara göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması və Avropanın ən yaxşı təcrübəsinə əsaslanan reabilitasiya sisteminin yaradılması məqsədi daşıyan "Azərbaycanda əlilliyi olan şəxslərin reabilitasiyası sistemində islahatlara dəstək" layihəsinin təqdimat mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev əlilliyi olan şəxslərin reabilitasiyasının, onların sosial müdafiəsi və cəmiyyətə inteqrasiyasının, bu sahədə xidmətlərin daha da təkmilləşdirilməsinin Azərbaycan hökumətinin prioritet fəaliyyət istiqamətlərindən olduğunu, ölkəmizdə bu sahədə davamlı işlərin həyata keçirildiyini qeyd edib.

Ölkəmizin 2008-ci ildə BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasına ilk qoşulan ölkələrdən biri olduğunu vurğulayan S.Babayev nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin 15 reabilitasiya müəssisəsinin son illərdə müasir tələblərə uyğun qurulduğunu və reabilitasiya mərkəzlərinin potensialının üç dəfə artırıldığını nəzərə çatdırıb.

Postmüharibə dövründə reabilitasiya mərkəzlərində 2 min 500 müharibə iştirakçısı reabilitasiya xidmətləri, 1400-dən çox müharibə əlilliyi olan şəxs 19,3 min reabilitasiya vasitəsi, 44 günlük Vətən müharibəsinin 200 qazisi, ümumən, 300 müharibə əlilliyi olan şəxs son nəsil müasir protezlərlə təmin edilib.

S.Babayev ölkəmizdə həmən kateqoriyadan olan vətəndaşlara xüsusi qayğının nümunəsi kimi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılmış əlilliyi olan şəxslərin, o cümlədən müharibə əlillərinin, şəhid ailələri üzvlərinin, habelə sosial cəhətdən həssas qrupların yaradıcı potensialının, istedadlarının, digər bacarıqlarının ortaya çıxarılmasına və inkişafına dəstək məqsədi daşıyan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin fəaliyyətindən bəhs edib.

Yeni layihənin də ölkəmizdə əlilliyi olan şəxslərin reabilitasiyası sistemində islahatlara əhəmiyyətli dəstək verəcəyinə ümidvar olduğunu bildirib.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Piter Mixalko layihənin məqsədinin əlilliyi olan şəxslərin öz hüquqlarından istifadə etmələrinin, əlilliklə bağlı ehtiyaclarından asılı olmayaraq cəmiyyətdə və iqtisadi həyatda iştirakları üçün bərabər imkanlara malik olmalarının və ayrı-seçkiliyə məruz qalmamalarının təmini olduğunu vurğulayıb. O, əlilliklə bağlı yeni islahatların əlilliyi olan şəxslərin sosial inteqrasiyasına və dayanıqlı məşğulluq imkanlarının yaradılmasına böyük töhfə verəcəyinə əminliyini ifadə edib.

Tədbirdə çıxış edən İcbari Tibbi Sığorta Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyevin sözlərinə görə, əlillik təkcə qəza və ya bədbəxt hadisə nəticəsində baş vermir. Qarşısı alına biləcək müəyyən xəstəliklər var ki, vaxtında aşkarlanıb onlara uyğun tədbirlər görülərsə, əlillik aradan qaldırıla bilər: "Bu istiqamətdə bir çox profilaktik testlər həyata keçirir, boy inkişafı problemi olan uşaqları boy hormonu preparatları ilə təmin edirik. Bu günə qədər 617 uşağa belə preparatlar təqdim olunub. İrsi xəstəliklərin müəyyənləşdirilməsi məqsədilə "topuq" və "tər" testləri aparılır. Bundan sonra da profilaktik tədbirlər davam etdiriləcək.

Agentliyin son zamanlar ən çox gördüyü işlərdən biri də Vətən müharibəsi iştirakçıları ilə bağlıdır. Ötən il 8 min 500-dən çox Vətən müharibəsi iştirakçısına 120 mindən çox tibbi xidmət göstərilib. Bu il də proses davam edir. Psixoloji yardım mərkəzləri yaradılıb və onlara həmin mərkəzlərdə xidmət göstərilir".

TƏBİB-in İdarə Heyətinin sədrinin vəzifələrini icra edən Vüqar Qurbanov reabilitasiya sahəsinin vaxtilə ölkəmizdə ən axsayan sahələrdən biri olduğunu, son dövrlərdə həyata keçirilən islahatlar nəticəsində əlillərin reabilitasiyası ilə bağlı kifayət qədər çox işlər görüldüyünü bildirib. Onun sözlərinə görə, TƏBİB-in tabeçiliyində olan üç tibb müəssisəsində həm əlillər üçün, həm də əlilliyi olmayan şəxslərə tibbi reabilitasiya xidmətləri göstərilir: "Reabilitasiya xidməti daim yenilənən, inkişaf edən sahələrdəndir. Odur ki, tibb müəssisələrimizə daha savadlı, daha peşəkar kadrların cəlb olunması ilə məşğuluq. Məqsədimiz əlilliyi olan şəxslərin həyat fəaliyyətlərini daha yaxşı davam etdirə bilmələridir. Bu gün təqdimatı olan layihə sayəsində daha əhəmiyyətli işlər görüləcəyinə əminəm".

Səhiyyə nazirinin müavini İlqar Qasımov əlilliyi olan şəxslərə tibbi reabilitasiya ilə yanaşı, sosial reabilitasiyanın da vacib olduğunu diqqətə çatdırıb. O, Azərbaycan Tibb Universitetində həkim-reabilitoloqların yetişdiriləcəyini və bu zaman Avropa İttifaqının zəngin təcrübəsindən istifadə olunacağını bildirib.

Sonra layihə üzrə komanda rəhbəri Mişel Mur layihənin təqdimatını edib. O, ölkəmizdə sosial müdafiə sahəsində həyata keçirilən islahatları, eləcə də əlilliyi olan şəxslərin hüquqları və inklüzivliyinin təmin edilməsi ilə bağlı görülən işləri yüksək qiymətləndirib, "Azərbaycanda əlilliyi olan şəxslərin reabilitasiyası sistemində islahatlara dəstək" layihəsi barədə ətraflı məlumat verərək bildirib ki, layihə 2023-cü il oktyabrın 15-dək icra olunacaq. Həmin müddət ərzində ən yaxşı beynəlxalq təcrübə əsasında əlilliyi olan şəxslərin reabilitasiyası sahəsində ənənəvi tibbi modeldən sosial modelə keçidlə bağlı sənəd, metodlar hazırlanacaq. Həmçinin reabilitasiya mərkəzlərinin yeni strukturunun işçi heyəti təkmilləşdiriləcək, təlimlər həyata keçiriləcək.

# "Ehtiyat zabit hazırlığı kursu"nun buraxılış mərasimi olub

Vətən Müharibəsində qazanılan şanlı Qələbədən sonra gənclərdə hərbi vətənpərvərlik hissinin daha da yüksəlməsi, hərbi peşəyə marağın artması nəticəsində Azərbaycan Ordusunda xidmət etmək istəyi ilə bağlı daxil olan müraciətlərin sayı günü-gündən artmaqdadır.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun tarix yazan hərbçiləri, xüsusən də zabitləri gənc nəslin gələcək fikirlərinin formalaşmasında müsbət istiqamətdə öz təsirini göstərib və zabit olmaq istəyən gənclərin sayı kifayət qədər artıb. Bütün bunlar nəzərə alınaraq Müdafiə Nazirliyi mütəmadi olaraq zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının kurslarını təşkil edir.

İyulun 8-də Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Ehtiyat zabit hazırlığı" kursunu bitirmiş hərbi qulluqçuların buraxılış mərasimi keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Buraxılış mərasimində çıxış edənlər məzunları "leytenant" hərbi rütbəsinə layiq görülmələri münasibətilə təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıblar.

Gənc zabitlər də öz növbəsində kurs müddətində qazandıqları bilik və bacarıqlarını daha da təkmilləşdirərək xidmət yerlərində tətbiq edəcəklərinə, üzərilərinə düşən vəzifə borclarını layiqincə yerinə yetirəcəklərinə söz veriblər.

Kursu müvəffəqiyyətlə bitirən məzunlara sertifikatlar təqdim edildikdən sonra gənc leytenantların tribuna önündən təntənəli keçidi olub.

**Milli birlik və həmrəylik ideyası sivil insan cəmiyyəti formalaşandan mövcud olmuş, mürəkkəb mərhələlərdən keçərək təkmilləşmiş, hər bir xalqın vahid məqsədlər ətrafında birləşməsində mühüm rol oynamışdır.**



# Diaspor quruculuğu yeni tarixi mərhələdədir

Qloballaşan dünyada ayrı-ayrı xalqların, dövlətlərin sülh, əmin-amanlıq, tərəqqi məqsədi ilə yaxınlaşdığı, habelə bəşər sivilizasiyasının yeni mənəvi dəyərlər, humanizm çalarları ilə zənginləşdiyi, mədəniyyətlərarası dialoqun, etnomədəni müxtəlifliyin qorunmasının zərurətə çevrildiyi bir vaxtda milli özünüdərkin təsdiqi, insanların öz kökünə bağlılığı getdikcə daha böyük əhəmiyyət daşıyır. Vətənə bağlılıq duyğuları təkcə insanın doğulduğu coğrafi ərazi ilə şərtlənmir, o, eyni zamanda hər bir fərdin şəxsiyyət olaraq formalaşmasını, dünyaya münasibətini əsaslandıran, başlıca meyarları müəyyənləşdirən birləşdirici amil kimi çıxış edir.

Bütün bu gerçəkliklər fonunda əminliklə demək olar ki, dünya azərbaycanlılarının həmrəyliyi, vahid amal, tarixi Vətən ətrafında birliyi Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və inkişafı, xalqımızın siyasi-iqtisadi və mədəni tərəqqisi baxımından son dərəcə vacibdir. Bu gün əqidəsindən, dünyagörüşündən asılı olmayaraq, Azərbaycanı özünə tarixi Vətən bilən hər bir şəxsin vahid amal uğrunda birləşməsi, həmrəylik nümayiş etdirməsi tarixi missiya, dövrün tələbi, zamanın çağırışıdır. Bunun üçünsə ilk növbədə dünyanın müxtəlif ölkələrində, tarixi Vətəndən uzaqda yaşayan azərbaycanlılar arasında fikir, əməl birliyinin yaradılması, möhkəmləndirilməsi son dərəcə zəruridir.

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətə başlamasının 20-ci ildönümü tamam oldu. Bu qurum Ulu Öndər Heydər Əliyevin müvafiq fərmanı ilə 5 iyul 2002-ci ildə yaradılmışdır. Komitənin təsis edilməsi dövlət müstəqilliyi tariximizdə mühüm yer tutur. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə diaspor quruculuğu sahəsində əldə etdiyimiz nailiyyətlərdə bu təşkilatın fəaliyyətinin də xüsusi rolu var.

## Diaspor quruculuğunun banisi

Azərbaycanda diaspor quruculuğunun banisi Ulu Öndər Heydər Əliyevdir. Dövlət müstəqilliyinə nail olduğumuz dövrə qədər də xalqımızın təmsilçiləri dünyanın müxtəlif ölkələrində yaşayırdılar, amma onların diaspor quruculuğu imkanları məhdud olmuşdur. Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində isə sərhədlərin açılmasından sonra xarici ölkələrdə yaşayan soydaşlarımızın sayı daha da artmış, amma diaspor fəaliyyəti yenə də sistemli, koordinasiyalı şəkildə təşkil olunmamışdır. Bu sahədə müəyyən zaman itkisinə yol verilmişdir. Bunun ziyanını isə erməni lobbisinin və ermənipərəst qüvvələrin Azərbaycan ətrafında qurduqları informasiya blokadası zamanı hər birimiz hiss etdik.

Zaman o zaman idi ki, müstəqilliyini yenicə qazanmış, qonşu Ermənistan və onun havadarları tərəfindən işğala məruz qalmış, bütün çətinliklərə rəğmən müstəqil dövlət kimi gələcəyə doğru irəliləməyə qərar vermiş Azərbaycanın dünyada tanınmağa, öz tarixi həqiqətlərini, iqtisadi potensialını, resurslarını, mədəni sərvətlərini təqdim etməyə ehtiyacı vardı.

Baş verən qlobal siyasi hadisələr, ədalətsiz müharibəyə məruz qalmağımız, ölkəmizə və xalqımıza qarşı məkrli siyasi, ideoloji, hərbi təxribatlar planının bütün vasitələrlə hərəkətə gətirilməsi, 20 Yanvar, Xocalı soyqırımları, torpaqlarımızın 20 faizinin işğalı, 1 milyondan çox soydaşımızın doğma yurdlarından didərgin düşməsi xaricdəki həmvətənlərimizin ictimai fəallığını artırırdı. Bununla belə, bu ictimai fəaliyyətin düzgün istiqamətdə və sistemli qaydada yönəldilməsinə böyük tələb vardı. Xarici ölkələrdə yaşayan soydaşlarımız vətənpərvərlik hissi ilə Azərbaycan üçün nələrsə etmək istəyirdilər. Amma onların birgə fəaliyyəti hələ məhdud dərnəkçilik səviyyəsində idi. Bu çərçivədən çıxaraq milli-siyasi yöndə təşkilatlanmağa isə böyük ehtiyac görünürdü.

Ona görə də 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Ümummilli Lider Heydər Əliyev diaspor quruculuğu işinə mühüm prioritet kimi yanaşdı. Müxtəlif ölkələrə çoxsaylı xarici səfərləri zamanı vaxtının məhdudluğuna baxmayaraq, mütləq Azərbaycan diasporunun təmsilçiləri ilə də görüşürdü. Onlarla səmimi söhbətlər aparır, dünya azərbaycanlılarını bir araya gətirməklə soydaşlarımızın milli həmrəyliyinə, özünüdərkinə, tarixi Vətənə bağlılıq hissinin gücləndirilməsinə çalışırdı. Eyni zamanda dünyada yaşayan azərbaycanlıların timsalında ölkə sərhədlərindən kənarda Azərbaycanın mənafelərini müdafiə edən böyük bir qüvvə formalaşdırırdı.

## Fikirdə, əməldə birlik

Ulu Öndər Heydər Əliyev bilirdi ki, diaspor işində insanların təşkilatlanması, icma təfəkkürünün formalaşması, eləcə də xarici ölkələrdə yaşayan azərbaycanlıların tarixi vətənin dəstəyini hiss etmələri çox mühümdür. Ümummilli Lider dünya azərbaycanlılarını fikirdə, əməldə birliyə, vəhdətə çağırırdı.

Diaspor və lobbi quruculuğuna göstərilən xüsusi diqqət böyük rəhbərin yüksək diplomatik və peşəkar siyasətçi keyfiyyətlərindən qaynaqlanırdı. Ümummilli Liderin böyüklüyü həm də onun bütün idarəçiliyi boyu xalqın milli mənlik şüurunu, özünüdərk hissinin, mənəvi dəyərlərə bağlılığını gücləndirmək əzmini nümayiş etdirməsində idi. Heydər Əliyev bütün ömrünü Azərbaycan üçün yaşamışdı - bu xariqüladə şəxsiyyət həyatını Azərbaycanı və azərbaycançılığı dünyaya tanıtmağa sərf etmişdi. İstər sovet dövrü olsun, istərsə də müstəqillik illəri, fərqi yox idi - Heydər Əliyev hər zaman və hər yerdə Vətən üçün çalışır, həyatının ən böyük qayəsini milliliyin, həmrəyliyin qorunub saxlanmasında görürdü.

Xaricdə yaşayan soydaşlarımızın tarixi Vətənə bağlılığını təmin edən ideoloji istinad nöqtəsinin tapılması da böyük rəhbərin xidmətləri sırasında xüsusi vurğulanmalıdır. Şübhəsiz, bu mütəşəkkilliyi, birliyi yalnız vahid ideya, məqsəd və prinsip ətrafında təmin etmək olardı. Heydər Əliyevin böyük uzaqgörənliklə irəli sürdüyü azərbaycançılıq ideyası milli diasporun formalaşmasına ciddi ideoloji-siyasi və mənəvi zəmin yaratdı. Bu ideya möhkəm dayağa çevrilərək Azərbaycan diasporunun təşkili işini sürətləndirdi, xaricdə fəaliyyət göstərən müxtəlif ictimai birliklərin, cəmiyyətlərin, dərnəklərin ideoloji-siyasi cəhətdən formalaşmasını stimullaşdırdı. Ümummilli Lider dövlətin təkcə öz ərazisində yaşayanlar üçün deyil, həm də bütün dünyadakı azərbaycanlılar üçün çalışmalı olduğunu özünün əsas qayəsinə çevirdi.

Ulu Öndər bütün dövrlərdə milli dövlət quruculuğunun, dövlətçilik ənənələrinin formalaşdırılması istiqamətində əməli iş görmək və fəaliyyətini milli mənafe kontekstində qurmaq üçün var gücü ilə çalışır, xalqımızı da bu yöndə səfərbər etməyə çağırırdı. Heydər Əliyevin idarəçilik fəlsəfəsinə görə, azərbaycançılıq məhz bu istinad nöqtəsindən başlayır. Çünki milli ruhu qorumağın, inkişaf etdirməyin və gələcək nəsillərə ötürməyin ən mükəmməl forması milli dövlətçilikdir. Milli dövlətçilik təkcə ərazinin, maddi sərvətlərin deyil, həm də mənəvi dəyərlərin, həmrəyliyin qorunmasından ibarətdir.

Soydaşlarımızla görüşlərinin birində böyük rəhbər deyirdi: "...Mən demirəm ki, 40 milyon azərbaycanlının hamısı bir yerə yığışsın, bu, heç lazım da deyil. Ancaq hamısının qəlbi, fikri, gələcəyə baxışı və Azərbaycan haqqında fikirləri bir olsa, əlbəttə ki, respublikamız da öz müstəqilliyini bundan sonra daha da möhkəmləndirər, inkişaf yolunu məharətlə keçə bilər... Mən Azərbaycanın Prezidenti kimi, xalqımızın mənə göstərdiyi etimada güvənərək respublikamıza rəhbərlik edən bir şəxs kimi bu gün deyirəm: Azərbaycanın özündə də bu günümüzün, gələcəyimizin zəmanəti rəhni birlikdir və bütün dünyada da soydaşlarımızın bir olması vacibdir".

Bir mühüm amil də var ki, insanlar, adətən, inanıb güvəndikləri şəxsiyyət ətrafında bir araya gəlirlər. Onun verdiyi istiqamətlə konkret hədəflərə doğru irəliləyirlər. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyət rəhbərliyinə qayıdışı və qısa müddətdə dövlət quruculuğu yönündə yaratdığı tarixi nailiyyətlərlə təkcə Azərbaycan vətəndaşları üçün ümid çırağı olmadı. Eyni zamanda dünya azərbaycanlıları üçün Vətənin gələcəyinə böyük ümidlər yaratdı. Həm ölkə daxilində, həm ölkə xaricində yaşayan soydaşlarımız arasında milli Azərbaycan dövlətçiliyinin varlığına və gələcəyinə sarsılmaz inam formalaşdırdı. İnsanları bu möhtəşəm gələcəyin birgə yaradılmasına cəlb etdi.

## Tarixi qurultay

Dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizin Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onların arasında həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin birgə müzakirəsi zərurətini nəzərə alaraq, Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsinə qərar verildi. Ümummilli Lider Heydər Əliyevin bununla bağlı 2001-ci il 23 may tarixli sərəncamı çox mühüm tarixi addım idi. Müvafiq sərəncam əsasında 2001-ci ilin 9-10 noyabrında Bakıda Dünya Azərbaycanlılarının ilk qurultayı keçirildi. Qurultayda 36 ölkədən 200-dən çox təşkilatı təmsil edən 406 nümayəndə və 63 qonaq iştirak edirdi. Dünya Azərbaycanlılarının I Qurultayı möhtəşəm bir tədbir kimi tarixə yazıldı. Bu həm də xarici ölkələrdə yaşayan soydaşlarımızın ümumi məqsəd, vahid ideya ətrafında birləşməsi yolunda böyük nəticələr verdi. Xaricdəki həmvətənlərimizlə sistemli işin, soydaşlarımız arasında milli birliyin möhkəmləndirilməsinin təşkili məqsədilə xüsusi dövlət qurumunun yaradılması ideyası da elə bu qurultayda irəli sürüldü. Ulu Öndər Heydər Əliyevin 5 iyul 2002-ci il tarixli fərmanı ilə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması bu zəmində meydana gəldi.

## Mühüm nailiyyətlər

Diasporla İş üzrə Dövlət Komitəsi bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli çağlarını yaşayan Azərbaycanın nailiyyətlərinə töhfələrini verməyə çalışır. Azərbaycan Prezidenti Ulu Öndərin milli inkişaf strategiyasını bu istiqamətdə də uğurla davam və inkişaf etdirməkdədir. Müasir dünyamızın reallıqlarına, yeni vəziyyətlərə uyğun olaraq diaspor quruculuğu istiqamətində mühüm addımlar atılır.

Dövlət rəhbərimizin 5 iyul 2018-ci il tarixli fərmanı ilə Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılması da bu addımlardan biridir. Fond ötən illər ərzində 200-ə yaxın diaspor təşkilatının sənədlərinin həmin ölkələrin qanunvericiliyinə uyğun tərtib edilməsinə və qeydiyyatdan keçməsinə dəstək göstərib, 100-dən çox layihəni maliyyələşdirib.

2020-ci ildə Nazirlər Kabineti tərəfindən "Xaricdə yaşayan aztəminatlı azərbaycanlılara sosial yardımın göstərilməsi qaydası" təsdiq olunub. Komitə ilə rahat əlaqə üçün müasir informasiya texnologiyalarının tətbiqinə başlanıb, qurum "Elektron hökumət" portalına inteqrasiya olunub.

Azərbaycanlıların Koordinasiya Şuralarının yaradılması və Azərbaycan evlərinin açılması sahəsində də çox ciddi nailiyyətlər var. Hazırda dünyanın 31 ölkəsini əhatə edən və 130 diaspor təşkilatını özündə birləşdirən 14 Koordinasiya Şurası, 12 ölkədə yaradılmış 18 Azərbaycan Evi fəaliyyətdədir. COVID-19 pandemiyası ilə əlaqədar sərhədlərin bağlanması, eləcə də Ukraynada baş verən hadisələrə görə soydaşlarımızın təxliyəsi zamanı Azərbaycan evlərinin nə qədər böyük əhəmiyyət daşıdığını hər birimiz gördük. Həmvətənlərimiz həmin çətin vəziyyətlərdə məhz Azərbaycan evlərinə üz tutdular. Onlara lazımi kömək göstərildi.

Azərbaycana bağlılıq hissinin, icma təfəkkürünün xarici ölkələrdəki azərbaycanlı ailələrində böyüyən gənc nəslə ötürülməsi də çox əhəmiyyətli məsələdir. Bunu nəzərə alaraq diaspor gənclərinin fəallığının artırılması, xaricdəki gənclərimizin milli kimliyinin qorunub saxlanılması və liderlik potensialının inkişaf etdirilməsi məqsədilə Azərbaycan Diaspor Gəncləri şəbəkəsi də formalaşdırılıb.

Diaspor quruculuğu fəaliyyətində ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müstəsna xidmətləri var. Mehriban xanımın təşəbbüsü və dəstəyi ilə xarici ölkələrdə "Qarabağ" adlı həftəsonu Azərbaycan məktəbləri fəaliyyətlərini genişləndirməkdədir. Hazırda Ottava, Nant, Bern, Varşava, Stokholm, London kimi şəhərlərdə fəaliyyət göstərən "Qarabağ məktəbi"ndə yüzlərlə azərbaycanlı uşaq təhsil alır. 6-10 yaşlı azərbaycanlı uşaqlar üçün müasir üslubda hazırlanmış "Azərbaycan dili" dərsliyi çap edilərək xaricdəki soydaşlarımıza göndərilib.

## Dövlət-diaspor əməkdaşlığı

Azərbaycan və Türkiyə münasibətlərini strateji müttəfiqlik səviyyəsinə yüksəltmiş Şuşa Bəyannaməsinə uyğun olaraq, Azərbaycan və türk diaspor təşkilatları arasında qarşılıqlı əməkdaşlıq, dəstək və həmrəylik fəaliyyətinin gücləndirilməsinə xüsusi önəm verilir. Qloballaşan dünyamızda iki qardaş ölkənin bu sahədə də bir-birinə dəstək olması, ümumi hədəflərə doğru birlikdə irəliləməsi çox mühümdür. Azərbaycan və Türkiyə arasındakı "bir millət - iki dövlət" formulu diaspor fəaliyyətində də özünü doğruldur və xalqlarımızın burliyini daha da möhkəmləndirir.

Azərbaycan diasporunun birliyinə nail olmaq və sistemli işin təşkili məqsədilə 2019-2023-cü illər üzrə Strateji Yol Xəritəsi hazırlanıb. Məhz vahid ideya və maraqlar uğrunda dövlət-diaspor əməkdaşlığının inkişafı, qüvvələrin ümumi məqsəd naminə birləşməsi, xüsusən, böhranlı vəziyyətlərdə düşünülmüş çevik planın olması üçün davamlı fəaliyyət göstərilməkdədir. Bu işlərin sistemli qaydada təşkil olunduğuna istər koronavirus pandemiyası dövründə, istərsə də Vətən müharibəsi dönəmində hər birimiz şahid olduq.

COVID-19 pandemiyası zamanı Dövlət Komitəsi tərəfindən 24/7 rejimində fəaliyyət göstərən qərargah yaradıldı. Azərbaycanlıların Koordinasiya Şuraları və Azərbaycan evləri gücləndirilmiş rejimdə fəaliyyət göstərdilər. Pandemiya dövründə təkcə Dövlət Komitəsinin qaynar xəttinə 18 minə yaxın zəng, Azərbaycan evlərinə, Koordinasiya Şuralarına ümumilikdə 51 ölkədən 9 minə yaxın müraciət daxil olub, 33 ölkə üzrə 6857 nəfər soydaşımıza maddi yardım edilib, sərhədlərin qapanması ilə əlaqədar azərbaycanlıların təxliyəsinə dəstək göstərilib.

Azərbaycan həqiqətlərinin Avropa ictimaiyyətinə çatdırılması üçün mütəmadi olaraq mitinq və aksiyaların təşkili də diaspor fəaliyyətində xüsusi yer tutur. "Xocalıya ədalət!" kampaniyası çərçivəsində, 2020-ci ilin "Tovuz hadisələri" Vətən müharibəsi zamanı Avropanın 30 ölkəsində on minlərlə soydaşımızın iştirak etdiyi 300-dən artıq aksiya keçirilib. Bütün bunlar Azərbaycanın informasiya müharibəsində də qələbəsinin qorunub saxlanması və daha da möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Dünyamız hər nə qədər qloballaşsa da, dövlətlər, xalqlar arasındakı fərqlər ortadan götürülsə də, insanlar yenə də hansısa toplumun təmsilçiləri kimi dünyaya gəlir, özlərini hansısa tarixi məkanlara mənəvi cəhətdən bağlı sanırlar. İnsanın bu duyğusunu dünyanın xoşbəxtliyi, xalqların milli-mənəvi dəyərlərinin, mədəni irsinin qorunması naminə nəcib məqsədlərə doğru yönəltmək bəşəriyyətin ali missiyasıdır. Azərbaycanın diaspor quruculuğu istiqamətində həyata keçirdiyi fəaliyyət də bu missiyaya xidmət edir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Qlobal tədbirlər məkanı

### Ötən ay keçirilən tədbirlər bir daha göstərdi ki, Bakı aktual olan beynəlxalq məsələlərin müzakirə edildiyi mərkəzə çevrilib

*Əvvəli 1-ci səh.*

Bakı Qlobal, Bakı Beynəlxalq Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu və digər tədbirlər hər zaman maraqlı və səmərəli diskussiyalarlarla, təşəbbüslərlə, yeni yanaşmaların meydana çıxması ilə yadda qalıb. Azərbaycanın təşəbbüsü ilə yaranan "Bakı Prosesi" qlobal hərəkata çevrilib və BMT tərəfindən dəstəklənir.

Koronavirus pandemiyası kütləvi tədbirlərin keçirilməsində müəyyən müddət fasilə yaratsa da, artıq çətin dövr geridə qalıb. Təkcə iyun ayında Bakıda keçirilən beynəlxalq tədbirlər göstərir ki, paytaxtımız bu sahədə daşıdığı statusu layiqincə davam etdirir. Elə təkcə ötən ay Bakıda 4 mühüm beynəlxalq tədbir keçirilib. Belə ki, paytaxtımız Bakı Enerji Həftəsinə, "Formula-1" yarışlarının Azərbaycan Qran-prisinə, IX Qlobal Bakı Forumuna və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinə evsahibliyi edib.

## Enerji nəhəngləri paytaxtımızda bir araya gəldilər

İyunun 1-dən 4-dək davam edən Bakı Enerji Həftəsi özündə 3 böyük tədbiri birləşdirmişdi: 27-ci Beynəlxalq Xəzər Neft və Qaz, 10-cu Yubiley Xəzər Beynəlxalq Energetika və Bərpa olunan Enerji sərgiləri və Bakı Enerji Forumu. Bu tədbirlərdə dünyanın enerji nəhəngləri yenidən bir araya gəldilər, daha dayanıqlı və təhlükəsiz enerji güclərinin yaradılması üçün yeni əməkdaşlıq və tərəfdaşlıq əlaqələrini müzakirə etdilər.

Regionda neft-qaz sənayesinin əsas tədbiri və tanınmış beynəlxalq platforması olan Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi hər il Xəzəryanı regionun əsas neft-qaz layihələrinin müzakirəsi və enerji təhlükəsizliyinin təmin olunması məqsədilə bu sahənin ən yüksək səviyyəli rəhbər işçilərini bir araya gətirir. Şirkətlər neft hasilatı və enerji daşıyıcılarının nəqli, neft və qazın saxlanması üçün anbar sistemlərinin təmin edilməsi və servis xidmətləri sahəsində innovativ texnologiyaları, habelə regionun mövcud və gələcək neft-qaz layihələrini, bir sıra digər nailiyyətləri nümayiş etdirdilər. Sayca 27-ci olan bu dəfəki sərgidə 31 ölkədən 250 şirkət iştirak etdi.

10-cu Yubiley Xəzər Beynəlxalq Energetika və Bərpa olunan Enerji Sərgisinin ekspozisiyası beynəlxalq və yerli şirkətlərin energetika və bərpaolunan enerji mənbələrinin inkişafı və istifadəsi sahəsində ən son təkliflərini təqdim etdi. Bakı Enerji Həftəsi çərçivəsində keçirilən forumda qlobal enerji perspektivləri, "yaşıl enerji"yə keçidin maliyyələşdirilməsi, qaz təchizatı məsələləri, Xəzər regionunda kəşfiyyat və hasilat imkanlarının xəritəsi və bir sıra digər aktual məsələlər müzakirə olundu. Bu il foruma dünyanın 20 ölkəsindən 400-dən çox nümayəndə qatıldı.

Bakı Enerji Həftəsi investorlar üçün bilavasitə məlumatlılığı artırmaq imkanı yaratmaqla yanaşı, layihələrin, fəaliyyət planlarının və gələcək baxışların ictimaiyyətə təqdim edilməsi üçün mühüm platforma rolunu oynayır. Bu tədbir çərçivəsində 100-dən çox yerli və xarici nümayəndənin iştirakı ilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşada xüsusi sessiyanın keçirilməsi isə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşıl enerji potensialının inkişafında böyük rol oynayacaq.

## "Formula-1" həyəcanı Bakıda növbəti dəfə yaşandı

Respublikamız indiyədək olduqca mötəbər beynəlxalq idman tədbirlərinə də evsahibliyi edib. Birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, çoxsaylı Avropa və Dünya çempionatları Azərbaycanı həm də dünyada idman ölkəsi kimi tanıdıb. Bu yarışların hər birində respublikamızın yüksək təşkilatçılığı, nümunəvi evsahibliyi qlobal idman aləmi tərəfindən təqdir edilib, örnək kimi göstərilib.

İyun ayında yenidən avtomobil idmanı həvəskarlarının diqqəti ölkəmizə yönəlmişdi. Bakıda dünyada yüz milyonlarla tamaşaçı auditoriyasına malik olan "Formula-1" yarışlarının həyəcanı yaşanırdı. İyun ayının 10-12-də Azərbaycan Qran-prisində Sebastian Fettel, Lyuis Hemilton, Valtteri Bottas, Fernando Alonso kimi məşhur pilotlar mübarizə aparırdılar.

Azərbaycan Qran-prisi ötən illərdə olduğu kimi, bu dəfə də "Formula-1" mövsümünün ən maraqlı tədbirlərindən oldu. Avtomobil idmanı həvəskarları Bakıda bir daha Azərbaycanın nümunəvi evsahibliyinə və möhtəşəm yarışa şahidlik etdilər. Onu da xatırladaq ki, Bakı artıq altıncı dəfə idi ki, "Formula-1" yarışlarına evsahibliyi etdi. Bu baxımdan "Formula-1" Azərbaycan üçün yenilik sayılmır.

## Dövlət və hökumət başçılarının, tanınmış siyasətçilərin qatıldığı forum

İyun ayında Bakının evsahibliyi etdiyi beynəlxalq tədbirlərdən biri də IX Qlobal Bakı Forumu oldu. Qlobal Bakı Forumu dünya ictimaiyyətinin Azərbaycana olan etimadının, ölkəmizin dünya siyasətində, beynəlxalq münasibətlər sistemində yerinə və roluna, habelə siyasi və humanitar dialoqun inkişafına töhfələrinə verilən qiymətin real ifadəsidir. Bu forum dövrümüzün aktual məsələlərinin, dünyada baş verən mühüm hadisələr və cərəyan edən proseslərin müzakirə olunduğu mühüm platformadır. Hansı ki, bu müzakirələrə onlarca ölkədən görkəmli dövlət xadimləri, tanınmış siyasətçilər, diplomatlar qoşularaq diskussiya və dialoq aparırlar. Bu mənada forum keçmiş və indiki liderlərə qlobal problemləri müzakirə etməyə, onların həlli yollarını tapmaq yolunda səylər göstərməyə şərait yaradır. Bu forum dövlətlərarası əməkdaşlığa, siyasi münasibətlərə konstruktiv töhfə verir, qarşılıqlı siyasi anlaşma üçün əlverişli şərait yaradır.

16-18 iyun tarixlərində "Qlobal dünya nizamına təhdidlər" mövzusunda keçirilən IX Qlobal Bakı Forumunda dünyada təhlükəsizliyin və sülhün təmin olunması üçün perspektivlər, enerji təhlükəsizliyinə yaranan təhdidlərin həlli yolları, həssas bölgələrdə sülh, əməkdaşlıq və inteqrasiya, qloballaşan bəşəriyyətdə artan ədalətsizliklər, yoxsulluğun qarşısının alınması üçün qida və kənd təsərrüfatı sektorunun transformasiyası kimi mühüm mövzularda müzakirələr aparıldı.

Forumda iştirak etmək üçün 53 ölkədən 400-ə qədər nümayəndənin, o cümlədən hazırkı və sabiq dövlət və hökumət başçılarının Azərbaycana gəlməsi bu tədbirin dünyada sülhə böyük töhfələr verən mühüm siyasi platforma olduğunu bir daha nümayiş etdirdi. Forumun təşkilatçısı olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi isə artıq qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran beynəlxalq mərkəzə çevrilib.

## Azərbaycanın təşəbbüsü ilə yaranan Parlament Şəbəkəsi

İyunun axırı və iyulun əvvəlində Bakının evsahibliyi etdiyi növbəti beynəlxalq tədbir Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransı oldu. Heydər Əliyev Mərkəzində keçirilən və "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr olunan konfransda 40-dan çox ölkənin parlamenti və 9 beynəlxalq parlament təşkilatı təmsil olundu.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi olduqca səmərəli olmaqla Hərəkatın fəaliyyətinin daha da canlandırılmasına, onun qlobal proseslərdə iştirakına yüksək töhfələr verib. Respublikamızın Hərəkata sədrliyinin bir il uzadılması da bundan irəli gəlir. Bu, qlobal miqyasda ölkəmizə göstərilən etimadın növbəti nümunəsidir.

Ölkəmizin Hərəkata uğurla sədrlik etməsinin başqa bir nümunəsi təşkilatın Parlament Şəbəkəsinin yaradılmasıdır. QH-nin prinsip, ideya və məqsədlərinin həyata keçirilməsində parlamentarilərin konstruktiv rolu nəzərə alınaraq, üzv dövlətlərin parlamentləri arasında əlaqələrin dərinləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ilin noyabr ayında Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi təsis olunub.

Bakı Konfransında çıxışında Azərbaycanın bu təşəbbüsünün dəstəklənməsinə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev deyib: "Həmrəylik və qarşılıqlı dəstəyin gücləndirilməsi istiqamətində əlavə bir addım olan Azərbaycanın bu təşəbbüsünü dəstəklədiyinə görə Qoşulmama Hərəkatına üzv olan dövlətlərə minnətdarlığımı bildirirəm. Azərbaycan parlamentinin səkkiz il ərzində sabiq bir üzvü olaraq, sizin sabiq həmkarınız olaraq mən parlament diplomatiyasının və parlamentlərarası münasibətlərin necə əhəmiyyət kəsb etdiyini yaxşı bilirəm. Əminəm ki, parlament şəbəkəmiz təkcə ölkələrimiz arasında həmrəyliyə töhfə verməyəcək, eyni zamanda dünyanın müxtəlif parlament təşkilatları ilə sıx iş münasibətləri quracaq".

Azərbaycan Prezidentinin təşəbbüsü ilə təsis olunan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi təşkilata üzv ölkələrin parlamentləri arasında əməkdaşlığın inkişafı baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Hərəkata üzv dövlətlərin parlamentlərarası əməkdaşlığa verdiyi əhəmiyyətin əyani göstəricisi olan Bakı Konfransı vacib müzakirələrlə yadda qaldı.

Azərbaycanın qlobal problemlərin həlli istiqamətində səmərəli təşəbbüslərlə çıxış etməsi və mühüm töhfələr verməsi artıq uzun illərdir ki, Bakını beynəlxalq tədbirlərin ünvanına çevirib. İyun ayında keçirilən hər bir tədbir göstərdi ki, ölkəmizin paytaxtı aktual məsələlərin müzakirə edildiyi siyasi-iqtisadi mərkəzdir. Eyni zamanda Bakı ən möhtəşəm beynəlxalq idman tədbirlərinə layiqli evsahibliyi edə bilən unikal məkandır. Bütün bunlar isə öz növbəsində Azərbaycanın yüksəlişini ən bariz təcəssüm etdirən mühüm uğurlardır.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Bakıda ağsaqqalların və veteranların təmsil olunduğu qeyri-hökumət təşkilatlarının əməkdaşlıq forumu keçirilib

**İyulun 8-də Beynəlxalq Muğam Mərkəzində ağsaqqalların və veteranların təmsil olunduğu qeyri-hökumət təşkilatlarının əməkdaşlıq forumu keçirilib.**





AZƏRTAC xəbər verir ki, forum Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı ilə Azərbaycan Ağsaqqallar Şurasının birgə təşkilatçılığı ilə reallaşıb.

Forumda Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev, Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Eldar Quliyev, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Fatma Səttarova, hər iki təşkilatın rəhbər heyəti, ölkə üzrə bütün filiallarının sədri, digər qeyri-hökumət təşkilatlarının sədrləri, ağsaqqallar və veteranlar iştirak ediblər.

Forumun keçirilməsində məqsəd ağsaqqalların və veteranların təmsil olunduğu QHT-lərin aktivliyini artırmaq, onlar arasında əməkdaşlığı gücləndirmək, milli maraqlarımızın qorunması və təbliğində gənc nəslin veteran və ağsaqqalların təcrübəsindən, dünyagörüşündən faydalanmasına stimul vermək, dövlət maraqlarımızın müdafiəsində cəmiyyətdəki birlik və bərabərliyin daha da güclənməsinə nail olmaqdır.

Tədbirdə Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev çıxış edərək ağsaqqalların və veteranların cəmiyyətdəki roluna diqqət çəkib, onların təmsil olunduğu QHT-lər arasında əməkdaşlığın genişlənməsinin zəruriliyinə toxunub. Vüsal Quliyev qeyd edib ki, hər zaman olduğu kimi, bu gün də cəmiyyətimizdə ağsaqqal sözünə, məsləhətinə ehtiyac var: "Ağsaqqallar öz dünyagörüşündən, həyat və mübarizə təcrübəsindən istifadə edərək gənclərə yol göstərməli, onların milli maraqlarımız, Vətənin və xalqın mənafeyi naminə daha sıx birləşməsini təmin etməlidir. Bunun üçün ağsaqqalların və veteranların təmsil olunduğu QHT-lər arasında əməkdaşlığın güclənməsi, onların ictimaiyyətlə təmaslarının daha da genişlənməsi, bu qurumların gənclərlə daha aktiv iş aparmasına ehtiyac var".

V.Quliyev ağsaqqalların və veteranların təmsil olunduğu QHT-lərin cəmiyyətimizi narahat edən bir sıra problemlərin həllində fəallıq nümayiş etdirməsinin əhəmiyyətinə də toxunub: "Bu gün ölkəmizin müxtəlif bölgələrində məişət zorakılığı, qızların təhsili, erkən nikahlar və s. problemlərlə mübarizədə ağsaqqallarımız və veteranlarımız fəal rol oynamalı, geniş maarifləndirmə və təbliğat işi aparmalıdırlar. Göstərilən məsələlər yerlərdəki təşkilatların fəaliyyətində prioritet olmalıdır".

Şəhid ailələrinə, müharibə əlillərinə və veteranlara dövlət tərəfindən daim qayğı və diqqət göstərildiyini qeyd edən sektor müdiri, bu siyasətin bundan sonra da davam edəcəyini bildirib. Vüsal Quliyev qeyd edib ki, şəhid ailələri və veteranlarla bağlı qeyri-hökumət təşkilatlarının da öz işini genişləndirməsi, fəaliyyətlərini günün tələbləri səviyyəsində qurması zəruridir.

Azərbaycan Ağsaqqallar Şurasının sədri, deputat Eldar Quliyev çıxışında Azərbaycan milli mentalitetinə uyğun olaraq ağsaqqalların cəmiyyətdə böyük nüfuza sahib olduğunu xatırladıb, onların veteranlarla birgə fəaliyyətinin əhəmiyyətinə toxunub. Bildirib ki, həm ağsaqqallar, həm də veteranlar gənc nəslin vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, onların fəaliyyətinin milli maraqlarımız zəminində təşkilində öz rollarını artırmalı, daha mütəşəkkil və koordinasiyalı fəaliyyət ortaya qoymalıdırlar.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Fatma Səttarova cəmiyyətin bütün təbəqələrinin dövlətə, onun prezidentinə dəstək olmasının vacibliyini diqqətə çatdırıb. O, qeyd edib ki, bu məsələdə həm ağsaqqallar, həm də veteranlar aktiv olmalı, gənclərə yol göstərməli və onlar üçün nümunə olmalıdırlar.

Təşkilatın sədr müavini, polkovnik Cəlil Xəlilov indiki dönəmdə həm ağsaqqalların, həm də veteranların üzərinə böyük məsuliyyət düşdüyünü bildirib. Polkovnik vurğulayıb ki, dövlətimizə, xalqımıza qarşı müxtəlif təxribatların davam etdiyi bir zamanda həm ağsaqqallar, həm də veteranlar koordinasiyalı fəaliyyət ortaya qoymalı, cəmiyyəti milli maraqlarımızın müdafiəsində səfərbər etməlidirlər.

Cəlil Xəlilov çıxışının sonunda forumun keçirilməsinə verdiyi dəstəyə görə Beynəlxalq Muğam Mərkəzinə öz təşəkkürünü bildirib.

Tədbirdə çıxış edən ağsaqqallar və veteranlar forumun əhəmiyyətindən söz açaraq, hər zaman olduğu kimi, bundan sonra da dövlətə, onun prezidentinə dəstək verəcəklərini vurğulayıblar.

Sonda vətənpərvərlik mövzusunda mahnılar ifa edilib.

# Milli Aviasiya Akademiyasında "Məzun günü"

İyulun 8-də Milli Aviasiya Akademiyasında "Məzun günü" keçirilib.





AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb. Qeyd edək ki, Milli Aviasiya Akademiyasının da dörd məzunu Vətən müharibəsində şəhid olub.

Tədbirdə çıxış edən akademiyanın birinci prorektoru professor Ədalət Səmədov "Məzun günü"nə gəlmiş qonaqları təqdim edib və iştirakçılara Milli Aviasiya Akademiyasının rektoru akademik Arif Paşayevin salamlarını çatdırıb.

Birinci prorektor çıxışında Vətən müharibəsində Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun Azərbaycan torpaqlarını işğaldan azad etməsindən və bu ərazilərdə sürətlə aparılan bərpa və yenidənqurma işlərindən, tikilən beynəlxalq hava limanlarından söz açıb. O, məzunların görülən işlərə töhfə verəcəyinə ümidvar olduğunu deyib.

Akademiyanın tarixinə nəzər salan professor Ədalət Səmədov buranın 1990-cı ildə Milli Aviasiya Mərkəzi kimi yaradıldığını, 1994-cü ildə "Milli Aviasiya Mərkəzi" Milli Aviasiya Akademiyası adlandırıldığını xatırladıb. Diqqətə çatdırıb ki, akademiyaya 1996-cı ildən akademik Arif Paşayev rəhbərlik edir. Bu müddət ərzində Milli Aviasiya Akademiyası şərəfli inkişaf yolu keçib. Tələbələrin sayı ildən-ilə artır. Əvvəllər bir-iki ixtisas olduğu halda, hazırda bakalavriat üzrə 21, magistratura üzrə 17, doktorantura üzrə 10 ixtisas tədris edilir.

Professor Ədalət Səmədov vurğulayıb ki, 2021-2022-ci tədris ili bir sıra əlamətdar hadisələrlə yadda qalıb. "TEKNOFEST Azərbaycan" festivalında Milli Aviasiya Akademiyasının komandaları 2 nominasiyada - "Planer" və "Pilotsuz uçuş aparatları" yarışmalarında uğurla iştirak edərək I yeri, "CanSat" yarışmasında isə II yeri tutublar.

Bu tədris ilində Milli Aviasiya Akademiyasında 1352 nəfər bakalavriat, 59 nəfər magistratura səviyyəsi üzrə təhsil alıb. Akademiyadan 396 nəfər bakalavr, 47 nəfər magistr məzun olur. Bakalavrlardan 50-si, magistrlərdən 27-si təhsili fərqlənmə diploma ilə başa vurur.

Diqqətə çatdırılıb ki, Milli Aviasiya Akademiyasının məzunları Azərbaycanda, həm də xarici ölkələrin aviaşirkətlərində çalışırlar. Akademiya ali təhsillə yanaşı, peşə ixtisas, orta ixtisas təhsilində də məzunlar yetişdirir.

Tədbirdə Milli Aviasiya Akademiyasının tarixinə dair fotoslaydlar, müasir dövrü haqqında videoçarx nümayiş olunub.

Qeyd edək ki, akademiyada tədris prosesi, elmi-metodiki işlər yüksək səviyyədə təşkil edilib, bir sıra kafedralar açılıb, yeni ixtisasların tədrisinə başlanılıb. Mülki aviasiyanı bütün istiqamətlər üzrə beynəlxalq tələblərə cavab verən milli kadrlarla təmin etməkdə akademiya misilsiz rol oynayır.

Bu nüfuzlu təhsil və elm ocağının fəaliyyətinin əsas istiqamətlərindən biri isə hazırkı dövr üçün xüsusi aktuallıq kəsb edən pilotsuz uçuş aparatlarının, minaların axtarılması və zərərsizləşdirilməsi üzrə radioidarəolunan robotların, radiotexniki təminat obyektlərinin texniki vəziyyətinə avtomatlaşdırılmış nəzarət sistemlərinin yaradılmasıdır.

Milli Aviasiya Akademiyasında Azərbaycanda analoqu olmayan, dünya standartları səviyyəsində şəhərcik salınıb.

Tədbirdə çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov məzunların qalib xalqın övladları olduğunu vurğulayıb. O, Ulu Öndər Heydər Əliyevin bütün sahələrdə inkişafın əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib.

Nazir müavini Milli Aviasiya Akademiyasını fərqlənmə diplomu ilə bitirən məzunların sayının yüksək olmasını xüsusi qeyd edib. O, akademik Arif Paşayevin uzaqgörənliyi sayəsində burada təlim-tədrisin yüksək səviyyədə aparıldığını, maddi-texniki bazasının möhkəmləndirildiyini vurğulayıb.

Firudin Qurbanov diqqətə çatdırıb ki, işğaldan azad edilmiş ölkələrdə ən yüksək səviyyədə infrastruktur layihələri həyata keçirilir, beynəlxalq hava limanları tikilib istifadəyə verilir. Burada gənclərin fəaliyyətinə ehtiyac olacaq. Ölkəmizdə gənclərin təhsilinə xüsusi diqqət ayrılır. "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" hər il 400 nəfərədək olmaqla, ümumilikdə isə 2000 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilinin təmin edilməsini nəzərdə tutur. Dövlət proqramı çərçivəsində xarici ali təhsil müəssisələrində təhsil yerlərinin böyük hissəsi magistratura səviyyəsini əhatə edəcək.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Fərid Əhmədov çıxışında əmək bazarının tələblərindən söz açıb. O, akademiyanın məzunlarına daim öz üzərində işləməyi, ömürboyu öyrənməyi, yenilikçi və azad təfəkkürə malik olmağı tövsiyə edib, məzunların dövlətimizə uğurla xidmət edəcəyinə əminliyini bildirib.

AMEA Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanov çıxışında məzunların müstəqil həyatının uğurlu olmasını arzu edib. O, Milli Aviasiya Akademiyasında tədrisin yüksək səviyyədə təşkil edildiyini və bu işdə rektor akademik Arif Paşayevin xüsusi əməyi olduğunu vurğulayıb. Misir Mərdanov gənclərin Azərbaycan tarixini, eləcə də müstəqillik tarixini dərindən bilməsinin əhəmiyyətini vurğulayıb.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru professor Ədalət Muradov məzunlara məqsədlərinə doğru inamla irəliləməyi, özlərində dəyərlər formalaşdırmağı tövsiyə edib. Diqqətə çatdırıb ki, Vətənə sevgi, valideynlərə diqqət və qayğı, insanlara kömək etmək ən mühüm dəyərlərdir. Bu dəyərləri formalaşdıran ən yaxşı müəllim isə insanın özüdür.

Xalq şairi Nəriman Həsənzadə akademik Arif Paşayevin rəhbəri olduğu professor-müəllim kollektivinin fəaliyyətini yüksək qiymətləndirib, məzunlara uğurlar arzulayıb, öz şeirini oxuyub.

Tədbirdə Milli Aviasiya Akademiyasının İqtisadiyyat və hüquq fakültəsinin hüquqşünaslıq ixtisasının bakalavr məzunu Aytən Cəlilova, Hava nəqliyyatı fakültəsinin uçuş mühəndisliyi ixtisasının bakalavr məzunu Fərhad Kərimov, Hava nəqliyyatı fakültəsinin hava nəqliyyatının hərəkətinin idarə olunması mühəndisliyi ixtisasının bakalavr məzunu Səbinə İbadova, Cihazqayırma mühəndisliyi ixtisasının magistr məzunu Orxan Əliyev tədrislə bağlı təəssüratlarını bölüşüblər. Onlar akademiyada tədris üçün yüksək səviyyədə şərait yaradıldığını və tələbələrin dəstəkləndiyini vurğulayıb, müəllimlərinə təşəkkürlərini bildirib, tələblərə tövsiyələrini veriblər.

Valideynlər adından çıxış edən Zümrüd Hümbətova hər kəsi təbrik edib.

Sonra məzunlara sertifikatlar təqdim olunub.

"Məzun günü" bədii proqramla davam edib.

# Avropa Xəbər Agentlikləri Alyansının növbəti onlayn seminarı olub

**İyulun 8-də Avropa Xəbər Agentlikləri Alyansının (EANA) növbəti onlayn seminarı keçirilib.**

AZƏRTAC xəbər verir ki, "Zoom" vasitəsilə baş tutan toplantıda EANA-nın üzv agentliklərinin nümayəndələri mediada yeni texnologiyaların tətbiqi məsələlərini müzakirə ediblər.

Ümumilikdə 20-yə yaxın agentliyin təmsil olunduğu seminara Böyük Britaniyanın "Press Association" Agentliyinin icraçı direktoru Klayv Marşal, Avstriyanın APA Agentliyinin və EANA-nın prezidenti Klemens Piq, İspaniyanın EFE Agentliyinin prezidenti Qabriela Kanyas, Almaniyanın DPA Agentliyinin icraçı direktoru Piter Kropş, İtaliyanın ANSA Agentliyinin icraçı direktoru Stefano De Alessandri və başqaları qatılıblar. Toplantıda AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov da iştirak edib.

Qeyd olunub ki, media qarşısında duran yeni çağırışlara vaxtında cavab verilməsi bu sahədə biznesin geriləməməsi üçün önəmli addımdır. İştirakçıların fikrincə, xəbər agentlikləri üçün müasir texnologiyalar yeni imkanlar yaradır və bu qəbildən olan süni intellektdən istifadə bir çox media qurumlarında uğurla tətbiq olunmağa başlayıb.

Klemens Piq, Stefano De Alessandri və digərləri çıxış edərək təmsil olunduqları agentliklərdə süni intellekt və blokçeyn texnologiyalarının tətbiqindən danışıblar. Çıxışçılar yeniliklərdən yararlanmaqla həm müştərilərin informasiya tələbatını ödəmək, həm də veb-saytlarda xəbərləri oxuculara daha səmərəli şəkildə təqdim etməyin üstünlüklərini vurğulayıblar.

Üzv agentliklər belə seminarların davamlı olaraq keçirilməsi barədə razılığa gəliblər.

# Həmrəylik və xeyirxahlıq bayramı

İslam aləmində ən müqəddəs bayramlardan sayılan Qurban bayramı hər il hicri təqvimi ilə zilhiccə ayının 10-cu günündən başlayır və adətən, üç gün davam edir. Qurbanlığın ən önəmli xüsusiyyətlərindən biri din və məzhəb ayrı-seçkiliyinə yol verilməməsidir. Humanizm, xeyirxahlıq və bərabərlik rəmzi olan Qurban bayramı insanlar arasında şəfqət və mərhəmət duyğularının təntənəsini nümayiş etdirir.

## Qurban bayramının yaranma tarixi

Bu bayramın tarixi Həzrət İbrahim peyğəmbərlə bağlıdır. Qurani-Kərimdə haqqında bəhs olunan hadisənin məğzi belədir ki, İbrahim peyğəmbərin övladı olmur. Uzun illər dua etdikdən sonra Allah ona ahıl yaşında bir oğul (İsmayıl) qismət edir. İbrahim peyğəmbər oğlu İsmayılı anası Həcərlə birlikdə Məkkə yaxınlığında yerləşdirir. Müqəddəs kitabımıza görə, İbrahim əleyhissəlam yuxusunda görür ki, Allah ondan yeniyetmə yaşına çatmış oğlu İsmayılı qurban kəsməyi buyurur. İbrahim peyğəmbər gördüyü yuxudan çox kədərlənir və əhvalı pozulur. Bir ata kimi qoca vaxtında Yaradanın bəxş etdiyi övlad payını itirmək istəmir. O, həmin yuxunu təkrar-təkrar görür və axırda dərk edir ki, sevimli oğlunu qurban kəsmək Allahın əmridir, Xaliqin buyuruğu yerinə yetirilməlidir. Ömrünü Tanrıya xidmətə həsr etmiş və buna görə "Allah dostu" ləqəbini qazanmış İbrahim bir an da tərəddüd etmir və oğlunu Məkkə yaxınlığındakı Mina dağında qurban kəsməyə aparır. Hətta qurban veriləcəyini bilən İsmayıl da buyurulan taleyə razı olur. Yolboyu şeytan 3 dəfə İbrahimi yeniyetmə oğlunu qurban verməməyə çağırsa da, o, şeytana aldanmır. Allaha qəlbən yaxın və sadiq olduğunu sübut edir.

Minada oğlunu qurban kəsmək istəyən İbrahimin bıçağı kəsmir. Bu zaman Tanrının vəhy mələyi Cəbrayıl nazil olur və ona İlahi imtahandan üzüağ çıxdığını və oğlunu deyil, Tanrının göndərdiyi qoçu qurban kəsməsini buyurur: "Ey İbrahim! Artıq sən röyanın düzgünlüyünü (Allah tərəfindən olduğunu) təsdiq etdin. Sənə yuxuda nə əmr olunmuşdursa, onu yerinə yetirdin. Yaradan sənə lütf edərək oğlunun yerinə bir qoç kəsməyi buyurur. Biz yaxşı iş görənləri belə mükafatlandırırıq".

Həzrət İbrahimin bu hekayəsi Tanrıya bəndəliyin möhtəşəm nümunəsi sayılır. Eyni zamanda islamda insanın qurban verilməsi qadağan olunur.



## Mərhəmət duyğularının əks olunduğu müqəddəs günlər

Əsrlərdir qeyd olunan müqəddəs bayramın böyük fəzilətlərinə və mahiyyətinə hətta ölkəmizdəki müxtəlif dini konfessiyaların nümayəndələri də ehtiramla yanaşırlar. Çünki Qurban bayramı mütərəqqi milli-mənəvi dəyərlər sistemində sosial yardımlaşma, xeyirxahlıq duyğuları kimi qəbul edilir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Milli Məclisin 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" qanununa əsasən, Qurban bayramı ölkəmizdə dövlət səviyyəsində keçirilir. Bu bayram xeyirxahlıq və mərhəmət duyğularının təcəssümü olmaqla yanaşı, bərabərlik və dözümlülük ovqatını da gücləndirir.

Dünya müsəlmanlarının birlik, həmrəylik və qardaşlıq rəmzi olan Qurban bayramı Azərbaycanın hüdudlarından kənarda yaşayan bütün soydaşlarımız tərəfindən də qeyd edilir. Bu, xalqımızın mənəvi dəyərlərinə böyük hörmət və ehtiramın ifadəsidir.

## Qurbanlıq heyvan kəsimi və satışı xidmətləri təşkil edilib

Qurbanlıq heyvan sağlam və nöqsansız olmalıdır. Xəstə, axtalanmış, buynuzu qırılmış və ya hər hansı bədən üzvündə eybi olan heyvanı qurban kəsmək olmaz. Yaşlı heyvanı da qurban kəsmək islamda düzgün hesab edilmir.

Qurbanı fərdi və ya müştərək qaydada kəsmək olar. Daha yaxşı olar ki, xırdabuynuzlu heyvan fərdi qaydada, iribuynuzlu heyvan isə müştərək qaydada kəsilsin.

Hər il olduğu kimi, bu il də heyvan kəsimi və satışının rahat həyata keçirilməsi məqsədilə ölkə üzrə qurbanlıq heyvanların satışı və kəsimi xidmətləri təşkil olunub. Bildirilir ki, heyvanların kəsimi və satışı aidiyyəti dövlət orqanlarının müəyyən etdiyi yerlərdə həyata keçirilməlidir. Sanitariya-gigiyena tələblərinə uyğun olmayan küçə, yol kənarı, məhəllə və digər ictimai yerlərdə kəsimlərin aparılması qadağandır. Eyni zamanda baytarlıq şəhadətnaməsi olmadan iri və xırdabuynuzlu heyvanların daşınması da yolverilməzdir.

Verilən məlumata görə, iyulun 9-10-da Bakı və Sumqayıt ərazisində Qurban bayramı ilə əlaqədar qurbanlıq qoyunların onlayn satış yarmarkası təşkil olunacaq. Əsas məqsəd vətəndaşların qurbanlıq heyvanlara artan tələbatını ödəmək, alternativ seçim imkanlarını artırmaq və onlayn xidmətlərdən istifadəni təşviq etməkdir. Vətəndaşlar onlayn qaydada sifariş etdikləri qurbanlıqları Bakı və Sumqayıt ərazisində əvvəlcədən bəyan etdikləri məntəqələrdən əldə edəcəklər.

Allah kəsilən qurbanları, edilən ibadət və duaları qəbul etsin.

*Elşən YƏHYAYEV,*
*"Azərbaycan"*

# REGİONLAR



## Ailəsinin 5 üzvünü itirmiş Nadir Qurbanov Qurban bayramını yeni evdə qeyd edir

44 günlük Vətən müharibəsində erməni silahlı qüvvələrinin insanlığa sığmayan terrorları nəticəsində onlarla günahsız dinc sakin həlak olmuş, yüzlərlə fərdi yaşayış evi dağılmışdır.

Hazırda isə Prezident İlham Əliyevin sərəncamı ilə evləri dağılmış və ya ciddi ziyan görmüş vətəndaşlar üçün dövlət hesabına evlər tikilir və onların əksəriyyətinin inşası başa çatmışdır. Yeni evlərdən biri də Naftalanın Qaşaltı Qaraqoyunlu kənd sakini Nadir Qurbanov üçün inşa olunmuşdur. Beş otaqdan ibarət yaşayış evinə şəhər icra hakimiyyəti də hədiyyələr etmişdir. Belə ki, ŞİH tərəfindən N.Qurbanova məişət əşyaları, o cümlədən mebellər verilmiş, həyətinə tamet daşları düzülmüşdür. Xatırladaq ki, Vətən müharibəsi zamanı erməni terrorçularının atdığı top mərmisi nəticəsində Nadir Qurbanov ikisi uşaq olmaqla, 5 ailə üzvünü itirmişdir.

Bu günlər Naftalan şəhər rəhbərliyi şəhid ailələri və qazilərlə birgə Nadir Qurbanovun yeni evində olmuşlar. Torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra dünya müsəlmanlarının birlik və həmrəylik rəmzi olan Qurban bayramının ölkəmizdə dövlət səviyyəsində qeyd edildiyi diqqətə çatdırılmış, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ordumuzun Vətən müharibəsindəki Zəfərinin xalqımızın əyilməz ruhunun təntənəsi olduğu vurğulanmışdır.

Sonra qurban kəsilmiş, iştirakçılara bayram sovqatı verilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Ağdamda heyvandarlıq məhsulları istehsalı artıb

Ağdam rayonunda kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlıq stabil inkişaf edir.

Rayonda heyvanların sayı və heyvandarlıq məhsullarının istehsalı ilbəil artır. 2022-ci ilin yanvar-iyun aylarında da heyvandarlıq sahəsində uğurlu nəticələr əldə edilib. Mal-qaranın cins tərkibi daha da yaxşılaşıb, heyvandarlıq məhsulları istehsalında artım qeydə alınıb. Rayon Statistika İdarəsindən AZƏRTAC-a bildirilib ki, bu ilin iyulun 1-dək rayonda 44 min 914 baş qaramal, 100 min 296 baş qoyun-keçi olub. 2021-ci ilin müvafiq dövrünə nisbətən iribuynuzlu heyvanların sayı 3,2 faiz, qoyun və keçilərin sayı 1,3 faiz çoxdur.

Altı ayıda rayonun təsərrüfatlarında süd istehsalı 21 min 579 ton olmaqla, 4,9 faiz, ət istehsalı 2428,2 ton olmaqla, 2,1 faiz, yumurta istehsalı 10142 min ədəd olmaqla, 4,7 faiz, yun istehsalı 203,4 ton olmaqla, 0,3 faiz artıb.

Heyvandarlıq məhsullarının istehsalının artmasında heyvanların cins tərkibinin yaxşılaşdırılması mühüm rol oynayır. Rayonda heyvandarlıq məhsulları istehsalının intensiv artmasına zəmin yaradan cins maldarlığın inkişafı üçün heyvanların süni mayalanması uğurla həyata keçirilir. 2022-ci ilin yanvar-iyun aylarında 2827 baş inək və düyələr süni mayalandırılıb, 1311 baş cins tərkibi yaxşılaşdırılmış buzov alınıb.



## Məhsuldarlıq artsa da...

### Buğda idxalını ən azından minimuma endirmək üçün tədbirlər genişləndirilməlidir

**Bu il dünya tarixində həm də qlobal taxıl böhranı ili kimi yadda qalacaq. Rusiya-Ukrayna qarşıdurması üzündən bir çox ölkələrdə taxıla olan tələbat vaxtında təmin edilmədiyindən ciddi narahatlıq yaranıb. Hətta bir sıra Afrika ölkələrində buğda ehtiyatının tükənmək üzrə olması barədə həyəcan doğuran xəbərlər yayılmaqdadır.**

Tədarük zəncirinin qırılması, buğdaya olan tələbatın artması ciddi qiymət artımı ilə də müşahidə olunur. Qiymətin yüksəlməsi isə ikinci bir problem yaradır - ərzaq qiymətlərinin bahalaşması alıcılıq qabiliyyəti aşağı olan insanların yaşayışına ciddi təsir göstərir. BMT-nin hesablamalarına görə, bu üzdən dünyada 400-800 milyon insan tələbata uyğun qida məhsulları ala bilmir.

BMT və dünyanın bir sıra dövlətləri Ukraynadan buğdanı dünya bazarına çıxarmaqla böhranın qarşısını almağa cəhd göstərir. Bu istiqamətdə Türkiyənin təşəbbüsü ilə BMT, Ukrayna və Rusiya arasında aparılan danışıqlarda hələlik nəticə əldə edilməyib. Danışıqların nəticəsiz qalması Qərbi hərəkətə keçməyə məcbur edib. Belə ki, Avropa İttifaqı ölkələri Ukrayna taxılını avtomobil nəqliyyatı, dəmir yolu, Dunay çayı vasitəsilə dünya bazarına çatdırır. Burada əsas ağırlıq Rumıniyanın Qara dənizdəki Konstantsu limanının üzərinə düşüb. Xatırladaq ki, ötən il bu liman vasitəsilə dünya bazarına 25 milyon ton buğda ixrac olunmuşdu. Amma Rumıniya rəsmiləri bəyan edirlər ki, limanın ixrac imkanları daha çoxdur. Böyük Britaniya Ukraynadan buğda ixracını artırmaq məqsədilə dəmir yollarının bərpası üçün 10 milyon funt-sterlinq vəsait ayırıb. Buna baxmayaraq, görülən tədbirlər problemi qismən həll etmək üçün yetərli sayılır.

Sözsüz ki, buğdanın bahalaşmasından ən çox idxalçı ölkələr əziyyət çəkir. Azərbaycan da bu ölkələr sırasına daxildir. Ölkəmizdə aparılan aqrar islahatların da başlıca məqsədi məhsul istehsalını artırmaqla ərzaq təhlükəsizliyini təmin etməkdir. Görülən işlər sayəsində bu gün bir sıra məhsullar üzrə tələbatın çox hissəsini yerli istehsal hesabına ödəyə bilirik. Bu göstəricilər qoyun əti üzrə 100, mal əti üzrə 80 faizdir. Yumurta və süddə təminat da 80 faizə çatıb. Meyvə-tərəvəz isə tələbatdan çox istehsal olunduğu üçün xarici bazara da çıxarılır.

Məlumdur ki, Azərbaycan kənd təsərrüfatı məhsullarından ən çox buğda idxal edir. Ölkəmizə ildə təxminən 1 milyon 200 min - 1 milyon 300 min ton ərzaqlıq buğda idxal olunur. Dövlət Gömrük Komitəsinin məlumatına görə, cari ilin yanvar-may aylarında xaricdən 355 min 625 ton buğda gətirilib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 36,6 min ton az olsa da, ödənilən vəsait çoxdur. Belə ki, ötən ilin eyni dövründə buğda idxalı üçün 99,8 milyon dollar ödədiyimiz halda, cari ilin müvafiq dövründə 124 milyon dollardan çox vəsait xərclənib. Rəqəmlərdən də görünür ki, idxal azalsa da, ödədiyimiz vəsait ciddi şəkildə artıb. 10 milyon əhali üçün bu rəqəm elə yüksək olmasa da, taxılla təminatın indiki şəraitdə idxaldan asılılığı risklidir. O üzdən taxıl istehsalının daxili imkanlar hesabına artırılması vacibdir.

Bu mövsümün nəticələrini intizarla gözləyirik. İyulun 6-na olan son məlumata görə, ölkə üzrə payızlıq taxıl əkini sahələrinin 72,6 faizində biçin başa çatıb. Sahələrdən 2,1 milyondan çox məhsul yığılıb. Ağdam, Ağcabədi, Bərdə, Saatlı, Sabirabad və Samuxda buğdanın orta məhsuldarlığı 40-50 sentnerə çatıb. Nəzərə alsaq ki, ötən il ölkə üzrə məhsuldarlıq 31-32 sentner olub, bu göstəricilər pis deyil. Ancaq hazırda dünya üzrə həmin rəqəm 70-80 sentnerdir. Bəzi ölkələr isə məhsuldarlığı 90 sentnerə çatdıra biliblər. Odur ki, indi qarşımızda duran əsas məsələ məhsuldarlığı və əkin sahələrini artırmaqla idxalı ən azından minimuma endirmək, yaxın gələcəkdə isə daxili tələbatın yerli istehsal hesabına ödənilməsini təmin etməkdir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Neftçalanın su probleminin həllinə çox qalmayıb

### Sakinlər ilin sonunu səbirsizliklə gözləyirlər

Neftçala şəhərində kanalizasiya sistemi keçən əsrin 70-ci illərində - inzibati ərazi vahidi kimi Salyan rayonunun tərkibindən ayrılıb rayon mərkəzi olandan sonra yaradılmışdır. Yarım əsrə yaxın bir dövrdə su-kanalizasiya sistemi köhnəlmiş, istismar müddətini başa vuran xətlər korroziyaya uğrayaraq sıradan çıxmışdır.



Binaların zirzəmilərində, magistral xətlərdə baş verən qəzalar nəticəsində çirkli sular ətrafa axaraq antisanitariya vəziyyəti yaradırdı. Kanalizasiya sistemi bir yana qalsın, artıq bir neçə ildir Neftçala şəhəri və rayonun digər yaşayış məntəqələrinin əhalisi içməli və suvarma suyu sarıdan da problemlə üz-üzə qalmışdır. İqlim dəyişiklikləri, qlobal istiləşmə, yağıntıların az düşməsi Kürdə suyun son dərəcə azalmasına, Xəzərin şor sularının çaya daxil olmasına, bəzi hallarda dəniz suyunun Neftçala-Salyan rayonları sərhədinədək gəlib çatmasına səbəb olmuşdur. İş o yerə gəlib çatmışdır ki, 2020-2021-ci illərdə rayon əhalisini içməli su ilə təmin etmək məqsədilə paytaxt Bakıdan, Sumqayıtdan, ətraf rayonlardan buraya su daşıyan maşınlar cəlb edilmişdir. Yeri gəlmişkən onu da qeyd edək ki, məcburiyyət qarşısında qalan torpaq mülkiyyətçiləri, fermerlər əkdikləri taxıl, pambıq, yonca, bostan-tərəvəz sahələrini şor su ilə suvarmalı olurdu. Bu isə məhsuldarlığın qat-qat aşağı düşməsinə, torpaqların şoranlaşmasına gətirib çıxarırdı.

Cari ilin əvvəllərində də rayonda su problemi yaşandı. Lakin yazda və elə indinin özündə ölkəmizin qərb bölgəsinə düşən leysan yağışları çaylarda, o cümlədən Kürdə sululuğun artmasına səbəb oldu. Bu, əkinçiləri hədsiz dərəcədə sevindirdi. Taxıl zəmilərinin suvarılması məhsuldarlığın əməlli-başlı yüksəlməsinə təsir etdi. Hazırda pambıq əkinlərinin, yoncalıqların suvarılması mütəşəkkil keçir.

Regionların sosial-iqtisadi inkişafı dördüncü dövlət proqramı çərçivəsində indi Neftçala şəhərinin su-kanalizasiya sistemi yenidən qurulur. Yaranmış vəziyyətlə əlaqədar əlavə tədbirlər görülmüş, o cümlədən Prezidentin 11 iyun 2020-ci il tarixli sərəncamı ilə "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı" təsdiq olunmuş və dərhal bu layihənin icrasına başlanmışdır.

2020-ci ilin noyabr ayında layihənin ən mühüm hissəsi, yəni Salyan rayonunun Babazanan yüksəkliyində nəzərdə tutulmuş su anbarının tikintisi başa çatdırılmış və Şirvan-Muğan qrup su kəmərindən gələn xətt vasitəsilə anbar ekoloji cəhətdən keyfiyyətli, standartlara cavab verən su ilə doldurulmuşdur. Buradan isə 560 millimetr diametrlik polietilen borularla uzunluğu 44 kilometr olan su xətti çəkilmişdir. Paralel olaraq Bankə qəsəbəsində Kür çayının hər iki sahilini birləşdirən 262 metr uzunluğunda körpü tikilmiş və sözügedən su xətti onun üzərindən keçirilmişdir. Lakin daxili su xətləri köhnəlib sıradan çıxdığı üçün şəhər əhalisinin hələlik 30-40 faizi bundan istifadə edə bilir.

Bütün şəhər əhalisinin içməli suya tələbatının tam ödənilməsi və şəhərin kanalizasiya sisteminin yenidən qurulması üçün hazırda Neftçala şəhərində qızğın iş gedir. Bir neçə yerdə su, digər bir neçə yerdə kanalizasiya xətti çəkilir. Həyata keçirilən layihənin sifarişçisi "Azərsu" ASC, icraçısı "Sukanal" ETLİ şirkətidir.

Bu ilin aprelində tikintisinə başlanılmış layihənin ilin sonunda istifadəyə verilməsi nəzərdə tutulub. Bunun üçün inşaatçılar səylə çalışırlar. Şəbəkə su xəttinin çəkilişi 90 min 290, kanalizasiya xəttinin uzunluğu isə 18 min 400 metr olacaq. Burada çirkli suların təmizlənərək dənizə axıdılması üçün qurğu və nasos stansiyası da tikiləcək. Tikintidə, əsasən, Sumqayıtda istehsal edilmiş yüksək təzyiqə davamlı polietilen borulardan istifadə olunur. Boruların xüsusi aparatla bir-birinə birləşdirilməsi, xəndəklərə düzülərkən texniki parametrlərə əməl olunması ciddi nəzarətdə saxlanılır.

Neftçalada görülən bu işlər rayon əhalisinin ürəyincədir. Rayon sakini Qabil Məmmədov deyir ki, ali təhsilini başa vurandan sonra Neftçala şəhərinə gəlib. "Demək olar ki, ömrümün çoxu bu şəhərdə keçib. Müxtəlif vəzifələrdə işləmişəm. Köhnə maliyyə işçisi kimi bilirəm ki, su və kanalizasiya çəkilişi çox vəsait aparan sahədir. Qarabağda o qədər işlərin görülməsi ilə yanaşı, digər yerlərdə, ayrı-ayrı rayonlarda tikinti-quruculuq, abadlıq işlərinin görülməsi heç də asan məsələ deyil. Neftçalada tikilən müasir Olimpiya İdman Kompleksində də işlər tamamlanmaq üzrədir. Kompleks gənclərin asudə vaxtlarının səmərəli keçməsində, onların ziyanlı vərdişlərdən uzaq olmasında böyük rol oynayacaq. Ulu Öndər demişdir: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir". Həyata keçirilən bu işlərin hamısı iqtisadiyyatımızın dinamik inkişafının nəticəsidir".

Neftçala şəhər sakini Səmədağa Səmədov da Q.Məmmədovun sözlərinə qüvvət verdi: "Qabil müəllimin dedikləri ilə tam razıyam. Güclü iqtisadiyyatımız olmasaydı, İkinci Qarabağ müharibəsində qalib gələ bilməzdik. Prezident, Ali Baş Komandan İlham Əliyev ordumuzun daha da güclənməsi, ən müasir silahlarla təchiz edilməsi üçün əməli işlər görür. Qarabağda gedən möhtəşəm işlər, o cümlədən çəkilən yollar, tikilən hava limanları hər birimizin qəlbini fərəh hissi ilə doldurur. Ermənilər məğlubiyyətləri ilə barışmaq istəmirlər. Ancaq başqa yolları da yoxdur. Əgər baş qaldırsalar, Prezidentimizin dediyi kimi, "dəmir yumruq" yerindədir. Regionlarda, həmçinin bizim Neftçala rayonunda həyata keçirilən quruculuq işləri isə dövlətimizin başçısının çoxşaxəli və yorulmaz fəaliyyətindən xəbər verir".

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Acarıstanlı uşaqlar Naxçıvanda müalicə olunurlar

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasında 2012-ci ildən başlayaraq həyata keçirilən qarşılıqlı rəsmi səfərlər müxtəlif istiqamətlərdə, o cümlədən səhiyyə sahəsində əməkdaşlığın əsasını qoyub.

AZƏRTAC xəbər verir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində hər il Acarıstan Muxtar Respublikasından aztəminatlı ailələrdən olan və tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən uşaqların təbii şəfa mənbəyi Duzdağ Fizioterapiya Mərkəzində pulsuz müalicəsi təşkil edilir.

Səhiyyə sahəsində həyata keçirilən tədbirlərin davamı olaraq tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən acarıstanlı aztəminatlı ailələrdən olan 28 uşaq, onları müşayiət edən 7 valideyn və 1 həkim Duzdağ Fizioterapiya Mərkəzində müalicə kursu keçmək üçün Naxçıvana gəliblər.

Qonaqları Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov salamlayaraq, onların burada effektli müalicələrinə dövlət tərəfindən nəzarət olunacağını bildirib.



"Duzdağ" hotelində yerləşdirilən acarıstanlı uşaqlar Duzdağ Fizioterapiya Mərkəzində müalicə alır, həmçinin muxtar respublikanın bir sıra gəzməli-görməli yerləri ilə tanış olurlar.

## İşğaldan azad edilmiş ərazilərdəki yaylaqlara 940 qoyunçuluq, 1101 arıçılıq təsərrüfatı köçürülüb

İşğaldan azad edilmiş ərazilərdə yerləşən yaylaqlara qoyunçuluq və arıçılıq təsərrüfatlarının köçü başa çatmaq üzrədir. Köç müvafiq dövlət qurumları ilə razılaşdırılmış vahid reqlament əsasında həyata keçirilir. Əvvəl bu proses barədə.



Reqlamentə əsasən, azad edilmiş bölgələrdən olan, təsərrüfatında ən azı 200 baş davar və Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində qeydiyyatdan keçmiş 40 arı ailəsi olan fermer mövsüm dövründə öz təsərrüfatını azad edilmiş ərazilərdəki yaylaqlara köçürmək üçün elektron müraciət edə bilər. Yaylaqlara təsərrüfatdakı davarın 10 faizi həcmində qaramal aparmağa da icazə verilib. Bundan əlavə, təsərrüfatın rəhbəri özü ilə şəxsi seçimi əsasında müəyyən etdiyi maksimum 9 köməkçi aparmaq hüququna malikdir.

Köçdən əvvəl müraciətləri təsdiqlənmiş fermerlərə ANAMA-nın Göygöldə yerləşən Təlim Mərkəzində müvafiq təhlükəsizlik və davranış qaydaları ilə bağlı təlim keçirilib. Azad olunmuş ərazilərdə təhlükəsizlik qaydaları ilə tanış olduqlarına dair sertifikat almış fermerlərə öz təsərrüfatlarını müəyyən edilmiş müddət ərzində yaylaqlara köçürməyə icazə verilib.

Və nəhayət, bütün bunlardan sonra iyulun 1-dək azad olunmuş ərazilərdəki yaylaqlara, ümumilikdə, 329,1 min başdan çox davar, 23,8 min başa yaxın qaramal köçürülüb. Ümumilikdə, Kəlbəcər və Laçın yaylaqlarına 940 qoyunçuluq təsərrüfatı köç edib. Eyni zamanda bu il Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarındakı yaylaqlara 1101 arıçı tərəfindən 61045 arı ailəsi aparılıb. Ümumilikdə, cari il yaylaq mövsümündə 17406 şəxsə fermer təsərrüfatlarının tərkibində azad olunmuş ərazilərdəki yaylaqlara getməsinə icazə verilib.

Qeyd edək ki, ötən il həyata keçirilən pilot layihə çərçivəsində qoyunçuluq və arıçılıq təsərrüfatlarının yalnız Kəlbəcər və Laçın rayonlarına köçürülməsinə şərait yaradılmışdı. Bu il köç prosesinin miqyası genişləndirilib, təkcə Kəlbəcər və Laçından deyil, digər azad edilmiş ərazilərdən olan fermerlərin də öz təsərrüfatlarını doğma yaylaqlara aparmasına icazə verilib. Zəngin bitki örtüyü və yem potensialı olduğu üçün qoyunçuluq təsərrüfatlarının yalnız Kəlbəcər və Laçın yaylaqlarına, arıçılıq təsərrüfatlarının isə fermerin öz rayonunda yerləşən yaylaqlara aparılmasına şərait yaradılıb. Bundan başqa, reqlamentə əsasən, ölkə üzrə damazlıq arıçılıq və qoyunçuluq təsərrüfatlarının da azad olunmuş ərazilərdəki yaylaqlara köçü həyata keçirilib.

Reqlamentə əsasən, yaylaq mövsümü sentyabrın əvvəllərində başa çatacaq.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Dünya Bakıya gəlir



Gör nə qədər ölkələrin
ali-ali qonaqları
yığışaraq gəlir bizə -
Odlar yurdu ölkəmizə -
Bakı adlı evimizə.
Hamısının bir arzusu,
bir istəyi, niyyəti var:
İstəmirlər Yer üzündə
nə bir savaş,
müharibə, dava olsun,
təlaş olsun.
İnsan oğlu sülh içində
ömür sürsün,
yaşa dolsun,
xoşbəxt olsun.
Qoşulmama Hərəkatı ölkələri
nümayəndə heyətləri
qarşısına
gül qoyulub
bu tədbirdə.
Yer üzünə, kainata,
hər millətə, hər insana,
hər ölkəyə, hər canlıya
təmənnasız həyat verən,
nəfəs verən
Günəş adlı bir varlığın
görkəmini əks etdirən
Günəbaxan.
Dördbucaqlı masanın da
ortasında ayrı-ayrı
qitələrdən, ölkələrdən
yaradılmış Yer kürəsi
xəritəsi.
Reallıqda fərqli ikən
hər bir qitə, hər bir ölkə,
başdan-başa bürünübdür
gül-çiçəyə,
bənzəri var bir çələngə.
Diləyimiz budur bizim -
belə görmək istəyirik
dünya adlı evimizi.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***




# "Bakıya SOCAR-ın tərəfdaşı kimi gəlirik..."

## Azərbaycan və Özbəkistan neftçiləri indi daha sıx əməkdaşlıq edəcəklər

Azərbaycan və Özbəkistan neftçilərini mehriban dostluq və faydalı əməkdaşlıq telləri birləşdirir. Son zamanlar bu münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub. Xüsusilə Prezident İlham Əliyevin bu ilin iyun ayında Özbəkistana rəsmi səfərindən sonra hər iki ölkənin neftçiləri qarşısında yeni əməkdaşlıq perspektivləri açılıb.



Dövlət başçısının tapşırıqlarının yerinə yetirilməsi məqsədilə SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) birinci vitse-prezidenti, şirkətin prezidenti vəzifəsini müvəqqəti icra edən Rövşən Nəcəfin rəhbərliyi ilə nümayəndə heyətinin cari ilin iyul ayında Özbəkistanda səfərdə olması bunun əyani təsdiqidir.

Səfər zamanı SOCAR-ın nümayəndə heyəti "Özbəkneftqaz" Səhmdar Cəmiyyətinin tərkibində fəaliyyət göstərən Modelləşdirmə Mərkəzində, həmçinin İstehsal və Dispetçer İdarəetməsi Mərkəzində olub. Azərbaycandan gələn qonaqlara mərkəzlərin fəaliyyət istiqamətləri və tətbiq olunan yeniliklər haqqında məlumat verilib. "Özbəkneftqaz"ın İdarə Heyətinin sədri Mehriddin Abdullayevlə görüşdə iki şirkət arasında əməkdaşlığın perspektivləri, təcrübə mübadilələrinin həyata keçirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Xatırladaq ki, Özbəkistanın iqtisadiyyatında neft-qaz sektorunun xüsusi yeri var. İndiyədək ölkənin ərazisində onlarca neft və qaz yatağı aşkar edilib. Bu yataqların arasında onilliklərdir istismar edilənlər də, təzə kəşf olunanlar da var. Yataqların bəziləri özbək mütəxəssislər tərəfindən, bəziləri xarici şirkətlərlə birgə işlənir. Respublikada, eləcə də neftin və qazın emalı ilə məşğul olan müəssisələrin geniş şəbəkəsi fəaliyyət göstərir. Odur ki, "Özbəkneftqaz" genişmiqyaslı iş aparır. Onun fəaliyyətinə karbohidrogenlərin hasilatı, emalı və satışı daxildir. Cəmiyyət, eləcə də təbii qazın nəqli - idxalı və ixracını həyata keçirir. Qazın saxlanması və əhaliyə çatdırılması da "Özbəkneftqaz"ın üzərinə düşür. Bu, dinamik inkişaf edərək ölkənin sosial-iqtisadi inkişafına əhəmiyyətli töhfə verən müasir şirkətdir. "Özbəkneftqaz" respublikanın büdcəsinə ən çox vergi ödəyən şirkətlər arasında ikinci yerdədir.

Özbəkistan, əsasən, qaz yataqları ilə tanınır. Ən zəngin mavi yanacaq mənbələrindən biri "Qazlı"dır. Burada az miqdarda neft və kondensat ehtiyatları da mövcuddur. Neft-qaz emalı sahəsinə gəldikdə isə, Şurtan, Mübarək, Üstyurd, Buxaradakı qaz-kimya komplekslərini, qaz emalı zavodlarını misal göstərmək olar. Bunlar böyük layihə gücü olan müəssisələrdir.

Prezident İlham Əliyevin Özbəkistana rəsmi səfəri çərçivəsində sənədlərin imzalanmasından sonra mətbuata bəyanatında dost ölkənin dövlət başçısı Şavkat Mirziyoyev demişdir: "Fikrimcə, bizim ümumi səylərimiz və daha yaxınlaşma istəyimiz sayəsində Özbəkistan ilə Azərbaycan arasında münasibətlər açıq, geniş əhatəli xarakter kəsb edib, ticari-iqtisadi, parlamentlərarası, mədəni-humanitar və regionlararası əməkdaşlıq fəallaşıb. Bir daha demək istəyirəm, budəfəki danışıqlar göstərdi ki, biz xalqlarımızın mənafeyi naminə qarşılıqlı fəaliyyəti bundan sonra da hərtərəfli möhkəmləndirməyə hazırıq… Biz qarşılıqlı fəaliyyətimizi əsaslı şəkildə fəallaşdırmaq barədə razılığa gəldik. Bundan ötrü bizim geniş imkanlarımız, hər şeydən əvvəl iqtisadiyyatlarımızın qarşılıqlı tamamlanması amili var... Kooperasiya layihələrinə xüsusi diqqət yetiriləcək. Bildiyiniz kimi, biz Hacıqabulda avtomobillərin birgə istehsalını uğurla nizamlamışıq. İpəkçilik sahəsində əməkdaşlığı inkişaf etdiririk. Hasilat, neft kimyası, əczaçılıq, tikinti materialları və hazır tekstil malları, qida məhsulları, zərgərlik məmulatları istehsalı və şərabçılıq sahələrində onlarca yeni layihə üzərində işləyirik. Bu məqsədlə artıq cari ildə birgə investisiya fondunu işə salmaq barədə razılığa gəldik".

SOCAR-ın nümayəndə heyətinin Özbəkistana səfəri zamanı "Özbəkneftqaz" Səhmdar Cəmiyyəti ilə imzalanan əməkdaşlığın genişləndirilməsinə dair "Yol xəritə"si də məhz nəzərdə tutulan işlərin artıq gerçəkləşməyə başladığını göstərir. Bu sənəd neft-qaz sahəsində birgə layihələrin reallaşdırılması və treydinq, neft emalı, neft-kimya sahəsində əməkdaşlıq, təcrübə mübadilələrinin aparılması və bu kimi digər önəmli istiqamətləri əhatə edir. Sənəd, eləcə də "Özbəkneftqaz"ın əməkdaşlarının SOCAR-ın müəssisələrində təcrübə keçmələrini, şirkətlərin mütəxəssisləri arasında mütəmadi görüşlərin təşkilini, birgə işçi alt qruplarının yaradılmasını, rəqəmsal texnologiyalar sahəsində əməkdaşlığı nəzərdə tutur.

Sözügedən səfər çərçivəsində R.Nəcəf Özbəkistanın energetika nazirinin birinci müavini, energetika naziri vəzifəsini müvəqqəti icra edən Azim Axmedxadjayev ilə də görüşüb. Görüşdə SOCAR ilə "Özbəkneftqaz" arasında imzalanan "Yol xəritə"sinin əhəmiyyəti vurğulanıb. Eyni zamanda ölkələrimiz arasında enerji sahəsində əlaqələrin möhkəmləndirilməsi imkanlarına dair fikir mübadiləsi aparılıb.

SOCAR nümayəndə heyətinin Daşkənddə həmçinin Özbəkistanın Dövlət Geologiya Komitəsinin rəhbərliyi ilə də görüşü olub. Görüş zamanı geologiya sahəsində əməkdaşlıq və Özbəkistanda həyata keçirilən layihələrdə bizim mütəxəssislərin iştirak imkanlarının araşdırılması məsələləri nəzərdən keçirilib.

Qeyd edək ki, Özbəkistan neftçiləri həmişə azərbaycanlı həmkarları ilə qürur duyur, onların təcrübəsini yüksək qiymətləndirirlər. "Özbəkneftqaz"ın Azərbaycanda keçirilməsi artıq ənənə halını almış Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində dəfələrlə iştirak etməsi bunu bir daha təsdiqləyir. Özbəkistanın sözügedən şirkəti bu ilin iyun ayında Bakıda keçirilən "Bakı Enerji Həftəsi"nin, o cümlədən 27-ci Xəzər Neft və Qaz Sərgisinin də fəal iştirakçısı idi. Burada özbək mütəxəssislər Azərbaycanın və bir sıra digər ölkələrin neft-qaz işçiləri ilə sıx təmasda oldular, işgüzar söhbətlər apararaq gələcək uğurlu əməkdaşlığın, tərəfdaşlığın konturlarını müəyyənləşdirdilər.

"Özbəkneftqaz" Səhmdar Cəmiyyətinin Biznesin perspektiv inkişafı departamentinin aparıcı mütəxəssisi Əlyor Abdulacanov onunla birlikdə paytaxtımıza gələn nümayəndə heyətinin fikrini ifadə edərək dedi: "Bizim azərbaycanlı həmkarlarımızla birgə işlərimiz var. Odur ki, bu, sərgidə ilk iştirakımız deyil. Biz Bakıya SOCAR-ın tərəfdaşı kimi gəlirik!"

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Altı ayda 281 kilometr yeni qaz kəməri çəkilib



Cari ilin 6 ayı ərzində 281 kilometr yeni qaz kəməri çəkilib.

AZƏRTAC xəbər verir ki, bu barədə "Azəriqaz" İB-nin baş direktoru Ruslan Əliyev deyib. O bildirib ki, yeni qaz kəmərlərinin 35 kilometri Bakı-Abşeron üzrə, 246 kilometri isə regionlar üzrədir.

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC**

**"Dənizçi" MTK-nın 1-ci mərtəbəsi uşaq bağçası olmaqla yüksəkmərtəbəli yaşayış binalarında mənzil girişi metal qapıların quraşdırılması işləri (2A, 2B) (mal-material və işçiliklə birlikdə) satın alınması üçün**

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 18 iyul 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Mikayıl Useynov 2, AZ1003**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC**

**"Dənizçi" MTK-nın 1-ci mərtəbəsi uşaq bağçası olmaqla yüksəkmərtəbəli yaşayış binalarının yanğın (473,5 $m^3$) və içməli su (473,5$m^3$) anbarlarının daxilinin izolyasiya olunması işləri üçün (mal-material və işçiliklə birlikdə) satın alınması üzrə**

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 18 iyul 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Mikayıl Useynov küç. 2, AZ1003**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC**

**"Zığ" GTTZ-nin minifutbol meydançasının məişət otağında və sanitar qovşağında metal konstruksiya və sendvic panellərin quraşdırılması üçün (mal-material və işçiliklə birlikdə)**

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 19 iyul 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, M.Useynov küç. 2, AZ1003**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC**

**"Zığ" GTTZ-nin minifutbol meydançasının üzərinin metal konstruksiyadan bağlanması işləri üçün (eni 27.16 metr, uzunluğu 56.16 metr) layihələndirilmə xidmətinin satın alınması üzrə**

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 19 iyul 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, M.Useynov küç. 2, AZ1003**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

# Azərbaycanla Misir arasında hava əlaqəsinin genişləndirilməsi barədə fikir mübadiləsi aparılıb

"Azərbaycan Hava Yolları" Mətbuat xidmətinin verdiyi məlumata görə, "AZAL"ın prezidenti Cahangir Əsgərovun Misirin Azərbaycandakı səfiri Hişam Mohammed Naqi Abdel Hamid ilə görüşündə mülki aviasiya sahəsində qarşılıqlı əməkdaşlığın gündəliyinə dair fikir mübadiləsi aparılıb.



Görüş zamanı Cahangir Əsgərov onu Azərbaycana səfir təyin olunması münasibətilə təbrik edib və gələcək diplomatik fəaliyyətində uğurlar arzulayıb. "AZAL"ın prezidenti ölkələr arasında müntəzəm hava əlaqəsinin olduğunu bildirib. Hazırda Misirin "Air Cairo" aviaşirkəti həftədə bir dəfə Bakı şəhərindən Qırmızı dənizin sahilində yerləşən Şarm-əş-Şeyx kurort şəhərinə və geri istiqamətdə uçuşlar yerinə yetirir. Səfir Hişam Mohammed Naqi Abdel Hamid Cahangir Əsgərova təşəkkürünü bildirib və iki ölkənin turizm potensialının genişləndirilməsi məqsədilə mülki aviadaşımalar sahəsində tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. O, iki ölkə arasında hava əlaqəsinin genişləndirilməsində və Qahirə ilə Bakı arasında müntəzəm sərnişin və yük reyslərinin yerinə yetirilməsində maraqlı olduqlarını bildirib. "AZAL"ın prezidenti Cahangir Əsgərov Bakı ilə Qahirə arasında sərnişin və yük daşımalarının həyata keçirilməsi, həmçinin Şarm-əş-Şeyx - Bakı - Şarm-əş-Şeyx marşrutu üzrə uçuşların sayının artırılması məsələlərində maksimum yardım göstəriləcəyini qeyd edib. "Qahirədən Bakıya sərnişin reysləri açıldığı təqdirdə, Heydər Əliyev Beynəlxalq Aeroportunda "Air Cairo" aviaşirkətinə hava limanı tərəfindən müəyyən edilmiş qaydada endirimlər tətbiq olunacaq", - deyə Cahangir Əsgərov qeyd edib.

# Azərbaycanla Qətər arasında mülki aviasiya sahəsində gələcək əməkdaşlıq məsələsi müzakirə olunub

"Azərbaycan Hava Yolları" Mətbuat xidmətinin verdiyi məlumata görə, "AZAL"ın prezidenti Cahangir Əsgərovun Qətərin Azərbaycandakı səfiri Feysal bin Abdullah Həməd Abdullah Al Hinzab ilə görüşü zamanı iki ölkə arasında mülki aviasiya sahəsində uğurlu tərəfdaşlığın möhkəmləndirilməsi məqsədilə gələcək əməkdaşlıq məsələləri müzakirə olunub.



Səfirlə görüşdə Cahangir Əsgərov ölkələrimiz arasında mülki aviasiya sahəsində ikitərəfli əməkdaşlığın uğurlu inkişafından məmnunluğunu ifadə edib. Onun sözlərinə görə, Azərbaycanla Qətər arasında hava əlaqəsi iki ölkənin turizm potensialının genişləndirilməsi və iqtisadi əməkdaşlığın inkişafı çərçivəsində mühüm rol oynayır. "Hazırda "Qatar Airways" aviaşirkəti Doha-Bakı-Doha istiqamətində həftədə yeddi reys həyata keçirir. Həmçinin cari ilin noyabr-dekabr aylarında Qətərdə futbol üzrə Dünya Çempionatının keçiriləcəyi dövrdə aviadaşıyıcının bu marşrut üzrə həftəlik reyslərinin sayının artırılacağı gözlənilir", - deyə Cahangir Əsgərov qeyd edib.

Səfir Feysal bin Abdullah Həməd Abdullah Al Hinzab mülki aviasiya sahəsində ikitərəfli əməkdaşlığın daha da inkişaf edəcəyinə və ölkələr arasında işgüzar və turizm əlaqələrinin möhkəmlənməsinə müsbət təsir göstərəcəyinə əminliyini ifadə edib.

azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ
Azərbaycan xalqını
QURBAN BAYRAMI
münasibətilə təbrik edir,
ruzi-bərəkət və
xoşbəxt gələcək arzulayır



Həyatınız daim işıqlı olsun!

Coca-Cola
şirkəti Azərbaycan xalqını
Qurban bayramı
münasibətilə təbrik edir,
bolluq və firavan həyat arzulayır
Bayramınız mübarək!

# Meymunçiçəyinin yayılma miqyası böyüyür

## Əgər bu virus Azərbaycanda olarsa, gətirilən testlər onun daha tez aşkarlanmasına kömək edəcək

Avropada meymunçiçəyi virusuna yoluxma riski yüksək olaraq qalır. Hazırda Qərb ölkələri epidemiyanın mərkəzi hesab olunurlar. ÜST-ün baş direktoru Tedros Gebreyesus da qeyd edib ki, meymunçiçəyi infeksiyasının yayılma miqyası hələ də narahatlıq doğurur.

Onun sözlərinə görə, dünyanın 58 ölkəsində 6 min yoluxma qeydə alınıb. Baş direktor bildirir ki, infeksiyanı aşkar etmək hələ də çətindir. Buna görə yoluxma hallarının real sayının daha çox olduğu ehtimal edilir. O, hazırda yeni yoluxma hallarının 80 faizə qədərinin məhz Avropada qeydə alındığını vurğulayıb.

### ÜST meymunçiçəyi preparatlarının mexanizmlərini hazırlayır

Xəstəliyin getdikcə daha çox ölkədə qeydə alınmasına, diaqnoz qoyulmasının çətinliyinə baxmayaraq, ÜST meymunçiçəyinə qarşı kütləvi vaksinasiya aparılmasını tövsiyə etmir. Qeyd olunur ki, vaksinlərin əlçatan olduğu azsaylı yerlərdə onlardan, əsasən, tibb işçiləri və laboratoriya əməkdaşlarını qorumaq üçün istifadə edilir.

Səhiyyə təşkilatı yaxın günlərdə meymunçiçəyinə qarşı tibbi yardım, infeksiyaların profilaktikası və onlara qarşı mübarizə, vaksinasiyaya dair rəhbərlik və əhalinin müdafiəsi barədə əlavə tövsiyələr təqdim etməyi planlaşdırır. Hazırda virusa qarşı mübarizə üçün ÜST tərəfindən bəyənilmiş preparatlar və vaksinlərin mövcud olduğu, lakin onların məhdud sayda olduqları bildirilir. Preparatların ölkələr arasında ədalətli bölgü mexanizmləri də hazırlanır.

İyunun 23-də ÜST-ün Fövqəladə Komitəsində meymunçiçəyi pandemiya elan olunsa da, komitə virusun yayılması hallarını "beynəlxalq əhəmiyyətli fövqəladə vəziyyət" adlandırmaqdan imtina edib. Komitənin iyulun 18-də, lazım gələrsə, daha tez yenidən toplanacağı bildirilir.

Meymunçiçəyi, adətən, heyvanlarda müşahidə olunan virusun yaratdığı xəstəlik olsa da, yoluxmuş heyvanlardan insanlara dolayı və ya birbaşa təmas yolu ilə ötürülür. İnsandan-insana ötürülmə virusa yoluxmuş şəxslə birbaşa təmas və ya tənəffüs yolu ilə baş verə bilər. Simptomları təbii çiçək xəstəliyinə bənzəsə də, meymunçiçəyi klinik cəhətdən daha yüngül hesab olunur. Virusun yayıldığı may ayından yalnız bir ölüm halının qeydə alındığı bildirilir. Xəstəliyin risk qrupuna, əsasən, uşaqlar, hamilə qadınlar və immunçatışmazlığı olanlar daxildir. 40 yaşdan yuxarı şəxslər isə vaxtilə təbii çiçəyə qarşı peyvənd olunduqlarından onlarda xəstəliyə qarşı immun cavabın yarandığı deyilir.

### Xəstəlik, adətən, 2-4 həftə davam edir

Qonşu ölkələrdə meymunçiçəyinə yoluxma faktları qeydə alınsa da, Azərbaycanda hələ ki, xəstəliyə yoluxma halı baş verməyib. Bununla belə, xəstəliklə bağlı bütün səhiyyə qurumları tərəfindən qabaqlayıcı, lazımi tədbirlər görülür. Azərbaycan xəstəliyin diaqnozunun qoyulması üçün testlərin ölkəyə gətirilməsinə görə ÜST-ə ilk müraciət edən ölkələrdən biridir. Müraciətin nəticəsində iyulun 4-də Ümumdünya Səhiyyə Təşkilatının ölkə ofisi ehtiyac yarandıqda istifadə olunması üçün Azərbaycana 3000 meymunçiçəyi test dəsti təhvil verib.

ÜST-ün Azərbaycandakı nümayəndəsi Hande Harmancı bildirib ki, sözügedən vasitələr yoluxma hallarının aşkarlanmasına və xəstəliyin yayılmasının qarşısının alınmasına yönəlmiş ictimai səhiyyə səylərinin müəyyənləşdirilməsinə kömək edəcək: "Biz ölkələrə nəzarət, təmasların izlənməsi və yoluxmuş xəstələrin izolyasiya olunması daxil olmaqla, sınaqdan keçirilmiş ictimai səhiyyə vasitələri ilə dəstək olmağı hədəfləyirik. Erkən diaqnostika bu səyin mühüm hissəsidir".

Görülən tədbirlər sırasında Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) meymunçiçəyi xəstəliyinin diaqnostika və müalicəsi üzrə hazırladığı klinik protokol da var. Protokolda xəstəlik haqqında məlumat verilir və qeyd olunur ki, virusun inkubasiya dövrü, adətən, 6-13 gündür, lakin 5-21 gün arasında dəyişə bilər. Xəstəlik, adətən, 2-4 həftə davam edir və gedişi iki dövrə bölünür. Birinci dövr 5 günə qədər davam edir, bu zaman qızdırma, şiddətli baş ağrısı, limfa düyünləri meydana gəlir, ikinci dövrdə səpkilərin əmələ gəlməsi ilə hərarət və digər əlamətlər zəifləyir. Səpkilər dövrü adətən, qızdırma başlayandan sonra 1-3 gün ərzində müşahidə edilir.

Protokolda həmçinin xəstəliyin diaqnozunun qoyulması haqqında da məlumat yer alıb. Belə ki, şübhəli bilinən şəxslər test edilməlidir. Testin aparılması qərarı infeksiya ehtimalının qiymətləndirilməsi ilə əlaqəli olaraq həm klinik, həm də epidemioloji amillərə əsaslandırılmalıdır. Diaqnoz xəstədən götürülmüş patoloji materialda PZR (NAAT) üsulu ilə meymunçiçəyi virusunun DNT-nin aşkarlanması ilə təsdiq olunur. Xəstəliyi ağır keçirən və ağırlaşma riski yüksək olan pasiyentlər stasionar şəraitdə müalicə olunmalıdırlar. Əksər xəstələrdə meymunçiçəyi yüngül formada keçdiyi üçün simptomatik müalicə kifayət edir. Meymunçiçəyi xəstəliyinin müalicəsi üçün hazırda tekovirimat ən faydalı hesab olunur. Bu preparat ABŞ-da 2018-ci ildə meymunçiçəyi xəstəliyinin müalicəsi üçün təsdiq edilib.

### İki pandemiya davam etdiyindən özümüzü qorumalıyıq

Dünyada bir pandemiyanın hələ sona çatmadan digərinin başlaması əsas diqqət etməli məqamın sağlamlıq olduğunu bir daha ortaya qoyur. Eyni zamanda xəstəliyin aşkarlanmasının çətinliyi də problemlər yaradır.

Qonşu ölkələrdə virusa yoluxma halının qeydə alınması Azərbaycanda da infeksiyaya rast gəlinəcəyi ehtimalını artırır. Həmçinin belə bir zamanda digər ölkələrdə və Azərbaycanda COVID-19-a yoluxma hallarında da artım müşahidə edilir. Bütün bunları nəzərə alaraq, sanitariya-gigiyena qaydalarına əməl etmək birnömrəli vəzifə olmalıdır. Hər bir halda ehtiyatı əldən verməməli və ötən iki ili unutmamalıyıq.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan"
şirkəti və onun törəmə şirkətləri

Azərbaycan xalqını

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

Müqəddəs Qurban bayramı

münasibətilə təbrik edir, hər bir ailəyə səadət, sevinc dolu günlər və firavan həyat diləyir




# Tariximizi yaşadan dəmirçilər yurdu











Pirsaatçayın sahilində Baş Qafqaz dağ silsiləsinin ətəyindəki Dəmirçi kəndi Şamaxının ən qədim yurd yerlərindəndir. İlk adı Güneyçay olan kəndin tarixi XV əsrə gedib çıxır. İqlimi mülayimdir, yayda sərin olur.

Qışı isə elə də sərt keçmir. Bu kəndin qeyri-adi bir xüsusiyyəti də ondadır ki, ətraf nə qədər duman, çiskin olsa da, göyün üzü həmişə aydın, günəşli olur. İqlimi yaxınlıqdakı digər yaşayış məskənlərinkindən fərqlənir.

## İnsanı keçmişə aparan məkan

Kəndin daşlı yollarında addımlayarkən fərqliliyinə bir daha əmin olursan. Hər qarışından qədim tarixinin şahidi olursan. Küçələrdə gəzdikcə sanki tarixə səyahətə çıxırsan. Köntöy daşlarla hörülmüş ecazkar evləri, əyri-üyrü pillələkənləri isə bir ayrı mənzərədir. Küçələrdə yeridikcə sanki bu gündən ayrılıb keçmişə qayıdırsan. Dəmirçilər yurdunda elə bir ecazkar qüvvə var ki, insanı ata-ana yurduna, nəsillərin, illərin beşiyinə çəkir, müasir dünyadan qoparıb min illər əvvələ aparır. Həyatda alın tərinin, zəhmətin, sənətkarlığın bəlkə də daha qiymətli olduğu illərə…

Dəmirçini gəzərkən bərpası və tarixi simasının qorunması istiqamətində bir sıra tədbirlərin həyata keçirildiyinin şahidi oluruq. Kəndin ən qədim abidəsi hesab edilən məscidi Prezident İlham Əliyevin göstərişi ilə əsaslı şəkildə bərpa olunub. Bu məscid 755-ci ildə inşa edilib. Azərbaycanın ən qədim dini ocaqlarından biri olmaqla, tarixən ətraf bölgələrdəki əhalinin də müqəddəs inanc yeri olub. Prezident və birinci xanım 2017-ci il oktyabrın 2-də Şamaxıda, Dəmirçi kəndində görülən işlərlə şəxsən tanış olublar.

## Kəndin tarixi simasının qorunması diqqət mərkəzindədir

Kəndin bərpası və tarixi simasının qorunması ilə bağlı son illərdə həyata keçirilən işlər ölkəmizin nadir abidələrini qoruyub saxlamaq və onu gələcək nəsillərə çatdırmaq istiqamətində mühüm tədbirlərdən biridir.

Növbəti baş çəkdiyimiz ünvan kənddəki Arxeologiya muzeyi oldu. Yolüstü kənd qəbiristanlığının yanından keçdik. Məzar daşlarına nəzər yetirəndə hicri tarixindən 1312-ci ilə, 150 il öncəyə aid olduğunu gördük.

Arxeologiya muzeyi 2018-ci ildə fəaliyyətə başlayıb. Birmərtəbəli bina açıq və qapalı ekspozisiya zallarından ibarətdir. Muzeyin sərgi salonunda, ümumilikdə, 7 bölmə fəaliyyət göstərir. Burada Şamaxı rayonu ərazisində, həmçinin Dəmirçi kəndində aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi-mədəniyyət nümunələri, nadir daş alətlər, əkinçilik mədəniyyətinə aid əmək alətləri, soyuq silahlar, mis, bürünc, gümüş sikkələr, aqlay materiallardan su boruları, qədim gil məmulatı və digər qiymətli tapıntılar, məişət əşyaları nümayiş olunur. Muzeyin açıq ekspozisiya zalında isə Albaniya dövləti dövrünə aid qəbirlər var. Onlar Lahıca gedən yolda, bərpa və yenidənqurma işləri aparılarkən tapılıb. Qəbirlər sərkərdələrə aiddir. Onlar şəxsi əşyaları, qızıl və yemək küpləri ilə birgə dəfn ediliblər. Bura Azərbaycanda yeganə muzeydir ki, qəbirlər üstüaçıq şəkildə sərgilənir. Muzeydə küp qəbirlər də var. Bu məkan bölgənin tarixinin müxtəlif dövrlərini araşdırmaq baxımından da mühüm əhəmiyyətə malikdir.

## Dəmirçilik sənətini yaradanlar və yaşadanlar

Yerli əhalinin və turistlərin istirahəti, onların gəzintisinin maraqlı və yaddaqalan olması üçün kənddə bir sıra layihələr icra olunub. Kəndin girəcəyində dəmirçi emalatxanalarını, əl işlərindən ibarət piştaxtaları görə bilərik. Burada turistlərə müxtəlif suvenirlər, sənətkarlıq nümunələri təqdim edilir. Kənddə qonaqlar üçün maraqlı əyləncə və istirahət yerləri də yaradılıb. Emalatxanaları gəzib ustalarla tanış oluruq. Öyrənirik ki, 66 yaşlı dəmirçi Fəxrəddin Şükürov 7 yaşından bu sənətdədir. Atası, babası da dəmir döyüblər. Dəmirçi bu sənətlə məşğul olanların azlığından, cavanların şəhərə üz tutmasından gileylənir. Elə öz övladları da şəhərdə yaşayırlar. Çox təəssüflənir ki, ailəsində heç kim onun sənətini davam etdirmir. Deyir ki, ümid nəvələrədir...

Qonşuluqdakı emalatxanaya baş çəkirik. Ağahüseyn Hüseynov düz 60 ildir ki, bu işlə məşğuldur, dəmirdən çörək çıxarır. Hər səhər emalatxanasına gəlir. Günü ocağa kömür atmaqla başlayır. Ocağı qalayandan sonra körüyünü işə salır və dəmiri sənətə çevirir. 5 il əvvələ qədər həyətində çalışırmış. Kəndin girişində ayrıca sənətkarlar məhəlləsi salınandan bura köçüb. Dədə-baba peşəsini davam etdirən Ağahüseyn usta oğlunun da bu sənəti seçib, dəmirçiliklə məşğul olmasından qürur duyur. Həm də ailəsindəki sənətkarlar bununla bitmir. Ustanın ömür-gün yoldaşı və gəlini xalçaçılıqla məşğuldurlar. İlmələrə ömür, xalılara həyat bəxş edirlər. Emalatxanada çərçivədəki foto diqqətimizi çəkdi. Ustanın Prezident İlham Əliyevlə olan fotosu 2017-ci ildə dövlət başçısının Dəmirçi kəndini ziyarəti zamanı çəkilib. Dövlət başçısı ustalarla söhbət edib, güzəranları, problemləri ilə maraqlanıb. Ağahüseyn ustanın emalatxanasında olan xatirə dəftərinə ürək sözlərini də yazıb. Dəmirçi bu dəftəri də bizə qürurla göstərir.

## Mehriban, qonaqpərvər və zəhmətkeş...

Piştaxtaların sırasında kəndin digər sakinləri də öz məhsullarını satırlar. Görünən odur ki, burada yaşayanlar mehriban, qonaqpərvər olduqları qədər də zəhmətkeş və dədə-baba irsinə sədaqətli insanlardır. Arıçılıqla məşğul olan Əjdər Sultanov bal satır. Deyir ki, güzəranları turistlərdən asılıdır. Pandemiyaya görə gəlib-gedən az olsa da, artıq yayın gəlişi ilə vəziyyət yaxşılaşıb.

Digər piştaxtanın arxasında olan Baxşəli kişiylə söhbətləşirik. Deyir ki, həm heyvandarlıqla məşğul olur, həm də ailəsinin evdə hazırladığı mürəbbələri burada satır. Dağlardan, meşələrdən yığdıqları çaytikanı, ziriş, itburnu və cır meyvələri əsl məcuna, ilaca çevirirlər. Onlardan müalicəvi əhəmiyyətli mürəbbə, yağ və turşu hazırlayırlar.

Kəndin bir neçə yerində təndirlər qalanıb, çörək, yağlı fəsəli, qutab bişirilərək qonaqlara təqdim edilir. Kənddə təndirə çörək yapmaq ənənəsini yaşadırlar. Təndirdə bişən çörəyin, təamların öz dadı, öz ləzzəti olur axı. Amma ilk baxışdan asan görünsə də, bu iş də zəhmət və ustalıq tələb edir.

Dəmirçiyə gələn bir də gəlmək istəyir. Çörəyinin, dağlarının, meşələrinin ətri qoymur bu kənddən gedəsən. Bir də belə saf, istiqanlı, əsl azərbaycanlı olan insanların söhbətləri, mehribanlığı bu gəlişə, görüşə bir ayrı ovqat qatır.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***











# Muğamın VIII sehri

## Bu müsabiqədə artıq kiçikyaşlı ifaçılar da iştirak edirlər

Həzrət "Bayatı-şiraz" oxuyurdu...

Əslində, oxuyurdu demək bəlkə də yerinə düşməz. Sanki bu balaca ifaçının ruhu dil açmışdı. Məşq zalında olanlar da bu həzin musiqinin sehrinə düşüb durduqları yerdəcə "donub" qalmışdılar. "Musiqi - insanı Tanrı ilə danışdıran dildir", - deyib müdriklər.

Həzrət üzünü göylərə tutub sanki Tanrı ilə danışırdı. Bu söhbəti duyan balabansa nalə çəkib ahu-fəğan edirdi...

Doğru deyiblər ki, musiqi təkcə hissləri ifadə etmir, həm də yeni hisslər yaradır. İnsan səsi ilə musiqi alətlərinin yaratdığı harmoniya qəlbi riqqətə gətirirdi...

Biz Beynəlxalq Muğam Mərkəzində olanda burada canlanmanın şahidi olduq. Bir azdan geniş tamaşaçı auditoriyasına çıxacaq gənc ifaçılar üzərlərində ciddi şəkildə çalışırdılar. Söhbət VIII muğam müsabiqəsinin iştirakçılarından gedir...





### Muğama olan maraq ilbəil artır

Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Televiziyasının təşkilatçılığı ilə 2005-ci ildən ölkəmizdə Muğam Televiziya Müsabiqəsi keçirilir. Builki müsabiqəyə mayın 10-da start verilib.

Lahiyənin bədii rəhbəri, Əməkdar mədəniyyət işçisi Rövnəq Həsənzadə ilə söhbət edirik:

- Bu il respublikamızın müxtəlif şəhər və rayonlarından müsabiqədə iştirak etmək üçün 300 nəfərə yaxın muğam həvəskarı müraciət etmişdi. Təbii ki, bu qədər adamın müsabiqədə iştirakını təmin etmək mümkün deyildi. Biz müsabiqənin qəbul olunmuş şərtləri çərçivəsində iki turdan ibarət seçimlər aparırdıq. İlk turda 74 nəfər seçildi. Son seçimlərdə 18 ifaçı müsabiqədə iştirak etmək imkanı qazandı. Builki müsabiqə əvvəlki illərdəkindən özəlliyi ilə bir qədər fərqlənir. Belə ki, bu il kiçik yaş qrupu üzrə 10 nəfər muğam ifaçısı da müsabiqədə iştirak edir. Müsabiqənin ilk həftələrində xalq mahnıları, təsniflər, zərb muğamları oxunsa da, sonrakı dövrlərdə Azərbaycan muğamının müxtəlif şöbələri ifa edilir. Artıq müsabiqənin doqquzuncu həftəsi keçirilir. Böyük yaş qrupu üzrə 10 nəfər, kiçik yaş qrupu üzrə 5 nəfər müsabiqəni tərk edib. Onu da deyim ki, kiçik yaş qrupu üzrə ifaçılar qəzəl seçimində sərbəst olsalar da, böyük yaş qrupuna aid olanlara qəzəllər tərəfimizdən seçilib verilir. İfaçılar verilən tapşırıq üzrə hazırlaşırlar. Müsabiqənin yekun mərhələsində 3 azyaşlı, 6 nəfər isə böyük yaş qrupu üzrə ifaçı iştirak edəcək. Bura gələnlərin hamısının qalib olmaq arzusu var. Bu da olduqca təbii bir hissdir. Onların istedadlarını nümayiş etdirmək üçün əlimizdən gələni etməyə çalışırıq.

Məşq zalında olanların üzlərində həm həyəcan, həm də inam var idi... Sözsüz ki, sənət yollarında ilk debütünü edən gənc ifaçılarda bu inamı onlarla birlikdə çalışan müəllimlər, musiqiçilər, bir də ki, muğam müsabiqəsinə təşkilatçılıq edən şəxslər yaradıblar.

Muğam müsabiqəsinin keçirildiyi qısa zamanda televiziya ekranlarından tanıdığımız, bənzərsiz ifa tərzi ilə muğamsevərləri öz səsinin sehrinə salmağı bacaran Həzrət Əzizli ilə söhbətləşirik:

- Mən yaranmış imkandan istifadə edib muğam müsabiqəsinin təşkilatçılarına, xalqımızın mədəni irsinin, mənəvi dəyərlərinin qorunub saxlanmasında müstəsna xidməti olan Mehriban xanım Əliyevaya təşəkkürümü bildirirəm. Yarışmaya Biləsuvar rayonundan qatılmışam. Əvvəllər məni yalnız öz rayonumuzda tanıyırdılarsa, indi bütün dünyada yaşayan muğam həvəskarları ifamı dinləyirlər. Məqsədim heç də birinci olmaq deyil. Arzum yaxşı ifaçı olmaqdır. Mən burada həm öyrənirəm, həm də bacarığımı nümayiş etdirirəm. Burada musiqiçilər, muğam müsabiqəsinin musiqi rəhbəri Çingiz Abbasov bizə öz doğma övladları kimi qayğı göstərir. Zəhmət çəkib bizi televiziya qarşısında izləyən, bura gəlib vaxtını bizimlə keçirən hər bir tamaşaçıya, zəhmətimizi çəkən hər kəsə təşəkkür edirəm.

### Musiqi mənəviyyatla hissiyyat arasında olan vasitədir

Əgər bir millətin xarakterini bilmək istəyirsənsə, o millətin musiqisini dinlə, - deyib aqillər. Bu gün bu zalda məşq edənlərin içindən gələcəyin tanınmış, Azərbaycanımızı dünyada təmsil edə biləcək xanəndələrin, muğamımızı daha da inkişaf etdirəcək sənətkarların çıxacağına inanırıq. Muğam müsabiqəsinin musiqi rəhbəri, Əməkdar incəsənət xadimi Cingiz Abbasovla da söhbətimiz bu barədə oldu:

- İllərdir ki, muğam müsabiqəsinə musiqi rəhbərliyi mənə həvalə edilir. Muğamımıza, bu qiymətli mənəvi sərvətimizə yenidən həyat verilməsində Mehriban xanımın müstəsna xidməti var. Klassik musiqi, muğam unudulub gedirdi. Yüngül, bayağı musiqilər muğamımızı küncə sıxışdırmışdı. Ruhumuza yad musiqilər meydan sulayırdı. Keçirilən muğam müsabiqələri nəticəsində yeni nəsil muğam ifaçıları yetişdi. Bu gün xanəndə sənəti arasında şöhrətlənmiş muğam ifaçılarımız var. Həmin sənətkarların tanınıb sevilməsində, uğur qazanmasında keçirilən muğam müsabiqələrinin böyük rolu olub. Gənc ifaçılarımız səhnə davranışlarını, musiqi ilə ifanın vəhdətini, obraz yaratmaq xüsiyyətlərini burada öyrəniblər. Bugünkü gənc ifaçıların sırasında gözəl səsi, ümidverici gələcəyi olan gənclərimiz var. İnanırıq ki, onlar milli sərvətimiz olan muğamı yaşadıb, gələcək nəsillərə ötürəcəklər.

Musiqi rəhbəri Çingiz Abbasov söhbət əsnasında bildirdi ki, həftənin çərşənbə axşamı və cümə axşamı günləri yarışma keçirilsə də, ifaçılar həftənin bütün günləri növbə ilə məşq edirlər. Onlara yalnız yarışma keçirilən gün məşqlər zamanı mikrofondan istifadə etmələrinə imkan verilir. Gənc xanəndələri muğam müsabiqəsinin öz ansamblı müşayiət edir. Ansamblın idarə olunmasında da qayda var. Tarla kaman ifaçıları növbə ilə bir-birilərini əvəz etsələr də, digər alətlərdə ifa edənlər növbəsiz çalışırlar.

Səhnədə yeni bir ifaçı görünür. Ağsu rayonundan gəlmiş Daşqın Kürçaylı "Şikəsteyi-fars" oxuyur. Təmkini, mükəmməl ifa tərzi, məlahətli səsi, adamı özündən alan zəngulələri ilə Daşqın həm yarışma iştirakçılarını, həm musiqiçiləri, həm də məşqdə iştirak edən azsaylı tamaşaçıları və jurnalistləri ifası ilə heyran edir. Məşqlər başa çatandan sonra Daşqınla da söhbət etmək imkanımız oldu.

- Muğam müsabiqəsinin təşkilatçılarına təşəkkürümü bildirirəm. Buraya gələndən muğamın çox sirlərini öyrənmişəm. Məsuliyyət hissim daha da artıb. Tamaşaçı tələbkarlığını hiss edirəm. Öz üzərimdə daha çox çalışıram. İnanın ki, birinciliyə o qədər də can atmıram. Hədəfim o deyil. Məqsədim yaxşı xanəndə olmaqdır. Muğamımızın yaşamasında mənim də azacıq rolum olarsa, bu, mənə bəs edər. Dostlarımdan kim uğur qazansa, onu özümünkü bilib çox sevinərəm.

Beynəlxalq Muğam Mərkəzində olduğumuz müddətdə Nərgiz Cabbarovanın, Ülkər Abdullayevanın, Fuad Əzizzadənin, Vüsal Qasımovun ifasında bir-birindən maraqlı muğamlar, təsniflər dinlədik. Musiqi bütün insanların, dünyanın anlayacağı, danışa biləcəyi dildir. Kaş ki, dünyanın hər yerində silahlar yox, musiqi alətləri dil açıb danışaydı. Körpələr güllə səsinə yox, musiqi sədaları ilə sabahlarını açaydılar...

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***


**Azərbaycan Respublikası Audiovizual Şurası "Media haqqında" Azərbaycan Respublikası Qanununun 29.1-ci, 50.1.3-cü, 51-ci və 52-ci maddələrini rəhbər tutaraq ümumölkə yerüstü radio yayımçısı lisenziyasının alınması üçün 13 iyul 2022-ci il tarixdən *müsabiqə elan edir***

Yayım üçün radiotezliklər: Bakı Teleqüllə Kompleksi - 90.7 MHs, İsmayıllı rayonu "İvanovka" RTYS - 104.5 MHs, Lənkəran rayonu "Lənkəran" RTYS - 89.6 MHs, Şuşa rayonu "Şuşa" RTYS - 98.0 MHs, Zaqatala rayonu "Danaçı" RTYS - 90.9 MHs.

Müsabiqədə iştirakla bağlı bütün məlumatları şuranın rəsmi vebsaytının (www.acra.gov.az) "Müsabiqə elanları" bölməsinə daxil olmaqla almaq olar.

**Telefon: (012) 598-32-24**

***Müsabiqə komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti



# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Yaponiya şokdadır

## Dünyanın ən təhlükəsiz ölkəsində keçmiş baş nazir Sindzo Abe seçki kampaniyası mitinqində sui-qəsdin qurbanı olub







Yaponiyanın keçmiş baş naziri Sindzo Abe parlamentin yuxarı palatasına seçkilərə iki gün qalmış Nara şəhərində keçirilən seçki kampaniyası mitinqində çıxış edərkən sui-qəsdə məruz qalıb. Silahlı şəxs keçmiş baş naziri kustar üsulla hazırlanmış ov tüfəngi ilə vurub.

Sindzo Abe ağır vəziyyətdə vertalyotla xəstəxanaya çatdırılıb. Ancaq həkimlərin rəyinə görə, 67 yaşlı siyasətçinin xəstəxanaya gətirilərkən yolda ürəyi və nəfəsi dayanıb. Həkimlər onun həyatı üçün mübarizə aparsalar da, nəticə verməyib.

Yaponiya polisi Sindzo Abeyə atəş açdığı ehtimal edilən 41 yaşlı Yamaqami Tetsuyadı yaxalaya bilib. Məlum olub ki, bu şəxs Yaponiya Dəniz Özünümüdafiə Qüvvələrinin keçmiş döyüşçüsüdür. O, ilkin ifadəsində Sindzo Abenin siyasi kursundan narazı olduğu üçün siyasətçini öldürmək qərarına gəldiyini bildirib.

"BBC" agentliyi bildirir ki, bu hadisə silah sahibliyinin ciddi şəkildə məhdudlaşdırıldığı və siyasətdə demək olar heç bir zorakılığın olmadığı bir ölkə - Yaponiya üçün böyük şokdur. Yaponiya Nazirlər Kabinetinin baş katibi Hirokatsu Matsuno keçmiş baş nazirə sui-qəsd cəhdini şərh edərkən deyib ki, belə barbarlıqla barışmaq mümkün deyil. Hazırkı Baş nazir Fumio Kisida isə işgüzar səfərini yarımçıq saxlayıb və bütün nazirlərə Tokioya gəlməyi tapşırıb.

Qeyd edək ki, Sindzo Abe ilk dəfə 2006-cı ildə Yaponiyanın İkinci Dünya müharibəsindən sonra ən gənc baş naziri kimi vəzifəyə başlayıb. Siyasi qalmaqallar, itirilmiş pensiya qeydlərinə görə seçicilərin qəzəbinə tuş gələn Abe səhhətindəki vəziyyəti əsas gətirərək istefa verib. Amma 2012-ci ildə yenidən baş nazir vəzifəsinə qayıdıb. 2012-ci ildən 2020-ci ilə qədər yüksək post tutan Abe ən uzun müddət hakimiyyətdə qalan baş nazirdir.

Abe vəzifədə olduğu müddətdə müdafiə və xarici siyasətlə bağlı şahin siyasəti ilə tanınıb və eyni zamanda "Abenomics" kimi tanınan iqtisadi siyasətin əsasını qoyub. Hakimiyyəti dövründə Yaponiyanın inkişafı üçün bir çox işlər görüb. Hətta istefadan sonra da Yaponiyanın hakim Liberal Demokrat Partiyasında güclü fiqur hesab olunurdu. Təqaüdə çıxarkən isə bir çox məqsədə nail ola bilmədiyi üçün əzab çəkdiyini açıqlamışdı.

Ümumilikdə isə silahla bağlı sərt qaydaları olan Yaponiyada oxşar hadisələr çox nadir hallarda baş verir. Bu ölkədə silaha sahib olmaq olduqca çətindir. Siyasi zorakılıq faktları da digər ölkələrlə müqayisədə olduqca azdır. ABŞ-dan fərqli olaraq, Yaponiyada vətəndaşlar silah almaq üçün ciddi imtahandan və psixi sağlamlıq testlərindən keçməlidirlər. Hətta bu halda da yalnız ov tüfəngi və pnevmatik silahlara icazə verilir. Bu hadisə isə Yaponiyanı yenidən şoka salıb.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***


**Azərbaycan Respublikası Audiovizual Şurası "Media haqqında" Azərbaycan Respublikası Qanununun 29.1-ci, 50.1.3-cü, 51-ci və 52-ci maddələrini rəhbər tutaraq ümumölkə yerüstü radio yayımçısı lisenziyasının alınması üçün 13 iyul 2022-ci il tarixdən *müsabiqə elan edir***

Yayım üçün radiotezliklər: Bakı Teleqüllə Kompleksi - 93.3 MHs, Ağsu rayonu "Gülüstan" RTYS - 102.1 MHs, Lerik rayonu "Lerik" RTYS - 91.3 MHs, Şuşa rayonu "Şuşa" RTYS - 97.1 MHs, Quba rayonu "Dağlı" RTYS - 93.3 MHs.

Müsabiqədə iştirakla bağlı bütün məlumatları şuranın rəsmi vebsaytının (www.acra.gov.az) "Müsabiqə elanları" bölməsinə daxil olmaqla almaq olar.

**Telefon: (012) 598-32-24**

***Müsabiqə komissiyası***



**Azərbaycan Respublikası Audiovizual Şurası "Media haqqında" Azərbaycan Respublikası Qanununun 29.1-ci, 50.1.3-cü, 51-ci və 52-ci maddələrini rəhbər tutaraq ümumölkə yerüstü radio yayımçısı lisenziyasının alınması üçün 13 iyul 2022-ci il tarixdən *müsabiqə elan edir***

Yayım üçün radiotezliklər: Bakı Teleqüllə Kompleksi - 93.0 MHs, İsmayıllı rayonu "İvanovka" RTYS - 98.8 MHs, Lerik rayonu "Lerik" RTYS - 107.5 MHs, Şuşa rayonu "Şuşa" RTYS - 96.1 MHs, Ağstafa rayonu "Poylu" RTYS - 88.4 MHs.

Müsabiqədə iştirakla bağlı bütün məlumatları şuranın rəsmi vebsaytının (www.acra.gov.az) "Müsabiqə elanları" bölməsinə daxil olmaqla almaq olar.

**Telefon: (012) 598-32-24**

***Müsabiqə komissiyası***



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 4637
Sifariş 1867
Qiyməti 40 qəpik